EPSON
EXCEED YOUR VISION

XP-4100 Series

İstifadəçi üçün təlimat

NPD6102-02 AZ

Müəllif hüququ

Seiko Epson Şirkətinin əvvəlcədən yazılı razılığı olmadan bu nəşrin heç bir hissəsi çoxaldıla, bərpa sistemində saxlana, elektron, mexaniki, fotokopiya, yazma və ya başqa şəkildə ötürülə bilməz. Burada qeyd edilən məlumatların istifadəsilə bağlı heç bir patent məsuliyyəti qəbul edilmir. Eləcə də, burada qeyd edilən məlumatların istifadəsi nəticəsində dəyən zərərə görə heç bir məsuliyyət qəbul edilmir. Burada qeyd edilən məlumatlar yalnız bu Epson məhsulu ilə istifadə üçün hazırlanmışdır. Epson bu məlumatların başqa məhsullarla bağlı istifadəsinə görə heç bir məsuliyyət daşımır.

Nə Seiko Epson Şirkəti, nə də onun filialları satın alan şəxs və ya üçüncü tərəflərin bu məhsulu səhv istifadəsi, sui-istifadəsi, qəza halları, məhsula edilən dəyişikliklər, təmir və ya modifikasiyalar və ya (ABŞ istisna olmaqla) Seiko Epson Şirkətinin istifadə və texniki dəstək təlimatlarına düzgün əməl etməməsi nəticəsində dəyən zərərə görə satın alan şəxs və ya üçüncü tərəflərə qarşı heç bir məsuliyyət daşımır.

Nə Seiko Epson Şirkəti, nə də onun filialları Seiko Epson Şirkəti tərəfindən hazırlanan Orijinal Epson Məhsulları və ya Epson Tərəfindən Təsdiqlənmiş Məhsullardan qeyri hər hansı seçimlər və ya istehlak mallarının istifadəsi nəticəsində yaranan problemlərə və ya zərərə görə məsuliyyət daşımır.

Seiko Epson Şirkəti Epson Tərəfindən Təsdiqlənmiş Məhsullardan qeyri interfeys kabellərinin istifadəsi nəticəsində yaranan elektromaqnit maneələrinin vurduğu zərərə görə məsuliyyət daşımır.

© 2020 Seiko Epson Corporation

Bu kitabçanın kontenti və məhsulun spesifikasiyaları əvvəlcədən xəbərdarlıq verilmədən dəyişdirilə bilər.

Ticarət Nişanları

- EPSON® qeydiyyatdan keçmiş əmtəə nişanıdır və EPSON EXCEED YOUR VISION və ya EXCEED YOUR VISION Seiko Epson Corporation şirkətinin əmtəə nişanıdır.
- Epson Scan 2 software is based in part on the work of the Independent JPEG Group.
- libtiff

  Copyright © 1988-1997 Sam Leffler

  Copyright © 1991-1997 Silicon Graphics, Inc.

  Permission to use, copy, modify, distribute, and sell this software and its documentation for any purpose is hereby granted without fee, provided that (i) the above copyright notices and this permission notice appear in all copies of the software and related documentation, and (ii) the names of Sam Leffler and Silicon Graphics may not be used in any advertising or publicity relating to the software without the specific, prior written permission of Sam Leffler and Silicon Graphics.

  THE SOFTWARE IS PROVIDED "AS-IS" AND WITHOUT WARRANTY OF ANY KIND, EXPRESS, IMPLIED OR OTHERWISE, INCLUDING WITHOUT LIMITATION, ANY WARRANTY OF MERCHANTABILITY OR FITNESS FOR A PARTICULAR PURPOSE.

  IN NO EVENT SHALL SAM LEFFLER OR SILICON GRAPHICS BE LIABLE FOR ANY SPECIAL, INCIDENTAL, INDIRECT OR CONSEQUENTIAL DAMAGES OF ANY KIND, OR ANY DAMAGES WHATSOEVER RESULTING FROM LOSS OF USE, DATA OR PROFITS, WHETHER OR NOT ADVISED OF THE POSSIBILITY OF DAMAGE, AND ON ANY THEORY OF LIABILITY, ARISING OUT OF OR IN CONNECTION WITH THE USE OR PERFORMANCE OF THIS SOFTWARE.
- QR Code is a registered trademark of DENSO WAVE INCORPORATED in Japan and other countries.
- Intel® is a registered trademark of Intel Corporation.
- Microsoft®, Windows®, and Windows Vista® are registered trademarks of Microsoft Corporation.
- Apple, Mac, macOS, OS X, Bonjour, ColorSync, Safari, AirPrint, iPad, iPhone, iPod touch, and iTunes are trademarks of Apple Inc., registered in the U.S. and other countries.
- Use of the Works with Apple badge means that an accessory has been designed to work specifically with the technology identified in the badge and has been certified by the developer to meet Apple performance standards.
- Google Cloud Print, Chrome, Chrome OS, Google Play and Android are trademarks of Google LLC.
- Adobe and Adobe Reader are either registered trademarks or trademarks of Adobe Systems Incorporated in the United States and/or other countries.
- Ümumi Qeyd: Burada qeyd edilən digər məhsul adları yalnız izahat xarakterlidir və öz sahiblərinin əmtəə nişanları ola bilər.Həmin əmtəə nişanlarına dair bütün hüquqlardan Epson imtina edir.

Mündəricat

Müəllif hüququ

Ticarət Nişanları

Bu kitabça haqqında

Təlimat kitabçalarına giriş. 9
Məlumat axtarmaq üçün kitabçadan istifadə. . . . 9
Nişan və İşarələr. 11
Bu kitabçada istifadə edilən təsvirlər. 11
Əməliyyat sistemi istinadları. 11

Vacib təlimatlar

Təhlükəsizlik təlimatları. 13
Mürəkkəb üçün təhlükəsizlik təlimatları. 13
Printerə dair məsləhətlər və xəbərdarlıqlar. . . . 14
Printerin quraşdırılması üzrə məsləhətlər və xəbərdarlıqlar. 14
Printerin istifadəsi üzrə məsləhətlər və xəbərdarlıqlar. 14
Printerin daşınması və ya saxlanması üzrə məsləhətlər və xəbərdarlıqlar. 15
Printerin simsiz qoşulma ilə istifadəsinə dair məsləhətlər və xəbərdarlıqlar. 15
LCD ekranından istifadə üzrə məsləhətlər və xəbərdarlıqlar. 15
Şəxsi məlumatların qorunması. 15

Printer əsasları

Hissə adları və funksiyaları. 16
İdarəetmə Paneli üçün Təlimat. 18
İdarəetmə paneli. 18
Əsas Ekran Təlimatı. 19
LCD Ekranda göstərilən nişanlar. 19
Əsas Əməliyyatlar. 20
Simvolların daxil edilməsi. 22
Animasiyalara Baxış. 23

Şəbəkə Parametrləri

Şəbəkə Bağlantısı Növləri. 25
Wi-Fi Bağlantısı. 25
Wi-Fi Direct (Sadə AP) Bağlantısı. 25
Kompüterə qoşulma. 26
Ağıllı Cihaza qoşulma. 27
Simsiz yönləndirici vasitəsilə ağıllı cihaza qoşulma. 27
iPhone, iPad və ya iPod touch-ın Wi-Fi Direct-dən istifadə etməklə qoşulması. 28
Android Cihazlara Wi-Fi Direct-lə Qoşulma. . 31
Wi-Fi Direct istifadə etməklə, iOS və Android-dən başqa Cihazlara qoşulma. 34
Printerdən Wi-Fi Parametrlərinin Qurulması. . . 37
SSID və Şifrə daxil etməklə Wi-Fi Parametrlərinin Qurulması. 37
Düymə Basılma Quraşdırması ilə Wi-Fi Parametrlərinin Qurulması (WPS). 39
PİN Kod Quraşdırması (WPS) ilə Wi-Fi Parametrlərinin Təyini. 40
Əlavə Şəbəkə Parametrlərinin Quraşdırılması. 42
Şəbəkə Bağlantısı Vəziyyətinin Yoxlanılması. . . 43
Şəbəkə Nişanı. 43
İdarəetmə Panelindən Təfərrüatlı Şəbəkə Məlumatının Yoxlanması. 43
Şəbəkə bağlantısı hesabatının çapı. 44
Şəbəkə Statusu Səhifəsinin Çap Edilməsi. 50
Yeni Simsiz Yönləndiricilərin Dəyişdirilməsi və ya Əlavə Olunması. 51
Bağlantı Metodunun Kompüterə dəyişdirilməsi. 51
Wi-Fi Direct (adi AP) Parametrlərinin dəyişdirilməsi. 52
Wi-Fi-ın İdarəetmə Panelindən qeyri-aktiv edilməsi. 53
Wi-Fi Direct (adi AP) Bağlantısının İdarəetmə Panelindən Ayrılması. 54
Şəbəkə Parametrlərinin İdarəetmə Panelindən Bərpası. 54

Kağızın əlavə edilməsi

Kağızın idarə edilməsi üzrə xəbərdarlıqlar. 56
Müvafiq kağız növü və onun xüsusiyyətləri. . . . 57
Orijinal Epson kağızı. 57
Satışda kağızın olması. 58
Sərhədsiz Çap üçün Kağız. 58
2-üzlü Çap üçün Kağız. 59
Kağız Növünün Siyahısı. 59
Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi. 60

Mündəricat

Orijinalların yerləşdirilməsi

Orijinalların Skaner Şüşəsi-a yerləşdirilməsi. . . 63
Müxtəlif Oriinalları Necə Yerləşdirməli. 64

Çap etmək

İdarəetmə Panelindən çap etmə. 66
Cədvəlin Çapı. 66
Xətli Kağızın Çapı. 67
Zərflərin Çap Edilməsi. 67
Kompüterdən çap etmək. 69
Çapın Əsasları — Windows. 69
Çap Əsasları — Mac OS. 71
2-üzlü çap. 73
2-üzlü çap (yalnız Windows üçün). 75
Bir neçə səhifənin bir vərəqə çap edilməsi. . 76
Kağız ölçüsünə uyğun olmaq üçün çap etmək. 77
Çox sayda faylın birlikdə çap edilməsi (yalnız Windows üçün). 78
Afişa yaratmaq üçün bir şəklin bir neçə vərəqə çap edilməsi (yalnız Windows üçün). 79
Qabaqcıl funksiyalarla çap etmək. 85
Smart cihazlardan çap etmək. 88
Epson iPrint istifadəsi. 88
Epson Print Enabler İstifadəsi. 90
AirPrint istifadəsi. 90
Çap prosesinin ləğvi. 91
Çap prosesinin ləğvi — İdarəetmə Paneli. . . 91
Çap prosesinin ləğvi — Windows. 91
Çap prosesinin ləğvi — Mac OS. 91

Surət çıxarma

Surət çıxarmanın əsasları. 92
Müxtəlif Surətçıxarma Üsulları. 93
Müxtəlif Tərtibatda Surətçıxarma. 93
Şəkillərin kopyalanması. 93
Surətçıxarma üçün Menyu Seçimləri. 95

Skanlama

İdarəetmə panelindən skanlama. 97
Kompüterə skanlama. 97
Buluda Skanlama. 101
WSD istifadə etməklə skanlama. 103
Kompüterdən skanlama. 105
Epson Scan 2 ilə skanlama. 105
Smart cihazlardan skanlama. 112
Epson iPrint-in quraşdırılması. 112
Epson iPrint-dan İstifadə Edərək Skanlama 112

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

Qalan Mürəkkəbin və Texniki Dəstək Qutusunun Statusunun Yoxlanması. 114
Qalan Mürəkkəb və Texniki Dəstək Qutusunun Vəziyyətinin Yoxlanması — İdarəetmə Paneli. 114
Qalan Mürəkkəbin və Texniki Dəstək Qutusunun Statusunun Yoxlanması - Windows. 114
Qalan Mürəkkəbin və Texniki Xidmət Qutusunun Vəziyyətinin Yoxlanması — Mac OS X. 115
Mürəkkəb Kartrici Kodları. 115
Mürəkkəb kartricinin istifadəsi üzrə xəbərdarlıqlar. 116
Mürəkkəb kartricinin dəyişdirilməsi. 118
Texniki dəstək qutusu kodu. 122
Texniki dəstək qutusunun idarə edilməsi ehtiyat tədbirləri. 122
Texniki xidmət qutusunun dəyişdirilməsi. 123
Qara Mürəkkəb ilə Müvvəqəti Çap. 126
Qara Mürəkkəb ilə Müvəqqəti Çap — Windows. 126
Qara Mürəkkəb ilə Müvvəqəti Çap — Mac OS. 127
Qara Mürəkkəb Az Olduqda Qara Mürəkkəbin Saxlanılması (yalnız Windows üçün). 128

Printerin saz vəziyyətdə saxlanması

Çap Başlığının Qurumasının Qarşısının Alınması. 130
Printer başlığının yoxlanılması və təmizlənməsi. 130
Çap başlığının yoxlanılması və təmizlənməsi — idarəetmə paneli. 130
Printer başlığının yoxlanılması və təmizlənməsi — Windows. 131
Çap başlığının yoxlanması və təmizlənməsi — Mac OS. 131
Çap başlığının düzləndirilməsi. 132
Çap Başlığının Düzləndirilməsi — İdarəetmə Paneli. 132

Mündəricat

Kağız yolunun mürəkkəb ləkələrindən təmizlənməsi. 132
Skaner Şüşəsi-nin təmizlənməsi. 133
Şəffaf təbəqənin təmizlənməsi. 134
Enerjiyə qənaət. 136
Enerjiyə Qənaət — İdarəetmə paneli. 136

Parametrlər üçün Menyu Seçimləri

Təchizat Statusu üçün Menyu Seçimləri. 137
Əsas Parametrlər üçün Menyu Seçimləri. 137
Sönmə taymeri:. 137
Söndürmə parametr.:. 137
Yuxu taymeri:. 138
Dil/Language:. 138
Klaviatura. 138
Bütün parametrləri silin:. 138
Printer parametrləri üçün Menyu Seçimləri. . . 138
Kağız mənbəyi param.:. 138
Səssiz rejim:. 138
Mürəkkəbin Quruma Müddəti:. 138
Bütün parametrləri silin. 139
Şəbəkə Parametrləri üçün Menyu Seçimləri. . . 139
Veb Xidməti Parametrləri üçün Menyu Seçimləri. 139
Bələdçi funksiyaları üçün Menyu Seçimləri. . . 140
Müştəri Araşdırması üçün Menyu Seçimləri. . . 141
Avad. proq. yenilən. üçün Menyu Seçimləri. . . 141
Yenilə:. 141
Bildiriş:. 141
Bərpa edilir üçün Menyu Seçimləri. 141

Şəbəkə xidməti və proqram haqqında məlumat

Epson Connect Xidməti. 142
Printer Əməliyyatlarını Konfiqurasiya etmək üçün Proqram (Web Config). 142
Veb brauzerdə veb konfiqurasiyasının icrası. 143
Web Config proqramının Windows sistemində işə salınması. 143
Web Config proqramının Mac OS sistemində işə salınması. 144
Windows Printer Drayveri. 144
Windows Printer Drayverinin bələdçisi. 145
Windows Printer Drayveri üçün əməliyyat parametrlərinin təyini. 147
Mac OS Printer Drayveri. 147
Mac OS Printer Drayverinin bələdçisi. 148
Mac OS Printer Drayveri üçün əməliyyat parametrlərinin təyini. 149
Sənədləri və Təsvirləri Skanlamaq üçün Proqram (Epson Scan 2). 150
Şəbəkə skannerinin əlavə olunması. 150
İdarəetmə Panelindən Skanlama Əməliyyatlarının Konfiqurasiyası üçün Proqram (Epson Event Manager). 151
Təsvirlərin Çapı üçün Proqram (Epson Photo+). 151
Proqram Təminatının Yenilənməsi Alətləri (EPSON Software Updater). 152
Proqramların quraşdırılması. 153
Tətbiqi proqramlar və proqram təminatının yenilənməsi. 153
İdarə panelindən istifadə etməklə Printerin Proqramının yenilənməsi. 154
Proqramların silinməsi. 154
Proqramların quraşdırılmışının ləğvi — Windows. 154
Proqramların Quraşdırılmasının Ləğvi — Mac OS. 155

Problemlərin həlli

Printer statusunun yoxlanılması. 157
LCD Ekranda Mesajların Yoxlanılması. 157
Printer statusunun yoxlanılması — Windows. 158
Printer statusunun yoxlanılması — Mac OS 158
Proqram Təminatının Vəziyyətinin Yoxlanması. 159
İlişən kağızın çıxarılması. 159
İlişən kağızın Kağızın Arxa Ötürücüsü-dan çıxarılması. 159
İlişən kağızın printerin içərisindən çıxarılması. 159
İlişən Kağızın Arxa Qapaq-dan çıxarılması. . 161
Kağız düzgün ötürülmür. 162
Kağız ilişir. 162
Kağız əyri ötürülür. 163
Eyni anda bir neçə vərəq ötürülür. 163
Kağızın yerləşdirilməməsi xətası baş verir. . 163
Kağız Çap Zamanı Çıxır. 163
Enerji və idarəetmə paneli problemləri. 163
Printer yanmır. 163
Printer sönmür. 163
Enerji Avtomatik Sönür. 163

Mündəricat

LCD ekranı sönür. 164
Kompüterdən çap etmək olmur. 164
Bağlantının (USB) Yoxlanılması. 164
Bağlantının Yoxlanması (Şəbəkə). 164
Proqram Təminatı və Məlumatların Yoxlanması. 165
Kompüterdən printerin vəziyyətinin yoxlanması (Windows). 167
Kompüterdən Printerin Statusunun Yoxlanılması (Mac OS). 167
Şəbəkə Parametrlərini Qura Bilmədikdə. 168
Hətta Şəbəkə Parametrlərində Problemlər Olmasa Belə, Cihazlardan Qoşmaq Mümkün Deyil. 168
Printerə qoşulmuş SSID-in yoxlanılması. . . . 170
Kompüter üçün SSID-in yoxlanılması. 170
Mac-da USB 3.0 Cihazlarından İstifadə Zamanı Simsiz LAN (Wi-Fi) Bağlantıları Qeyri-stabil Olur. 171
iPhone, iPad, yaxud iPod touch-dan Çap etmək mümkün deyil. 171
Çap olunmuş materialda problemlər. 172
Çap Materialı Bulanıb və ya Rəng İtib. 172
Zolaqlar və ya Gözlənilməyən Rənglər Meydana Gəlir. 172
Təxminən 2.5 sm intervalda Rəngli Zolaqlar meydana gəlir. 172
Bulanıq Çaplar, Vertikal Zolaqlar və ya Yanlış düzləndirmə. 173
Çap keyfiyyəti aşağıdır. 173
Kağız bulaşır və ya sürtülür. 174
Avtomatik 2-tərəfli çap zamanı kağız bulaşır. 175
Çap olunan fotolar yapışqandır. 175
Şəkillər və ya fotolar çap edərkən qəribə rənglər çıxır. 175
Rənglər Displeydə Gördüyünüzdən Fərqlənir. 175
Haşiyələrsiz Çap etmək olmur. 176
Sərhədsiz çap zamanı təsvirin kənarları kəsilir. 176
Çap olunmuş materialın vəziyyəti, ölçüsü və ya haşiyələri səhvdir. 176
Çap olunmuş simvollar səhv yaxud pozulmuş formada çıxır. 177
Çap olunan şəkil tərsinədir. 177
Çaplarda Mozaik Naxışlar. 177
Surəti çıxarılan şəkildə qeyri-bərabər rənglər, mürəkkəb ləkələri, nöqtələr və düz xətlər çıxır. 178
Kopyalanmış şəkildə dalğalı cizgilər görünür. 178
Surəti çıxarılmış şəkildə orijinalın arxa tərəfinin şəkli görünür. 178
Çap edilmiş şəkil problemi həll oluna bilmir 178
Digər çap problemləri. 179
Çap prosesi çox asta gedir. 179
Davamlı şəkildə işlədən zaman çap və ya surətiçıxarmanın sürəti zəifləyir. 179
Mac OS X v10.6.8 proqramının icra olunduğu kompüterdə çapı ləğv etmək olmur. 179
Skanlamanı başlatmaq olmur. 180
İdarəetmə panelindən istifadə edərkən skanlamanı işə salmaq olmur. 180
Skanlanmış şəkil problemləri. 181
Skaner şüşəsindən skanlayarkən qeyri-bərabər rənglər, çirk, ləkələr və s. yaranır. . 181
Şəkil Keyfiyyəti Aşağıdır. 181
Şəkillərin fonunda ofset görünür. 181
Mətn bulanıq çıxır. 182
Xara naxışları (tora bənzər kölgələr) yaranır. 182
Skaner Şüşəsində Düzgün Sahəni Skanlamaq Mümkün Deyil. 182
Rəsmcik Rəsmciyində Önbaxış Mümkün Deyil. 183
Axtarılabilən PDF kimi saxlayarkən mətn düzgün tanınmır. 183
Skanlamış Şəkildə Problemləri Həll Etmək Mümkün Deyil. 183
Digər skanlama problemləri. 184
Skanlama çox asta gedir. 184
Davamlı skanlama zamanı skanlamanın sürəti xeyli azalır. 184
PDF/Multi-TIFF formatına skanlayarkən skanlama dayanır. 184
Digər problemlər. 185
Printerə toxunduqda yüngülcə elektrik vurur. 185
Əməliyyat səsləri çox ucadır. 185
Proqram fayrvol ilə bloklanıb (yalnız Windows üçün). 185

Əlavə

Texniki spesifikasiyalar. 186
Printer Spesifikasiyaları. 186
Skaner spesifikasiyaları. 187
İnterfeys spesifikasiyaları. 187
Şəbəkə Funksiyası Siyahısı. 188
Wi-Fi Xüsusiyyətləri. 188
Təhlükəsizlik protokolu. 189

Mündəricat

Dəstəklənən üçüncü tərəf xidmətlər. 189
Ölçülər. 189
Elektrik Spesifikasiyaları. 190
Ətraf mühit spesifikasiyaları. 190
Sistem tələbləri. 191
Normativlərə dair məlumat. 191
Standartlar və təsdiqlər. 191
Surət çıxarma üzrə məhdudlaşdırmalar. . . . 192
Printerin Daşınması və Saxlanması. 193
Köməyi haradan əldə etməli. 195
Texniki dəstək vebsaytı. 195
Epson dəstək xidmətinə müraciət. 195

Bu kitabça haqqında

Təlimat kitabçalarına giriş

Aşağıdakı kitabçalar Epson printeri ilə birlikdə təmin edilir. Təlimatlarla yanaşı, printerin özündə və ya Epson proqramlarında mövcud olan müxtəlif kömək məlumatlarını yoxlayın.

❏ Buradan Başlat (kağız kitabça)

Printerin quraşdırılması, proqramın quraşdırılması, printerin istifadəsi, problemlərin həlli və s. barədə məlumat təmin edir.

❏ İstifadəçi üçün təlimat (rəqəmsal kitabça)

Bu kitabça. Printerin istifadəsi, printerin şəbəkədə istifadə edilməsi zamanı şəbəkə parametrləri və problemlərin həll edilməsi ilə bağlı ümumi məlumatları və təlimatları təmin edir.

Yuxarıda qeyd edilən kitabçaların ən son versiyalarını aşağıdakı metodla əldə edə bilərsiniz.

❏ Kağız kitabça

Epson Avropa nümayəndəliyinin http://www.epson.eu/Support ünvanında yerləşən dəstək vebsaytına və ya Epson ümumdünya dəstək xidmətinin http://support.epson.net/ ünvanında yerləşən dəstək vebsaytına baxın.

❏ Rəqəmsal kitabça

EPSON Software Updater proqramını kompüterinizdə işə salın. EPSON Software Updater Epson proqramları və rəqəmsal kitabçalar üçün yeniləmələri axtarır və ən son versiyaları yükləməyinizə imkan verir.

Əlaqədar məlumat

➡ 152 səhifəsində “Proqram Təminatının Yenilənməsi Alətləri (EPSON Software Updater)”

Məlumat axtarmaq üçün kitabçadan istifadə

PDF şəklində olan kitabça sizə açar sözlə istədiyiniz məlumatı axtarmaq və ya əlfəcinlərdən istifadə etməklə, birbaşa konkret bölmələrə keçmək imkanı verir.Siz həm də yalnız sizə lazım olan səhifələri çap edə bilərsiniz.Bu bölmə kompüterinizdə Adobe Reader X-də açılmış PDF kitabçasından necə istifadə olunmasını izah edir.

Bu kitabça haqqında

Açar sözə görə axtarmaq

Redaktə et > **Təkmil Axtarış** klikləyin.Axtarış pəncərəsinə tapmaq istədiyiniz informasiya üçün açar sözü (mətn) daxil edin, sonra **Axtarış** klikləyin.Nəticələr siyahı kimi görünür.Həmin səhifəyə keçmək üçün göstərilən nəticələrdən birinin üzərinə klikləyin.



Birbaşa əlfəcinlərdən keçmək

Həmin səhifəyə keçmək üçün başlığın üzərinə klikləyin.Həmin bölmədəki daha aşağı səviyyəli başlıqlara baxmaq üçün + və ya > klikləyin.Əvvəlki səhifəyə qayıtmaq üçün klaviaturanızda aşağıdakı əməliyyatı həyata keçirin.

❏ Windows: **Alt**, basıb saxlayın, sonra ← basın.

❏ Mac OS: Əmr düyməsinə basıb saxlayın, sonra ← basın.



Yalnız sizə lazım olan səhifələrin çapı

Siz həm də yalnız sizə lazım olan səhifələri çıxara və çap edə bilərsiniz.**Fayl** menyusunda **Çap et** seçiminə klikləyin, sonra **Çap olunacaq səhifələr** bölməsində **Səhifələr**-də çap etmək istədiyiniz səhifələri müəyyənləşdirin.

❏ Bir sıra səhifəni müəyyənləşdirmək üçün başlama və bitmə səhifəsi arasında defis daxil edin.

Məsələn: 20 – 25

❏ Bu seriyada olmayan səhifələri müəyyən etmək üçün səhifələri vergüllə ayırın.

Məsələn: 5, 10, 15



Nişan və İşarələr

> ⚠ ***Diqqət:***
> *Bədən xəsarətlərinin qarşısını almaq üçün təlimata diqqətlə riayət olunmalıdır.*

> ***Vacibdir:***
> *Avadanlığınıza dəyəcək ziyanın qarşısını almaq üçün təlimata diqqətlə riayər olunmalıdır.*

Qeyd:
Əlavə və istinad məlumatları təmin edir.

Əlaqədar məlumat

➡ Əlaqədar bölmələrə linklər.

Bu kitabçada istifadə edilən təsvirlər

- ❏ Printer drayverinin ekran şəkilləri və Epson Scan 2 (skaner drayver) ekranlarının şəkilləri Windows 10 və ya macOS Mojave sistemindəndir. Ekranlardakı kontent model və vəziyyətə görə dəyişir.
- ❏ Bu kitabçada istifadə edilən şəkillər yalnız nümunə xarakteri daşıyır. Modeldən asılı olaraq azca fərqlər ola ilər, lakin işləmə metodu eynidir.
- ❏ LCD ekranında menyu elementlərindən bəziləri model və parametrlərdən asılı olaraq dəyişə bilər.
- ❏ Siz xüsusi proqramdan istifadə edərək QR kodunu oxuya bilərsiniz.

Əməliyyat sistemi istinadları

Windows

Bu kitabçada qeyd edilən "Windows 10", "Windows 8.1", "Windows 8", "Windows 7", "Windows Vista" və "Windows XP" kimi terminlər aşağıdakı əməliyyat sistemlərinə aiddir. Bununla yanaşı, "Windows" bütün versiyaları bildirmək üçün istifadə edilir.

- ❏ Microsoft® Windows® 10 əməliyyat sistemi
- ❏ Microsoft® Windows® 8.1 əməliyyat sistemi
- ❏ Microsoft® Windows® 8 əməliyyat sistemi
- ❏ Microsoft® Windows® 7 əməliyyat sistemi
- ❏ Microsoft® Windows Vista® əməliyyat sistemi
- ❏ Microsoft® Windows® XP əməliyyat sistemi
- ❏ Microsoft® Windows® XP Professional x64 Edition əməliyyat sistemi

Bu kitabça haqqında

Mac OS

Bu təlimat kitabçasında "Mac OS" termini macOS Mojave, macOS High Sierra, macOS Sierra, OS X El Capitan, OS X Yosemite, OS X Mavericks, OS X Mountain Lion, Mac OS X v10.7.x və Mac OS X v10.6.8 terminlərinə istinad üçün istifadə edilir.

Vacib təlimatlar

Təhlükəsizlik təlimatları

Bu printeri təhlükəsiz istifadə etmək üçün aşağıdakı təlimatları oxuyun və əməl edin.Bu kitabçanı gələcək istifadə üçün saxlayın.Həmçinin printerin üzərindəki bütün xəbərdarlıqlar və təlimatlara əməl edin.

- ❏ Printerinizdə istifadə edilən bəzi simvollar təhlükəsizliyi və printerdən düzgün istifadəni təmin edir. Simvolların mənasını öyrənmək üçün aşağıdakı veb saytı ziyarət edin.

  http://support.epson.net/symbols

- ❏ Yalnız printerlə birlikdə verilən elektrik kabelindən istifadə edin və bu kabeldən başqa cihazlarla istifadə etməyin. Başqa kabellərin bu printer üçün və bu kabelin başqa cihazlar üçün istifadəsi yanğına yaxud elektrik vurmasına səbəb ola bilər.
- ❏ Elektrik kabelinin yerli təhlükəsizlik standartlarına uyğun olmasına əmin olun.
- ❏ Printerin kitabçasında xüsusi olaraq qeyd edilməsə, heç vaxt özbaşına elektrik kabeli, ştepsel, printer bölməsi, skaner bölməsi və ya seçimləri sökməyin, dəyişməyin və ya təmir etməyin.
- ❏ Aşağıdakı hallarda printeri elektrik rozetkasından çıxarın və peşəkar servis personalına təmir etdirin:

  Elektrik kabeli yaxud ştepsel zədələndikdə; printerə su düşdükdə; printer yerə düşdükdə və ya örtüyü zədələndikdə; printer normal işləmirsə və ya fəaliyyətində ciddi dəyişiklik olduqda. İstifadə təlimatlarında qeyd edilməyən parametrləri tənzimləməyin.
- ❏ Printeri kabelin rahat taxılıb-çıxarıla biləcəyi divar rozetkasının yaxınına yerləşdirin.
- ❏ Printeri çölə, çirk yaxud tozun çox olduğu yerə, su, qızdırıcı olan yerə, yüksək temperatur, rütubət, titrəmə kimi təsirlərə məruz qalan yerə yerləşdirməyin.
- ❏ Printerə su tökülməməsinə və yaş əllərlə printerə toxunmamağa diqqət yetirin.
- ❏ Printeri ürək aparatından ən az 22 sm aralı yerləşdirin. Printerdən yayılan radio dalğaları ürək aparatına mənfi təsir edə bilər.
- ❏ LCD ekran zədələnsə, dilerə müraciət edin. Maye kristal məhlulu əllərinizə dəysə, həmin nahiyəni sabun və su ilə yaxşıca yuyun. Maye kristal məhlulu gözlərinizə düşərsə, dərhal su ilə yaxalayın. Yaxşıca yuduqdan sonra da diskomfort və ya görmə problemi qalırsa, dərhal həkimə müraciət edin.

Mürəkkəb üçün təhlükəsizlik təlimatları

- ❏ İstifadə edilmiş mürəkkəb kartriclərini çıxararkən diqqətli olun, mürəkkəb çıxışı hissəsində mürəkkəb qala bilər.
  - ❏ Mürəkkəb dərinizə dəysə, həmin nahiyəni sabun və su ilə yaxşıca yuyun.
  - ❏ Mürəkkəb gözlərinizə düşərsə, dərhal su ilə yaxalayın. Yaxşıca yuduqdan sonra da diskomfort və ya görmə problemi davam edərsə, dərhal həkimə müraciət edin.
  - ❏ Müərrək ağzınıza dəyərsə, hərhal həkimə müraciət edin.
- ❏ Mürəkkəb kartricini və texniki dəstək qutusunu sökməyin; yoxsa mürəkkəb gözlərinizə yaxud dərinizə dəyə bilər.
- ❏ Mürəkkəb kartriclərini çox çalxalamayın və yerə salmayın. Həmçinin, onları sıxmayın və ya etiketini cırmayın. Yoxsa mürəkkəb sıza bilər.

❏ Mürəkkəb kartriclərini və texniki dəstək qutusunu uşaqların əli çatmayan yerdə saxlayın.

Printerə dair məsləhətlər və xəbərdarlıqlar

Printerə yaxud əmlakınıza zərər gəlməməsi üçün bu təlimatları oxuyun və əməl edin. Bu kitabçanı gələcək istifadə üçün saxlayın.

Printerin quraşdırılması üzrə məsləhətlər və xəbərdarlıqlar

❏ Printerin hava girişlərini örtməyin və ya qarşısını kəsməyin.

❏ Yalnız printerin qeydlərində bildirilən elektrik mənbəyi istifadə edin.

❏ Mütəmadi olaraq yandırılıb-söndürülən fotokopiya cihazları və ya hava nəzarət sistemlərilə eyni xətt üzərində olan rozetkalardan istifadə etməyin.

❏ Divar açarları və ya avtomatik taymerlərlə idarə edilən elektrik rozetkalarından istifadə etməyin.

❏ Bütün kompüter sistemini dinamiklər və ya simsiz telefonların bazaları kimi potensial elektromaqnit dalğalarından uzaq yerləşdirin.

❏ Elektrik kabelləri aşınma, kəsilmə, əzilmə və s. kimi təsirlərin olmayacağı yerə yerləşdirilməlidir. Elektrik kabellərinin üstünə heç nə qoymayın və ya onların üstünə çıxılmasına imkan verməyin. Bütün elektrik kabellərinin giriş və çıxış nöqtələrində əyilməməsi və düz olmasına diqqət yetirin.

❏ Printer üçün uzatma kabeli istifadə edirsinizsə, bu kabelə qoşulan cihazların ümumi amper həddinin kabelin tab gətirəcəyi amber həddindən çox olmamasına diqqət yetirin. Həmçinin divar rozetkasına qoşulan cihazların ümumi amper həddinin rozetkanın tab gətirəcəyi amber həddindən çox olmamasına diqqət yetirin.

❏ Printeri Almaniyada istifadə edəcəksinizsə, binada müvafiq qısa dövrə müdafiəsi və voltaj artmasına qarşı printer üçün qoruma təmin edən 10 və ya 16 amperlik sayğac olmalıdır.

❏ Printeri kompüterə və ya başqa cihaza kabellə qoşduqda, birləşmələrin düzgün olmasına diqqət yetirin. Hər birləşdiricinin bir düzgün vəziyyəti var. Birləşdiricini səhv qoşduqda, qoşulan hər iki cihaza zərər dəyə bilər.

❏ Printeri onun tam şəkildə yerləşəcəyi düz və sabit bir yerə yerləşdirin. Printer əyri qalsa, düzgün işləməyəcək.

❏ Sənəd qapağını tam qaldıra bilmək üçün printerin yuxarısında yer saxlayın.

❏ Kağızın tam çıxa bilməsi üçün printerin qabağında kifayət qədər yer saxlayın.

❏ Tez-tez temperatur və rütubət dəyişməsi olan yerlərə yerləşdirməyin. Həmçinin, printeri birbaşa günəş işığının düşmədiyi, qızdırıcı aparatlardan və güclü işıqdan uzaq olan yerdə saxlayın.

Printerin istifadəsi üzrə məsləhətlər və xəbərdarlıqlar

❏ Printerin boşluqlarına heç nə daxil etməyin.

❏ Çap prosesi zamanı printerin içərisinə əlinizi daxil etməyin.

❏ Printerin içərisindəki ağ kabelə toxunmayın.

❏ Printerin içərisində və ya yanında alışan qazlar ehtiva edən aerozol məhsulları istifadə etməyin. Yoxsa, yanğın baş verə bilər.

❏ Printer başlığına əllə müdaxilə etməyin; yoxsa printerə zərər verə bilərsiniz.

- ❏ Skaner bölməsini bağlayarkən barmaqlarınızı arasında qoymamağa diqqət yetirin.
- ❏ Orijinalları yerləşdirərkən skaner şüşəsi-ni çox bərk basmayın.
- ❏ Həmişə printeri ⏻ düyməsi ilə söndürün. ⏻ işığı tam sönənədək printeri rozetkadan çıxarmayın və ya rozetkadan söndürməyin.
- ❏ Printeri uzun müddət istifadə etməyəcəksinizsə, kabeli rozetkadan çıxarın.

Printerin daşınması və ya saxlanması üzrə məsləhətlər və xəbərdarlıqlar

- ❏ Printeri saxlayarkən və ya daşıyarkən onu əyməyin, vertikal yerləşdirməyin və ya baş-aşağı çevirməyin; yoxsa mürəkkəb sıza bilər.
- ❏ Printeri daşımazdan əvvəl printer başlığının baza vəziyyətində (sağa) olmasına əmin olun.

Printerin simsiz qoşulma ilə istifadəsinə dair məsləhətlər və xəbərdarlıqlar

- ❏ Bu printerin radio dalğaları elektron tibbi cihazların işinə təsir edə, onların pis işləməsinə səbəb ola bilər.Bu printeri tibb müəssisəsində və ya tibbi cihazların yanında istifadə edərkən həmin sahə üzrə məsul şəxslərin göstərişlərinə və tibbi cihazların üzərindəki xəbərdarlıq və təlimatlara əməl edin.
- ❏ Bu printerin radio dalğaları avtomatik qapılar və ya yanğın həyəcan siqnalları kimi avtomatik çalışan cihazların işinə təsir edə, onların pis işləməsi nəticəsində qəzalara səbəb ola bilər.Bu printeri avtomatik cihazların yanında istifadə edərkən cihazların üzərindəki xəbərdarlıq və təlimatlara əməl edin.

LCD ekranından istifadə üzrə məsləhətlər və xəbərdarlıqlar

- ❏ LCD ekranı bir neçə kiçik parlaq və ya tünd nöqtə ehtiva edə bilər və xüsusiyyətlərinə görə qeyri-bərabər parlaqlıq təmin oluna bilər. Bu, normaldır və zədələnmə kimi qəbul edilməməlidir.
- ❏ Yalnız quru, yumşaq parça ilə təmizləyin. Maye və ya kimyəvi təmizləmə maddəsi istifadə etməyin.
- ❏ Üzərinə ağırlıq düşərsə LCD ekranın xarici örtüyü sına bilər. Ekranın səthi çatlasa və ya qırılsa dilerə müraciət edin və sınmış şüşəyə toxunmayın və ya çıxarmağa çalışmayın.

Şəxsi məlumatların qorunması

Printeri kiməsə verdikdə və ya atarkən idarə panelində **Parametrlər** > **Bərpa edilir** > **Bütün parametrlər** seçərək printerin yaddaşında saxlanmış şəxsi məlumatları silin.

Printer əsasları

Hissə adları və funksiyaları



1	Arxa kağız ötürmə	Kağızı əlavə edir.
2	Kağız dəstəyi	Əlavə edilən kağızı dəstəkləyir.
3	Kənar düzləndiricisi	Kağızı birbaşa printerə ötürür. Kağızın kənarlarına sürüşdürün.
4	Ötürücü qoruyucusu	Yad cisimlərin printerə düşməsinə imkan vermir. Adətən bu qoruyucunu bağlı saxlayın.
5	Çıxış rəfi	Çıxan kağızı tutur.
6	Dayandırıcı	Çap materiallarının çıxış rəfindən düşməsinin qarşısını alır.



1	Sənəd örtüyü	Skanlayarkən kənar işığın qarşısını alır.
2	Skaner şüşəsi	Orijinalları yerləşdirin.

Printer əsasları

❸	İdarəetmə paneli	Printerin vəziyyətini göstərir və çap parametrlərini qurmağınıza icazə verir.



❶	Skaner qurğusu dəstəyi	Skanner qurğusunu dəstəkləyir.
❷	Skaner qurğusu	Yerləşdirilən orijinalları skanlayır. Printerin içərisində ilişən kağızı çıxararkən və ya kartricləri dəyişərkən açın.
❸	Mürəkkəb kartrici tutacağı	Mürəkkəb kartriclərini quraşdırın. Mürəkkəb çap başlığı ucqlularından axır.



❶	Texniki xidmət qutusunun qapağı	Texniki xidmət qutusunu əvəzləyən zaman çıxarın. Texniki qulluq qutusu təmizləyən və ya çap zamanı kiçik miqdarda qalıq mürəkkəb toplayan konteynerdi.
❷	Arxa qapaq	İlişmiş kağızı çıxararkən çıxarın.
❸	Elektrik girişi	Elektrik kabeli qoşulur.
❹	USB girişi	Kompüterə qoşmaq üçün USB kabelini birləşdirir.

Əlaqədar məlumat

➡ 18 səhifəsində "İdarəetmə paneli"

İdarəetmə Paneli üçün Təlimat

İdarəetmə paneli



❶	Printeri yandırır və ya söndürür. Enerji işığı sönülü olduqda yoxladıqdan sonra elektrik naqilini şəbəkədən ayırın.
❷	Əsas ekranı göstərir.
❸	Menyuları və mesajları göstərir. Menyu seçmək və ya parametrləri qurmaq üçün idarəetmə panelində düymələrdən istifadə edin.
❹	Çap etmək üçün səhifələrin sayını seçir.
❺	Cari əməliyyatı dayandırır.
❻	Çap etmək və ya kopyalamaq kimi əməliyyatları başladır.
❼	Vəziyyətdən asılı olaraq müxtəlif funksiyalara tətbiq olunur.
❽	Menyu seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra seçilmiş menyuya daxil olmaq üçün OK düyməsinə basın.
❾	Əvvəlki ekrana qayıdır.
❿	Probleminiz olduğu zaman həlləri göstərir.

Əsas Ekran Təlimatı



1	Printer üçün quraşdırılmış elementləri nişanlar kimi göstərir. ▲ ▼ ◀ ▶ basmaqla piktoqramı seçin və cari parametrləri yoxlamaq və ya hər parametr menyusuna müraciət etmək üçün OK düyməsini basın.	
2	Hər bir menyunu göstərir.	
	Köçür	Sənədin surətini çıxarmağınıza icazə verir.
	Skanla	Sənəd və ya fotonu skanlamağınıza icazə verir.
	Müxtəlif çaplar	Müxtəlif düzənlərdə surətçıxarma və xətli kağız və ya təqvimlərin çapı kimi müxtəlif çap xüsusiyyətləri təklif edir.
	Parametrlər	Texniki təmir, printerin quraşdırılması və şəbəkə parametrləri ilə əlaqədar parametrləri quraşdırmağınıza icazə verir.
	Texniki xidmət	Ucluq yoxlaması nümunəsini çap etməklə və başlığın təmizlənməsini həyata keçirməklə, çap başlığını tənzimləyərək çap materiallarınızda bulanıqlıq və ya birləşməni yaxşılaşdırmaqla, ucluqların tutulmasına imkan verməmək kimi çap materiallarınızın keyfiyyətini artırmaq üçün tövsiyə olunan menyuları göstərir.
	Ağıllı telefon connect	Simsiz yönləndirici olmadan printeri birbaşa simsiz cihazınıza qoşmağa icazə verir.
3	Siz ▶ düyməsini basmaqla sağa sürüşdürə bilərsiniz.	

LCD Ekranda göstərilən nişanlar

Aşağıdakı işarələr printerin statusundan asılı olaraq, LCD ekranda göstərilir.

	Təchizat Statusu ekranını göstərir. Təxmini mürəkkəb səviyyələri və texniki dəstək qutusunun təxmini xidmət müddətini yoxlaya bilərsiniz.

	Şəbəkə bağlantısı vəziyyətini göstərir. Cari parametrləri yoxlamaq və dəyişdirmək üçün seçin. Bu, aşağıdakı menyu üçün qısayoldur. **Parametrlər** > **Şəbəkə Parametrləri** > **Wi-Fi quraşdırması**	
		Printer simsiz (Wi-Fi) şəbəkəyə qoşulmayıb.
		Printer SSID, yerləşdirilməmiş IP ünvanını axtarır və ya simsiz (Wi-Fi) şəbəkə ilə problem baş verib.
		Printer simsiz (Wi-Fi) şəbəkəyə qoşulub. Zolaqların sayı bağlantı siqnalının gücünü göstərir. Zolaq sayı nə qədər çox olarsa, bağlantı bir o qədər güclü olar.
		Printer Wi-Fi Direct (Sadə AP) rejimində simsiz (Wi-Fi) şəbəkəyə qoşulmayıb.
		Printer Wi-Fi Direct (Sadə AP) rejimində simsiz (Wi-Fi) şəbəkəyə qoşulub.
	Səssiz rejim rejiminin printer üçün qurulub-qurulmadığını göstərir. Bu xüsusiyyət aktivləşdirilərkən printer əməliyyatlarının etdiyi səs azalır, lakin çap sürəti zəifləyə bilər. Buna baxmayaraq, seçilmiş kağız növü və çap keyfiyyətindən asılı olaraq səslər azalmaya bilər.	
	Əlavə məlumat olduğunu göstərir. Mesajı göstərmək üçün nişanı seçin.	
	Elementlər ilə problem olduğunu göstərir. Problemi necə həll etməyə nəzər salmaq üçün nişanı seçin.	

Əsas Əməliyyatlar

Elementləri seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrindən istifadə edərək fokusu hərəkət etdirin, sonra seçiminizi təsdiqləmək və ya seçilmiş funksiyanı icra etmək üçün OK düyməsinə basın.



Printer əsasları

▲ ▼ ◀ ▶ düymələrindən istifadə etməklə, fokusu parametr elementinə doğru aparın, sonra elementi yandırmaq və ya söndürmək üçün OK düyməsinə basın.



Dəyər, ad, ünvan və s. daxil etmək üçün ▲ ▼ ◀ ▶ düymələrindən istifadə etməklə, fokusu daxiletmə sahəsinə aparın, sonra isə ekrandakı klaviaturanı göstərmək üçün OK düyməsinə basın.



Simvolların daxil edilməsi

Ekran Klaviaturası

Şəbəkə parametrlərini qurarkən və daha çox şey edən zaman ekrandakı klaviaturadan istifadə etməklə simvollar və işarələr daxil edə bilərsiniz.



❶	Simvol sayını göstərir.
❷	Kursorun yerini giriş mövqeyinə dəyişdirir.
❸	Yuxarı və aşağı registrlər arasında dəyişir.
❹	Simvol növünü dəyişir. Siz hərf və rəqəmlər, simvolları daxil edə bilərsiniz.
❺	Sadəcə elementi seçməklə tez-tez istifadə edilən e-poçt domeni ünvanları və ya URL-ləri daxil edir.
❻	Boşluq daxil edir.
❼	Simvol daxil edir.
❽	Sola doğru simvol silir.

Qeyd:

❏ *Mövcud piktoqramlar parametr elementindən asılı olaraq fərqlənir.*

❏ *Siz həmçinin ↻ düyməsindən istifadə edərək simvol növünü dəyişdirə bilərsiniz.*

Ekrandakı Rəqəmli Klaviatura

Siz surətlərin sayını və s. daxil etdiyiniz zaman ekrandakı klaviaturadan istifadə etməklə, rəqəmləri daxil edə bilərsiniz.

Ekran klaviaturası daha böyük rəqəmlərin daxil edilməsini asanlaşdırır. Daha kiçik rəqəm daxil edən zaman +/- düymələrindən istifadə edin.



❶	Daxil edilmiş rəqəmi sola silir.
❷	Daxil edilən rəqəmi təmizləyir.
❸	Daxil edilən rəqəmləri təsdiqləyir və ekran klaviaturasını bağlayır.

Qeyd:
Daxil etmədən imtina etmək və ekrandakı rəqəmli klaviaturanı bağlamaq üçün ⮌ düyməsini basın.

Animasiyalara Baxış

LCD ekranda kağızın yerləşdirilməsi və ya ilişmiş kağızın çıxarılması kimi əməliyyat təlimatlarının animasiyalarına baxa bilərsiniz.

❏ ⓘ düyməsinə basın: Kömək ekranını göstərir.**Necə etməli** seçin, sonra isə baxmaq istədiyiniz elementləri seçin.

❏ Əməliyyat ekranının aşağısında **Necə etməli** seçin: Kontekstə həssas animasiyanı göstərir.



Printer əsasları

❶	Mərhələlərin ümumi sayı və cari mərhələnin nömrəsini göstərir. Yuxarıdakı nümunədə o, 2 – 3 mərhələni göstərir.
❷	Əvvəlki addıma qayıtmaq üçün ◀ basın.
❸	Cari mərhələ vasitəsilə gedişatınızı göstərir.Gedişat zolağı sona çatanda animasiya təkrarlanır.
❹	Növbəti addıma hərəkət etmək üçün ▶ basın.

Şəbəkə Parametrləri

Şəbəkə Bağlantısı Növləri

Siz aşağıdakı bağlantı üsullarından istifadə edə bilərsiniz.

Wi-Fi Bağlantısı

Printeri, kompüteri və ya ağıllı cihazı simsiz yönləndiriciyə qoşun. Bu, kompüterlərin simsiz yönləndirici vasitəsilə Wi-Fi ilə qoşulduğu ev və ya ofis şəbəkələri üçün səciyyəvi qoşulma üsuludur.



Əlaqədar məlumat

➡ 26 səhifəsində “Kompüterə qoşulma”

➡ 27 səhifəsində “Ağıllı Cihaza qoşulma”

➡ 37 səhifəsində “Printerdən Wi-Fi Parametrlərinin Qurulması”

Wi-Fi Direct (Sadə AP) Bağlantısı

Evdə və ya ofisdə Wi-Fi istifadə etməyən zaman və ya printeri, kompüteri və ya ağıllı cihazı birbaşa qoşmaq istədikdə bu bağlantı metodunu istifadə edin. Bu rejimdə, printer simsiz yönləndirici kimi çıxış

edir və siz standart simsiz yönləndiricidən istifadə etmədən cihazları printerə qoşa bilərsiniz. Lakin, printerə birbaşa qoşulmuş cihazlar printer vasitəsilə bir-birilə əlaqə yarada bilmir.



Printer Wi-Fi və Wi-Fi Direct (Sadə AP) bağlantısı ilə eyni zamanda qoşula bilər. Lakin, Wi-Fi Direct (Sadə AP) bağlantısı bölməsində printer Wi-Fi ilə qoşulduqda şəbəkə bağlantısı başlatsanız, Wi-Fi müvəqqəti olaraq əlaqəni dayandıracaq.

Əlaqədar məlumat

➡ 28 səhifəsində "iPhone, iPad və ya iPod touch-ın Wi-Fi Direct-dən istifadə etməklə qoşulması"

➡ 31 səhifəsində "Android Cihazlara Wi-Fi Direct-lə Qoşulma"

➡ 34 səhifəsində "Wi-Fi Direct istifadə etməklə, iOS və Android-dən başqa Cihazlara qoşulma"

Kompüterə qoşulma

Printeri kompüterə qoşmaq üçün quraşdırıcıdan istifadə etməyi tövsiyə edirik. Quraşdırıcını aşağıdakı üsullardan birini istifadə edərək icra edə bilərsiniz.

❏ Vebsaytdan quraşdırma

Aşağıdakı vebsayta daxil olun və məhsulun adını daxil edin. **Quraşdırma**-a keçin və sonra quraşdırmağa başlayın.

http://epson.sn

❏ Proqram təminatı diskindən istifadə etməklə quraşdırma (yalnız proqram təminatı diski ilə verilən modellər və disk drayvları olan Windows kompüterlərindən istifadə edən istifadəçilər üçün.)

Proqram təminatı diskini kompüterə daxil edin və sonra ekrandakı təlimatlara əməl edin.

Bağlantı Metodlarının Seçilməsi

Aşağıdakı ekran görünənə qədər ekrandakı təlimatlara əməl edin və sonra printerin kompüterə qoşulma metodunu seçin.

Bağlantı növünü seçin və sonra **Növbəti** klikləyin.



Ekrandakı təlimatları izləyin.

Ağıllı Cihaza qoşulma

Simsiz yönləndirici vasitəsilə ağıllı cihaza qoşulma

Printeri ağıllı cihaz ilə eyni Wi-Fi şəbəkəsinə (SSID) qoşduğunuz zaman printeri ağıllı cihazdan istifadə edə bilərsiniz. Printeri ağıllı cihazdan istifadə etmək üçün aşağıdakı vebaytdan quraşdırın. Printerə qoşmaq istədiyiniz ağıllı cihazdan vebsayta daxil olun.

http://epson.sn > **Quraşdırma**

Qeyd:
Əgər siz kompüter və ağıllı cihazı eyni zamanda printerə qoşmaq istəyirsinizsə, biz quraşdırıcıdan istifadə etməklə, ilk olaraq kompüterdən qoşmağı tövsiyə edirik.

Əlaqədar məlumat

➡ 88 səhifəsində "Smart cihazlardan çap etmək"

iPhone, iPad və ya iPod touch-ın Wi-Fi Direct-dən istifadə etməklə qoşulması

Bu metod sizə printeri simsiz yönləndirici olmadan birbaşa iPhone, iPad və ya iPod touch-a qoşmaq icazəsi verir. Bu metoddan istifadə etməklə qoşulmaq üçün aşağıdakı şərtlər tələb olunur. Əgər mühitiniz bu şərtlərə uyğun gəlmirsə, siz **Digər ƏS cihazları** seçməklə qoşula bilərsiniz. Qoşulmaqla bağlı təfərrüatlar üçün aşağıda "Əlaqəli məlumata" baxın.

❏ iOS 11 və ya ən son

❏ QR kodunu skanlamaq üçün standart kamera proqramından istifadə

❏ Epson iPrint versiyası 7.0 və ya daha sonrakı versiya

Epson iPrint ağıllı cihazdan çap etmək üçün istifadə olunur. Əvvəlcədən ağıllı cihazda Epson iPrint quraşdırın.

Qeyd:
Siz bu parametrləri yalnız printer və birdəfədə qoşmaq istədiyiniz ağıllı cihaz üçün etməlisiniz. Siz Wi-Fi Direct-i qeyri-aktiv etməyənə və ya şəbəkə parametrlərini standartlarına bərpa etməyənə kimi bu parametrləri yenidən etməyinizə ehtiyac yoxdur.

1. Əsas ekranda **Ağıllı telefon connect** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



2. **Quraşdırmanı başlat** seçin.

3. **iOS** seçin.



Şəbəkə Parametrləri

Printerin idarə panelində göstərilən QR kodunu daxil edin.



4. iPhone, iPad və ya iPod touch-nızda standart Kamera proqramını başladın, sonra FOTO rejimində printerin idarə panelində göstərilən QR kodunu skanlayın.



iOS 11 və ya daha sonrakı versiya üçün Kamera proqramını istifadə edin. Siz iOS 10 və ya daha əvvəlki versiya üçün Kamera proqramından istifadə etməklə printerə qoşula bilməzsiniz. Bundan başqa, siz QR kodlarını skanlamaq üçün proqramdan istifadə etməklə qoşula bilməzsiniz. Qoşula bilmirsinizsə, printerin idarəetmə panelində **Digər üsullar** seçin. Qoşulmaqla bağlı təfərrüatlar üçün aşağıda "Əlaqəli məlumata" baxın.

5. iPhone, iPad və ya iPod touch-ın ekranında göstərilən bildiriş üzərinə toxunun.



6. **Qoşul** seçiminə toxunun.



7. Printerin idarə panelində **Növbəti** seçin.
8. iPhone, iPad və ya iPod touch-da Epson çap proqramını başladın.
   Epson çap proqramlarının nümunələri

Epson iPrint

Epson Creative Print

9. Epson çap proqramı ekranında **Printer is not selected.** üzərinə toxunun.
10. Qoşulmaq istədiyiniz printeri seçin.

Printeri seçmək üçün printerin idarə panelində göstərilən məlumata baxın.



11. Printerin idarə panelində **Bitdi** seçin.

Printerə əvvəllər qoşulmuş ağıllı cihazlar üçün onları yenidən qoşmaq üçün ağıllı cihazın Wi-Fi ekranında şəbəkə adını (SSID) seçin.

Əlaqədar məlumat

➡ 34 səhifəsində "Wi-Fi Direct istifadə etməklə, iOS və Android-dən başqa Cihazlara qoşulma"

➡ 88 səhifəsində "Smart cihazlardan çap etmək"

Android Cihazlara Wi-Fi Direct-lə Qoşulma

Bu üsul naqilsiz ruter olmadan printeri Android cihazınıza birbaşa qoşmaq imkanı verir. Bu funksiyadan istifadə etmək üçün aşağıdakı şərtlər tələb olunur.

❏ Android 4.4 və ya sonrakı versiya

❏ Epson iPrint 7.0 və ya sonrakı versiya

Epson iPrint ağıllı cihazdan çap etmək üçün istifadə olunur. Epson iPrint-i ağıllı cihazda əvvəlcədən quraşdırın.

Qeyd:
Bu parametrləri qoşulmaq istədiyiniz printer və ağıllı cihaz üçün yalnız bir dəfə qurmalı olacaqsınız. Wi-Fi Direct-i qeyri-aktiv etməsəniz və ya şəbəkə parametrlərini standarta bərpa etməsəniz, bu parametrləri təkrar qurmalı olmayacaqsınız.

Şəbəkə Parametrləri

1. Əsas ekranda **Ağıllı telefon connect** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



2. **Quraşdırmanı başlat** seçin.
3. **Android** seçin.



4. Ağıllı cihazda Epson iPrint-i başladın.

5. Epson iPrint ekranında **Printer is not selected.** düyməsinə toxunun.

6. Epson iPrint ekranında qoşulmaq istədiyiniz printeri seçin.

Printeri seçmək üçün printerin idarəetmə panelində göstərilən məlumata baxın.



Qeyd:
Printerlər Android cihazından asılı olaraq göstərilməyə bilər. Printerlər göstərilmirsə, ***Digər ƏS cihazları*** *seçməklə qoşulun. Qoşulma haqqında ətraflı məlumat üçün aşağıdakı keçidə istinad edin.*

7. Cİhazın qoşulmasının təsdiqlənməsi ekranı göstərildikdə, **Təsdiqlə** seçin.

8. Printerin idarəetmə panelində **Bitdi** seçin.

Əvvəllər printerə qoşulmuş ağıllı cihazlar yenidən qoşmaq üçün, ağıllı cihazın Wi-Fi ekranındakı şəbəkə adını (SSID) seçin.

Əlaqədar məlumat

➡ 34 səhifəsində "Wi-Fi Direct istifadə etməklə, iOS və Android-dən başqa Cihazlara qoşulma"

➡ 88 səhifəsində "Smart cihazlardan çap etmək"

Wi-Fi Direct istifadə etməklə, iOS və Android-dən başqa Cihazlara qoşulma

Bu metod sizə printeri simsiz yönləndirici olmadan birbaşa ağıllı cihazlara qoşmağa icazə verir.

Qeyd:
Siz bu parametrləri yalnız printer və birdəfədə qoşmaq istədiyiniz ağıllı cihaz üçün etməlisiniz. Siz Wi-Fi Direct-i qeyri-aktiv etməyənə və ya şəbəkə parametrlərini standartlarına bərpa etməyənə kimi bu parametrləri yenidən etməyinizə ehtiyac yoxdur.

1. Əsas ekranda **Ağıllı telefon connect** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



2. **Quraşdırmanı başlat** seçin.

3. **Digər ƏS cihazları** seçin.



   Printer üçün Wi-Fi Direct üçün SSID və Parol göstərilir.

4. Ağıllı cihazın Wi-Fi ekranında printerin idarə panelində göstərilən SSID-i seçin, sonra parolu daxil edin.

   Ekran şəkli iPhone-da nümunədir.

5. Printerin idarə panelində **Növbəti** seçin.

6. Ağıllı cihazda Epson çap proqramını başladın.

   Epson çap proqramlarının nümunələri

Epson iPrint

Epson Creative Print

7. Epson çap proqramı ekranında **Printer is not selected.** üzərinə toxunun.

8. Qoşulmaq istədiyiniz printeri seçin.

   Printeri seçmək üçün printerin idarə panelində göstərilən məlumata baxın.



9. Printerin idarə panelində **Bitdi** seçin.

Printerə əvvəllər qoşulmuş ağıllı cihazlar üçün onları yenidən qoşmaq üçün ağıllı cihazın Wi-Fi ekranında şəbəkə adını (SSID) seçin.

Əlaqədar məlumat

➡ 88 səhifəsində "Smart cihazlardan çap etmək"

Printerdən Wi-Fi Parametrlərinin Qurulması

Şəbəkə parametrlərini printerin idarəetmə panelindən bir neçə üsulla qura bilərsiniz. İstifadə etdiyiniz mühit və şərtlərə uyğun gələn bağlantı üsulunu seçin.

SSID və parol kimi simsiz yönləndirici üçün məlumatı bilirsinizsə, parametrləri əllə qura bilərsiniz.

Əgər simsiz yönləndirici WPS-i dəstəkləyirsə, basma düyməsi quraşdırmasından istifadə etməklə, parametrlər qura bilərsiniz.

Printeri şəbəkəyə qoşduqdan sonra printerə istifadə etmək istədiyiniz cihazdan qoşulun (kompüter, ağıllı cihaz, planşet və s.)

Statik IP ünvanından istifadə etmək üçün təkmil şəbəkə parametrləri qurun.

Əlaqədar məlumat

➡ 37 səhifəsində "SSID və Şifrə daxil etməklə Wi-Fi Parametrlərinin Qurulması"
➡ 39 səhifəsində "Düymə Basılma Quraşdırması ilə Wi-Fi Parametrlərinin Qurulması (WPS)"
➡ 40 səhifəsində "PİN Kod Quraşdırması (WPS) ilə Wi-Fi Parametrlərinin Təyini"
➡ 42 səhifəsində "Əlavə Şəbəkə Parametrlərinin Quraşdırılması"

SSID və Şifrə daxil etməklə Wi-Fi Parametrlərinin Qurulması

Printerin idarə panelindən simsiz yönləndiriciyə qoşulmaq üçün zəruri məlumatları daxil etməklə, Wi-Fi şəbəkəsi quraşdıra bilərsiniz. Bu metoddan istifadə etməklə quraşdırmaq üçün sizə simsiz yönləndirici üçün SSID və şifrə lazımdır.

Qeyd:
Əgər standart parametrləri ilə simsiz yönləndiricidən istifadə edirsinizsə, SSID və parol etiketin üzərindədir. Əgər SSID və parolu bilmirsinizsə, simsiz yönləndirici ilə təqdim olunmuş sənədlərə baxın.



Şəbəkə Parametrləri

1. Əsas ekranda seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



2. **Wi-Fi (Tövsiyə edilir)** seçin.

3. Növbəti ekranı göstərmək üçün OK düyməsini basın.

   Əgər şəbəkə bağlantısı artıq quraşdırılıbsa, bağlantı təfərrüatları göstərilir. Parametrləri dəyişdirmək üçün **Parametrləri dəyiş** seçin.

4. **Wi-Fi Quraşdırma Ustadı** seçin.

5. Simsiz yönləndirici üçün SSID seçin.

   Qeyd:
   - ❏ *Əgər qoşulmaq istədiyiniz SSID printerin idarəetmə panelində göstərilməyibsə, siyahını yeniləmək üçün ↻ düyməsinə basın. O, hələ də göstərilməzsə, + düyməsinə basın, sonra SSID-i birbaşa daxil edin.*
   - ❏ *Şəbəkə adını (SSID) bilmirsinizsə, onun simsiz yönləndiricinin etiketində yazılıb-yazılmadığını yoxlayın. Əgər simsiz yönləndiricini standart parametrləri ilə istifadə edirsinizsə, etiketdə yazılmış SSID-dən istifadə edin. Əgər hər hansı bir məlumat tapa bilmirsinizsə, simsiz yönləndirici ilə təqdim olunan sənədlərə baxın.*

6. OK düyməsini basın və parolu daxil edin.

   Qeyd:
   - ❏ *Şifrə işarələrə həssasdır.*
   - ❏ *Şifrəni bilmirsinizsə, onun simsiz yönləndiricinin etiketində yazılıb-yazılmadığını yoxlayın. Etiketdə şifrə "Network Key", "Wireless Password" və s. kimi yazıla bilər. Əgər simsiz yönləndiricini standart parametrləri ilə istifadə edirsinizsə, etiketdə yazılmış şifrədən istifadə edin.*

7. Bitirdiyiniz zaman **OK** seçin.

8. Parametrləri yoxlayın və sonra **Quraşdırmanı başlat** seçin.

9. Bitirmək üçün **Rədd et** seçin.

   Qeyd:
   Qoşula bilməsəniz, A4 ölçülü boş kağız yerləşdirin və sonra bağlantı hesabatını çap etmək üçün ***Yoxlama hesabatını çap et*** *seçin.*

10. ⌂ düyməsinə basın.

Əlaqədar məlumat

➡ 22 səhifəsində "Simvolların daxil edilməsi"
➡ 43 səhifəsində "Şəbəkə Bağlantısı Vəziyyətinin Yoxlanılması"
➡ 168 səhifəsində "Şəbəkə Parametrlərini Qura Bilmədikdə"

Düymə Basılma Quraşdırması ilə Wi-Fi Parametrlərinin Qurulması (WPS)

Siz simsiz yönləndiricidə düyməni basmaqla Wi-Fi şəbəkəsini avtomatik olaraq quraşdıra bilərsiniz. Əgər aşağıdakı şərtlər yerinə yetirilibsə, siz bu üsuldan istifadə edə bilərsiniz.

❏ Simsiz yönləndirici WPS (Wi-Fi ilə Qorunmuş Quraşdırma) ilə təmin olunmuşdur.

❏ Cari Wi-Fi bağlantısı simsiz yönləndiricidə düyməni basmaqla yaradılmışdır.

1. Əsas ekranda seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



2. **Wi-Fi (Tövsiyə edilir)** seçin.

3. OK düyməsinə basın.

   Əgər şəbəkə bağlantısı artıq quraşdırılıbsa, bağlantı təfərrüatları göstərilir. Parametrləri dəyişdirmək üçün **Parametrləri dəyiş** seçin.

4. **Push düyməsinin Quraşd. (WPS)** seçin.

5. Təhlükəsizlik işığı yanmayana qədər simsiz yönləndiricidə [WPS] düyməsini basıb saxlayın.



   Əgər [WPS] düyməsinin harada olduğunu bilmirsinizsə və ya simsiz yönləndiricidə düymələr yoxdursa, ətraflı məlumat üçün simsiz yönləndirici ilə birgə verilmiş sənədlərə baxın.

6. Printerdə OK düyməsinə basın.

7. Ekranı bağlayın.

   Ekran konkret vaxt müddətindən sonra avtomatik bağlanır.

   Qeyd:
   Bağlantı baş tutmasa, simsiz yönləndiricini yenidən başladın, onu printerə yaxınlaşdırın və yenidən cəhd edin. Hələ də işləmirsə, şəbəkə bağlantısı hesabatını çap edin və həll yolunu yoxlayın.

8. ⌂ düyməsinə basın.

Əlaqədar məlumat

➡ 43 səhifəsində "Şəbəkə Bağlantısı Vəziyyətinin Yoxlanılması"

➡ 168 səhifəsində "Şəbəkə Parametrlərini Qura Bilmədikdə"

PİN Kod Quraşdırması (WPS) ilə Wi-Fi Parametrlərinin Təyini

PIN koddan istifadə etməklə simsiz yönləndiriciyə avtomatik qoşula bilərsiniz. Əgər simsiz yönləndiricinin WPS (Wi-Fi İlə Qorunmuş Quraşdırma) imkanı varsa, quraşdırmaq üçün bu üsuldan istifadə edə bilərsiniz. Simsiz yönləndiriciyə PİN kodu daxil etmək üçün kompüterdən istifadə edin.

Şəbəkə Parametrləri

1. Əsas ekranda seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



2. **Wi-Fi (Tövsiyə edilir)** seçin.

3. OK düyməsinə basın.

   Əgər şəbəkə bağlantısı artıq quraşdırılıbsa, bağlantı təfərrüatları göstərilir. Parametrləri dəyişdirmək üçün **Parametrləri dəyiş** seçin.

4. **Digərləri** > **PIN kodun quraşd. (WPS)** seçin.

5. Printerin idarə panelində göstərilən PİN kodu (səkkiz rəqəmli nömrə) kompüterinizi isitfadə edərək simsiz yönləndiriciyə iki dəqiqə ərzində daxil edin.

   Qeyd:
- ***Şəklin təkm.** subyektin yerini təhlil edərək rəngi tənzimləyir.Buna görə də, şəkli kiçildərək, böyüdərək, kəsərək və ya fırladaraq subyektin yerini dəyişsəniz, rəng gözlənilməz şəkildə dəyişə bilər.Sərhədsiz parametri seçdikdə də subyektin yeri dəyişir və rəngin dəyişməsinə səbəb olur.Şəkil fokusdan kənardadırsa, çalar qeyri-təbii ola bilər.Rəng dəyişsə və ya qeyri-təbii olsa, **Şəklin təkm.** deyil, başqa rejimdə çap edin.*

Windows

Rəng Korreksiyası-dan **Daha çox seçimlər** tab-vərəqində rəng düzəlişi metodunu seçin.

Avtomatik seçsəniz, rənglər avtomatik tənzimlənərək kağız növünə və çap keyfiyyəti parametrlərinə uyğunlaşır.**Fərdi** seçsəniz və **Təkmil** klikləsəniz, özünüz parametrləri dəyişə bilərsiniz.

Mac OS

Çap dialoquna daxil olun.Açılan menyudan **Rəng uyğunluğu** seçin və ardından **EPSON Color Controls** seçin.Açılan menyudan **Color Options** seçin və ardından mövcud seçimlərdən birini seçin.**Təkmil parametrlər** yanındakı oxu klikləyin və müvafiq parametrləri seçin.

Su nişanının çapı (yalnız Windows üçün)

"Məxfi" kimi su nişanlarını kağıza çap edə bilərsiniz.Həmçinin öz su nişanınızı da əlavə edə bilərsiniz.



Qeyd:
Bu funksiya haşiyəsiz çap üçün mövcud deyil.

Su nişanının xüsusiyyətləri-ni **Daha çox seçimlər** tab-vərəqində klikləyin və ardından su nişanı seçin.Su nişanının sıxlığı və vəziyyəti kimi təfsilatları dəyişmək üçün **Parametrlər** klikləyin.

Başlıq və sonluğun çapı (yalnız Windows üçün)

Başlıq və sonluq qismində istifadəçi adı və çap tarixi kimi məlumatları çap edə bilərsiniz.

Su nişanının xüsusiyyətləri-ni **Daha çox seçimlər** tab-vərəqində klikləyin və ardından **Yuxarı sərlövhə/Aşağı sərlövhə** seçin. **Parametrlər** klikləyin və açılan siyahıdan lazımi elementləri seçin.

Aydın Ştrik Kodların Çapı (yalnız Windows üçün)

Siz ştrix-kodu aydın şəkildə çap edə və onun skanlanmasını asanlaşdıra bilərsiniz. Bu funksiyanı yalnız çap etdiyiniz ştrix-kodu skanlamaq mümkün olmadıqda aktivləşdirin.



Siz aşağıdakı şərtlərlə bu funksiyadan istifadə edə bilərsiniz.

❏ Kağız: Adi kağız, Surət kağızı, Məktub başlığı və ya Zərf

❏ Keyfiyyət: **Standart**

Çap keyfiyyəti çap zamanı dəyişə bilər. Çap sürəti azala və çap sıxlığı daha da çoxala bilər.

Qeyd:
Vəziyyətdən asılı olaraq, tutqunluğun aradan qaldırılması həmişə mümkün olmaya bilər.

Printer drayverinin **Texniki xidmət** tab-vərəqəsində **Genişləndirilmiş parametrlər** klikləyin, sonra **Ştrix-kod rejimi** seçin.

Smart cihazlardan çap etmək

Epson iPrint istifadəsi

Epson iPrint smartfon və ya planşet kimi smart cihazdan şəkillər, sənədlər və veb səhifələri çap etməyə imkan verən proqramdır. Siz lokal çap (printerinizlə eyni simsiz şəbəkəyə qoşulan smart cihazdan çap etmək) və ya uzaqdan çap (internetdə uzaq məkandan çap) edə bilərsiniz. Uzaqdan çap etmək üçün printerinizi Epson Connect xidmətində qeydiyyatdan keçirin.

Əgər printer şəbəkəyə qoşulu olmayanda Epson iPrint-i başlatsanız, sizə printerə qoşulmaq göstərişi verən mesaj göstərilir. Bağlantını tamamlamaq üçün göstərişlərə əməl edin. İstismar şərtləri ilə bağlı aşağıda URL-ə baxın.

http://epson.sn

Əlaqədar məlumat

➡ 142 səhifəsində “Epson Connect Xidməti”

Epson iPrint-in quraşdırılması

Epson iPrint-i smart cihazınızda aşağıdakı URL və ya QR kodundan quraşdıra bilərsiniz.

http://ipr.to/a

Epson iPrint ilə çap etmək

Epson iPrint proqramını smart cihazdan işə salın və əsas ekrandan istifadə etmək istədiyiniz elementi seçin.

Aşağıdakı ekranlar xəbərdarlıq edilmədən dəyişdirilə bilər. Məhsuldan asılı olaraq, məzmunlar fərqlənə bilər.



❶	Proqram işə düşdükdə əsas ekran göstərilir.
❷	Printerin necə quraşdırılmasını və FAQları göstərir.
❸	Printeri seçmək və printer parametrlərini dəyişmək üçün müvafiq ekranı göstərir. Printeri seçdikdən sonra növbəti dəfə onu seçməyə ehtiyac yoxdur.
❹	Fotolar və sənədlər kimi çap etmək istədiklərinizi seçin.
❺	Foto menyusu seçildikdə çap olunan fotolar ekranı göstərilir.
❻	Kağız ölçüsü və növü kimi çap parametrlərini təyin etmək üçün ekranı göstərir.
❼	Kağızın ölçüsünü göstərir. Bu, düymə kimi göstərildikdə, printerdə hal-hazırda təyin edilmiş kağız parametrlərini göstərmək üçün ona toxunun.
❽	Seçdiyiniz şəkilləri və sənədləri göstərir.
❾	Çapa başlayır.

Qeyd:
iPhone sistemin, iPad, iPod touch və iOS ilə sənəd menyusundan çap etmək üçün çap etmək istədiyiniz sənədi Epson iPrint-da fayl paylaşma funksiyası ilə ötürdükdən sonra iTunes işə salın.

Epson Print Enabler İstifadəsi

Sənədləri, e-poçtları, şəkilləri və veb səhifələri simsiz rabitə üzərindən birbaşa Android telefon və ya planşetinizdən (Android v4.4 və sonrakı versiya) çap edə bilərsiniz. Bir neçə kliklə, Android cihazınız eyni simsiz şəbəkəyə qoşulmuş Epson printerini aşkarlayacaq.

Qeyd:
Əməliyyatlar cihazdan asılı olaraq fərqli ola bilər.

1. Printerə kağız yükləyin.
2. Printerinizi simsiz çap etmə üçün quraşdırın.
3. Android cihazınızda Google Play-dən yüklənilmiş Epson Print Enabler-i quraşdırın.
4. Android cihazınızı printerinzlə eyni simsiz şəbəkəyə qoşun.
5. Android cihazınızda **Parametrlər** bölməsinə keçin, **Qoşulu cihazlar** > **Çap** seçimini edin və ardından Epson Print Enabler-i aktiv edin.
6. Chrome kimi Android proqramından menyu işarəsinə toxunun və ekranda olan hər şeyi çap edin.

   Qeyd:
   Printerinizi görmürsünüzsə, ***Bütün Printerlər*** *toxunun və printerinizi seçin.*

AirPrint istifadəsi

AirPrint drayverlər quraşdırmağa və ya proqram təminatı yükləməyə ehtiyac olmadan iPhone, iPad, iPod touch və Mac-dan dərhal simsiz çap etməyə imkan verir.

Works with Apple AirPrint

Qeyd:
Əgər məhsulunuzun idarə panelində kağız konfiqurasiyası mesajlarını qeyri-aktiv etmisinizsə, AirPrint istifadə edə bilməzsiniz. Ehtiyac olarsa, mesajları aktivləşdirmək üçün aşağıdakı keçidə baxın.

1. Kağızı məhsulunuza yerləşdirin.
2. Məhsulunuzu simsiz çap etmə üçün quraşdırın. Aşağıdakı keçidə baxın.

   http://epson.sn
3. Apple cihazınızı məhsulla eyni simsiz şəbəkəyə qoşun.
4. Cihazdan məhsula çap edin.

   Qeyd:
   Ətraflı məlumat üçün Apple vebsaytında AirPrint səhifəsinə baxın.

Əlaqədar məlumat

➡ 138 səhifəsində "Printer parametrləri üçün Menyu Seçimləri"

Çap prosesinin ləğvi

Qeyd:

- *Windows əməliyyat sistemində çap olunacaq material tamamilə printerə göndərildikdən sonra çap prosesini kompüterdən dayandırmaq mümkün deyil.Bu halda printerin idarəetmə panelindən istifadə edərək çap prosesini ləğv edin.*
- *Mac OS sistemindən bir neçə səhifəni çap edərkən, idarəetmə panelindən istifadə edərək proseslərin hamısını ləğv etmək mümkün deyil.Bu halda kompüterdən çap prosesini ləğv edin.*
- *Çap işini Mac OS X v10.6.8-dan şəbəkə ilə göndərmisinizsə, çap prosesini kompüterdən ləğv etmək mümkün olmayacaq.Bu halda printerin idarəetmə panelindən istifadə edərək çap prosesini ləğv edin.*

Çap prosesinin ləğvi — İdarəetmə Paneli

İcra olunan çap işini ləğv etmək üçün printerin idarəetmə panelində ⊽ basın.

Çap prosesinin ləğvi — Windows

1. Printer drayveri pəncərəsinə daxil olun.
2. **Texniki xidmət** tab-vərəqini seçin.
3. **Çap növbəsi** klikləyin.
4. Ləğv etmək istədiyiniz işi sağla klikləyin və ardından **Ləğv et** seçin.

Əlaqədar məlumat

➡ 144 səhifəsində "Windows Printer Drayveri"

Çap prosesinin ləğvi — Mac OS

1. **Paneldəki** printer işarəsini klikləyin.
2. Ləğv etmək istədiyiniz işi seçin.
3. İşi ləğv edin.
   - ❏ OS X Mountain Lion və ya daha yeni versiya

     Gedişat ölçüsünün yanındakı ⊗ klikləyin.
   - ❏ Mac OS X v10.6.8 -dan v10.7.x -a

     Sil klikləyin.

Surət çıxarma

Surət çıxarmanın əsasları

Bu bölmə idarəetmə panelində **Köçür** menyusundan surətçıxarma üçün addımları izah edir.

1. Printerə kağız yükləyin.
2. Orijinalları yerləşdirin.
3. Əsas ekranda **Köçür** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



4. **Köçür** tab-vərəqində parametrləri qurun.
   - ❏ Ağ-Qara/Rəngli: Rəngli surətçıxarma və ya monoxrom (ağ-qara) surətçıxarma seçimini edin.
   - ❏ (2-tərəfli kopyalama): 2-üzlü surətçıxarma zamanı, elementi seçin, **1>2-Tərəfli** seçin və **Sənədin Səmtləşdirilməsi** və **Cildləmə Kənar Boşluğu** üçün parametrləri seçin.Təsdiqləmək üçün **Bitdi** seçin.
   - ❏ (Sıxlıq): Surətçıxarma sıxlığı üçün parametrləri qurmaq üçün element seçin.Sıxlığı artırmaq üçün + düyməsini və sıxlığı azaltmaq üçün - düyməsini basın.Təsdiqləmək üçün **Bitdi** seçin.
5. **Təkmil Parametrlər** tab-vərəqəsini seçin və ardından digər parametrləri müvafiq qaydada seçin.
6. **Köçür** tab-vərəqəsini seçin və ardından surətlərin sayını təyin edin.
7. ◇ düyməsinə basın.

   Qeyd:
   Kopyalanmış şəklin rəngi, ölçüsü və haşiyəsi orijinaldan bir qədər fərqlənir.

Əlaqədar məlumat

➡ 56 səhifəsində "Kağızın əlavə edilməsi"
➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

➡ 95 səhifəsində "Surətçıxarma üçün Menyu Seçimləri"

Müxtəlif Surətçıxarma Üsulları

Müxtəlif Tərtibatda Surətçıxarma

Şəxsiyyət vəsiqəsinin hər iki üzünü A4 ölçülü kağızın bir üzünə və ya kitabın iki üz-üzə səhifəsini tək bir vərəqə kopyalamaq kimi məqsədinizə uyğun menyu seçərək asanlıqla köçürə bilərsiniz.

1. Printerə kağız yükləyin.
2. İdarəetmə panelində **Müxtəlif çaplar** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.
3. **Müxtəlif nüsxələr** və sonra surətçıxama menyusunu seçin.
   - ❏ ID Kartı

     Şəxsiyyət vəsiqəsinin hər iki tərəfini skanlayır və A4 kağızının bir üzünə köçürür.
   - ❏ Kitabın surəti

     İki A4 üz-üzə kitab səhifəsini və digərlərini tək bir vərəqə köçürür.
   - ❏ Haşiyəsiz Nüsxə

     Kənarların ətrafında haşiyəsiz kopyalayır. Şəkil kağızın kənarlarından haşiyələri silmək üçün bir az böyüdülüb.
4. Orijinalları yerləşdirin.

   Kitabın surəti üçün ekranda göstərilən təlimatlara uyğun olaraq orijinalların ilk səhifəsini yerləşdirin və sonra OK düyməsini basın.
5. **Köçür** tab-vərəqində parametrləri qurun.

   Mövcud elementlər surətçıxarma menyusundan asılı olaraq dəyişir.
6. **Təkmil Parametrlər** tab-vərəqəsindəki hər bir element üçün zəruri parametrləri seçin.
7. **Köçür** tab-vərəqəsini seçin və ardından surətlərin sayını təyin edin.
8. ◇ düyməsinə basın.
9. **ID Kartı** və ya **Kitabın surəti** üçün orijinalların qalan hissəsini daxil etmək üçün ekrandakı təlimatlara əməl edin və ardından **Skanı başlat** seçin.

Şəkillərin kopyalanması

Eyni zamanda bir neçə şəkli kopyalaya bilərsiniz.Həmçinin solğun şəkillərdə rəngləri bərpa edə bilərsiniz.

Kopyalaya biləcəyiniz ən kiçik orijinal ölçüsü 30×40 mm-dir.

Qeyd:
Şəklin ətrafındakı ağ boşluq aşkarlanmaya bilər.

Surət çıxarma

1. Printerə kağız yükləyin.
2. Əsas ekranda **Müxtəlif çaplar** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.
3. **Müxtəlif nüsxələr** > **Şəkilləri Kopyala/Bərpa et** seçin.
4. Zəruri olarsa, çap parametrlərini dəyişdirin və sonra ▶ düyməsinə basın.
5. Şəkilləri skaner şüşəsi üzərinə yerləşdirin və ardından **Skanı başlat** seçin.

   Şəkillər skanlanır və ekranda göstərilir.
6. Foto tənzimləmələri kimi parametrləri qurmaq lazım olarsa, ↻ düyməsini basın.

   Qeyd:
   Şəklin bir hissəsini böyütməklə çap etmək istəyirsinizsə, ***Kəs/Miqyası dəyiş*** *seçin və ardından parametrləri seçin.▲▼◀▶ düymələrindən istifadə edərək çap sahəsi çərçivəsini sürüşdürün və sonra + və ya - düyməsindən istifadə edərək çərçivənin ölçüsünü dəyişdirin.*
7. Lazım olarsa, surətlərin sayını təyin edin və sonra ◈ düyməsini basın.

Əlaqədar məlumat

➡ 56 səhifəsində "Kağızın əlavə edilməsi"
➡ 65 səhifəsində "Eyni zamanda skanlamaq üçün çoxsaylı fotoların yerləşdirilməsi"

Surəti Çıxarılan Şəkillərin Kağız və Çap Parametrləri üçün Menyu Seçimləri

Rəngi bərpa et

Solğun şəkillərin rəngini bərpa edir.

Kağız Parametri

Printerə yüklədiyiniz kağızın ölçüsü və növünü təyin edin.

Haşiyə Parametrləri

- ❏ Haşiyəsiz

  Kənarların ətrafında haşiyəsiz kopyalayır. Şəkil kağızın kənarlarından haşiyələri silmək üçün bir az böyüdülüb. Genişləndirmə parametrində nə qədər böyütməyi seçin.
- ❏ Haşiyəli

  Kənarların ətrafında haşiyə ilə kopyalayır.

Bütün parametrləri silin:

Surətçıxarma parametrlərini standarta qaytarır.

Surətçıxarma üçün Menyu Seçimləri

Köçür tab-vərəqi və **Təkmil Parametrlər** tab-vərəqində mövcud elementlər seçdiyiniz menyudan asılı olaraq dəyişir.

Ağ-Qara

Orijinalı qara və ağ rəngdə kopyalayır (monoxrom).

Rəngli

Orijinalı rəngli kopyalayır.

(2-Tərəfli)

- 1→1-Tərəfli

  Orijinalın bir tərəfini kağızın bir tərəfinə kopyalayır.

- 1>2-Tərəfli

  İki birtərəfli orijinalı bir kağız vərəqinin hər iki tərəfinə kopyalayır. Orijinalınızın istiqaməti və kağızın bəndləmə mövqeyini seçin.

(Sıxlıq)

Kopyalanmanın nəticələri zəif göründükdə + istifadə etməklə sıxlığın səviyyəsini artırın. Mürəkkəb ləkə salarkən - istifadə etməklə sıxlığın səviyyəsini azaldın.

Miqyas

Orijinalları böyüdür və ya kiçildir. Dəyəri seçin və 25–400% diapazonu arasında orijinalı böyütmək və ya kiçiltmək üçün istifadə edilən böyütməni göstərin.

- Faktiki Ölçü

  100% miqyasda kopyalayır.

- Səh. Avt. Sığ.

  Skan sahəsini aşkarlayır və avtomatik olaraq orijinalı seçdiyiniz kağız ölçüsünə uyğunlaşdırmaq üçün böyüdür və ya kiçildir. Orijinalın ətrafında ağ haşiyələr olan zaman, skaner şüşəsinin künc işarəsindən ağ haşiyə skan sahəsi kimi aşkarlanır, lakin qarşı tərəfdəki haşiyələr kəsilə bilər.



Surət çıxarma

❏ 10x15sm->A4, A4->10x15sm və s.

Müəyyən kağız ölçüsünə uyğunlaşdırmaq üçün orijinalı avtomatik olaraq böyüdür və ya kiçildir.

Kağız Parametri

Printerə yüklədiyiniz kağızın ölçüsü və növünü təyin edin.

Çoxsəhifəli

❏ Təksəhifəli

Tək tərəfli orijinalı tək vərəqə köçürür.

❏ 2-yuxarı

2-si bir səhifədə tərtibatında iki birtərəfli orijinalı kopyalayır. Orijinalın istiqamətini və ölçüsünü seçə bilərsiz. Sənədin Səmtləşdirilməsi seçmək üçün sağ tərəfdəki şəkli işarələyin.

Keyfiyyət

Surətçıxarma üçün keyfiyyəti seçin. **Ən yaxşı** seçilməsi daha yüksək keyfiyyət təmin edir, lakin çap sürəti daha zəif ola bilər.

Bütün parametrləri silin

Surətçıxarma parametrlərini standarta qaytarır.

Skanlama

İdarəetmə panelindən skanlama

Kompüterə skanlama

> ***Vacibdir:***
> *Skanlamamışdan öncə kompüterinizdə Epson Scan 2 və Epson Event Manager quraşdırın.*

Qeyd:
*İdarəetmə panelindən skanladığınız zaman bir neçə orijinalı bir PDF faylı kimi yaddaşda saxlaya bilməzsiniz. Epson Scan 2 və **Skan sonra səh əlv ya red et** parametrini **Sənəd rejimi** rejimində istifadə etməklə, orijinalı skanladıqdan sonra əlavə orijinallar skanlaya və sonra bir fayl kimi saxlaya bilərsiniz.*

1. Orijinalları yerləşdirin.
2. Əsas ekranda **Skanla** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



3. **Kompüter** seçin.
4. Skanlanan şəkillərin saxlanacağı kompüteri seçin.
   - ❏ Əgər **Kompüteri seçin** ekranı göstərilərsə, ekrandan kompüter seçin.
   - ❏ Əgər **Kompüterə skanla** ekranı göstərilərsə və kompüter artıq seçilibsə, seçilmiş kompüterin düzgün olduğundan əmin olun. Düzgün deyilsə, kompüteri yenidən seçmək üçün seçin.

   Qeyd:
   - ❏ *Printer şəbəkəyə qoşulu olduqda skanlanmış şəkli hansı kompüterdə saxlamaq istədiyinizi seçə bilərsiniz. Printerin idarəetmə panelində 20-yə qədər kompüteri göstərə bilərsiniz. Epson Event Manager-də **Network Scan Name (Alphanumeric)** təyin etdikdə, o, idarəetmə panelində göstərilir.*
5. Skanlanmış təsviri kompüterdə saxlamağı seçmək üçün seçin.
   - ❏ JPEG kimi saxla: Skanlanmış təsviri JPEG formatında saxlayır.

- ❏ PDF kimi saxla: Skanlanmış təsviri PDF formatında saxlayır.
- ❏ E-poçta qoş: Kompüterinizdə e-poçt müştəri proqramını işə salır və ardından onu avtomatik olaraq e-poçta əlavə edir.
- ❏ Fərdi parametrləri izləyin: Epson Event Manager-da parametrlərdən istifadə etməklə, skanlanmış təsviri saxlayır. Siz skanlama ölçüsü, saxlamaq üçün qovluq, yaxud saxlama formatı kimi skanlama parametrlərini dəyişdirə bilərsiniz.

6. ⊙ düyməsinə basın.

Qeyd:
Skanlanmış şəklin rəngi, ölçüsü və haşiyəsi orijinalla tam eyni olmayacaq.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

Epson Event Manager-də Fərdi Parametrlərin Qurulması

Epson Event Manager-də **Fərdi parametrləri izləyin** üçün skanlama parametrlərini qura bilərsiniz.

Ətraflı məlumat üçün Epson Event Manager kömək bölməsinə baxın.

1. Epson Event Manager işə salın.
2. Skanerinizin əsas ekranda **Button Settings** tab-vərəqəsində **Scanner** kimi seçildiyindən əmin olun.



Skanlama

3. **Make Job Settings** klikləyin.



Skanlama

4. **Job Settings** ekranında skanlama parametrlərini qurun.



- ❏ Edit Job Settings: **Custom Action** seçimini edin.
- ❏ Setting: Seçilmiş orijinal növü üçün ən yaxşı parametrlərdən istifadə edərək skanlayın.Skanlanmış şəkli saxlamaq üçün əksetmə qabiliyyəti və ya rəng kimi elementləri təyin etmək üçün **Detailed Settings for Scanning** klikləyin.
- ❏ Target Folder: Skanlanmış şəkil üçün saxlanacaq qovluq seçin.
- ❏ Filename (Prefix + Start Number): Saxlanacaq fayl adı üçün parametrləri dəyişdirin.
- ❏ File Format: Saxlama formatını seçin.
- ❏ Launch Action: Skanlama zamanı əməliyyatı seçin.
- ❏ Test Settings: Sınaq skanlamanı cari parametrlərdən istifadə edərək başladır.

5. Əsas ekrana qayıtmaq üçün **OK** klikləyin.

6. **Custom Action** parametrinin **Custom Action** siyahısında seçildiyindən əmin olun.



7. Epson Event Manager bağlamaq üçün **Close** klikləyin.

Buluda Skanlama

Skanlanmış təsvirləri bulud xidmətlərinə göndərə bilərsiniz.Bu funksiyanı istifadə etməzdən əvvəl Epson Connect ilə parametrləri qurun.Ətraflı məlumat üçün aşağıdakı Epson Connect portal vebsaytına baxın.

https://www.epsonconnect.com/

http://www.epsonconnect.eu (yalnız Avropa)

Qeyd:
*İdarəetmə panelindən skanladığınız zaman bir neçə orijinalı bir PDF faylı kimi yaddaşda saxlaya bilməzsiniz.Epson Scan 2 və **Skan sonra səh əlv ya red et** parametrini **Sənəd rejimi** rejimində istifadə etməklə, orijinalı skanladıqdan sonra əlavə orijinallar skanlaya və sonra bir fayl kimi saxlaya bilərsiniz.*

1. Epson Connect ilə parametrləri qurduğunuza əmin olun.

2. Orijinalları yerləşdirin.

3. Əsas ekranda **Skanla** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



4. **Bulud** seçin.

5. Ekranın yuxarısında ⊕ seçin və sonra təyinat seçin.

6. Saxlama formatı kimi **Skanla** tab-vərəqəsində elementlər təyin edin.
   - ❏ Ağ-Qara/Rəngli: Rəngli və ya monoxrom rejimdə skanlamanı seçin.
   - ❏ JPEG/PDF: Skanlanmış təsviri saxlamaq üçün formatı seçin.

7. **Təkmil Parametrlər** tab-vərəqəsini seçin, sonra parametrləri yoxlayın və lazım gələrsə, onları dəyişdirin.

8. **Skanla** tab-vərəqəsini seçin, sonra ⓕ düyməsini basın.

   Qeyd:
   Skanlanmış şəklin rəngi, ölçüsü və haşiyəsi orijinalla tam eyni olmayacaq.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

Buluda Skanlamaq üçün Əsas Menyu Seçimləri

Ağ-Qara/Rəngli:

Rəngli və ya monoxrom rəngləməyi seçin.

JPEG/PDF:

Skanlanmış təsviri saxlamaq üçün formatı seçin.

Buluda Skanlamaq üçün Təkmil Menyu Seçimləri

Sənədin Növü:

Orijinalınızın növünü seçin.

Skan Parametrləri:

❏ Skan Ölçüsü:

Skanlama ölçüsünü seçin. Skanlama zamanı mətn və ya şəkil ətrafındakı ağ boşluqları kəsmək üçün **Avto Kəsim** seçin. skaner şüşəsinin maksimal sahəsində skanlamaq üçün, **Maksimal Sahə** seçin.

❏ Sənədin Səmtləşdirilməsi:

Orijinalın istiqamətini seçin.

Kontrast:

Skanlanmış təsvirin kəskinliyini seçin.

Bütün parametrləri silin:

Skanlama parametrlərini standarta qaytarır.

WSD istifadə etməklə skanlama

Qeyd:

❏ *Bu funksiya yalnız Windows 10/Windows 8.1/Windows 8/Windows 7/Windows Vista ilə işləyən kompüterlərdə mövcuddur.*

❏ *Windows 7/Windows Vista istifadə edirsinizsə, bu funksiyanı istifadə etməzdən əvvəl kompüterinizi quraşdırmalısınız.*

1. Orijinalları yerləşdirin.
2. Əsas ekranda **Skanla** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.



3. **WSD** seçin.
4. Kompüter seçin.
5. ⦶ düyməsinə basın.

Qeyd:
Skanlanmış şəklin rəngi, ölçüsü və haşiyəsi orijinalla tam eyni olmayacaq.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

WSD Portunun Quraşdırılması

Bu bölmə Windows 7/Windows Vista əməliyyat sistemləri üçün WSD portun quraşdırılmasını izah edir.

Qeyd:
Windows 10/Windows 8.1/Windows 8, əməliyyat sistemi üçün WSD portu avtomatik olaraq quraşdırılır.

Aşağıdakılar WSD portun quraşdırılması üçün vacibdir.

❏ Printer və kompüter şəbəkəyə qoşuludur.

❏ Printerin drayveri kompüterə quraşdırılmışdır.

1. Printeri yandırın.
2. Kompüterdə start düyməsini basın və sonra **Şəbəkə** düyməsini basın.
3. Printer işarəsinin üzərində mausun sağ düyməsi ilə klik edin və daha sonra **Quraşdır** düyməsini basın.

   İstifadəçi Hesabının İdarəolunması pəncərəsi açıldığı zaman **Davam Et** düyməsini basın.

   Əgər **Sil** ekranı açılarsa **Sil** düyməsini basın və yenidən prosesi başlayın.



Qeyd:
Sizin şəbəkədə təyin etdiyiniz printer adı və model adı (EPSON XXXXXX (XX-XXXX)) şəbəkə ekranında göstərilir. Printerin şəbəkədə təyin olunmuş adını yoxlamaq üçün printerin idarəetmə panelinə daxil ola və ya şəbəkə statusu səhifəsini çap edə bilərsiniz.

4. **Cihazınız istifadəyə hazırdır** düyməsinə basın.



5. Mesajı yoxlayın və daha sonra **Bağla** düyməsinə basın.



6. **Cihazlar və printerlər** ekranını açın.
   - ❏ Windows 7

     Start > **İdarəetmə Paneli** > **Qurğular və Səs** (və ya **Qurğular**) > **Cihazlar və Printerlər** basın.
   - ❏ Windows Vista

     Start > **İdarəetmə Paneli** > **Qurğular və Səs** > **Printerlər** basın.

7. Printerin adı olan işarənin şəbəkədə göstərildiyini yoxlayın.

   WSD ilə istifadə edərkən printerin adını seçin.

Kompüterdən skanlama

Epson Scan 2 ilə skanlama

"Epson Scan 2" skaner drayveri ilə skanlaya bilərsiniz. Parametrlərin izahları üçün Epson Scan 2 kömək bölməsinə baxın.

Əlaqədar məlumat

➡ 150 səhifəsində "Sənədləri və Təsvirləri Skanlamaq üçün Proqram (Epson Scan 2)"

Sənədlərin Skanlanması (Sənəd rejimi)

Sənəd rejimi rejimini Epson Scan 2-da istifadə etməklə mətn sənədləri üçün əlverişli təfsilatlı parametrlərdən istifadə edərək orijinalları skanlaya bilərsiniz.

1. Orijinalları yerləşdirin.
2. Epson Scan 2 işə salın.
3. **Sənəd rejimi**-ni **Rejim** siyahısından seçin.
4. **Əsas parametrlər** tab-vərəqində aşağıdakı parametrləri seçin.



❏ Sənədin ölçüsü: Yerləşdirdiyiniz orijinalın ölçüsünü seçin.

❏ / (Orijinalın istiqaməti) düymələri: Yerləşdirdiyiniz orijinalın təyin olunmuş istiqamətini seçin. Orijinalın ölçüsündən asılı olaraq, bu element avtomatik təyin edilə bilər və dəyişdirilə bilməz.

❏ Təsvirin növü: Skanlanan təsviri saxlamaq üçün rəng seçin.

❏ Əksetmə qabiliyyəti: Əksetdirməni seçin.

Qeyd:

❏ ***Sənədin mənbəyi*** *parametri* ***Skaner şüşəsi*** *kimi düzəldilir. Bu parametri dəyişə bilməzsiniz.*

❏ *Əgər* ***Skan sonra səh əlv ya red et*** *qurmusunuzsa, orijinalı skanladıqdan sonra əlavə orijinallar skanlaya bilərsiniz. Bundan başqa,* ***Təsvir formatı*** *seçimini PDF və ya Multi-TIFF kimi təyin etmisinizsə, skanlanmış şəkilləri bir fayl kimi saxlaya bilərsiniz.*

Skanlama

5. Ehtiyac varsa, başqa skan parametrləri təyin edin.
   - ❏ **Önbaxış** düyməsini klikləyərək skanlanmış şəklə önbaxış keçirə bilərsiniz. Önbaxış pəncərəsi açılır və baxılmış şəkil görünür.
   - ❏ **Təkmil parametrlər** tabında, aşağıdakı kimi mətn sənədləri üçün əlverişli olan təfsilatlı şəkil tənzimləmə parametrləri təyin edə bilərsiniz.
     - ❏ Fonu sil: Orijinalların fonunu silin.
     - ❏ Mətnin təkmilləşdirilməsi: Orijinaldakı bulanıq hərfləri təmiz və kəskin edə bilərsiniz.
     - ❏ Sahənin avtomatik seqmentasiyası: Təsvirləri ehtiva edən sənədi ağ-qara skanlayarkən hərfləri təmiz və təsvirləri aydın çıxara bilərsiniz.
     - ❏ Rəngin artırılması: Siz skanlanmış təsvir üçün müəyyən edilmiş rəngin keyfiyyətini artıra, sonra isə onu boz və ya ağ-qara saxlaya bilərsiniz.
     - ❏ Parlaqlıq: Skanlanmış şəklin parlaqlığını tənzimləyə bilərsiniz.
     - ❏ Kəskinlik: Skanlanmış şəklin kontrastını tənzimləyə bilərsiniz.
     - ❏ Qamma: Siz skanlanmış təsvir üçün qammanı (orta diapazonun parlaqlığı) tənzimləyə bilərsiniz.
     - ❏ Hədd qiyməti: Siz monoxrom ikili üçün sərhədi tənzimləyə bilərsiniz (ağ-qara).
     - ❏ Qeyri-kəskin maska: Təsvirin kənar xətlərini genişləndirə və kəskinləşdirə bilərsiniz.
     - ❏ Deskrininq: Jurnal kimi çap edilmiş vərəqləri skanlayarkən çıxan şəbəkə şəklində kölgələri aradan qaldıra bilərsiniz.
     - ❏ Kənarların doldurulması: Skanlanmış təsvirdə yaranan kölgəni silə bilərsiniz.
     - ❏ Ikili təsvir çıxarılışı (Yalnız Windows): Siz eyni vaxtda bir dəfə skanlaya və müxtəlif çıxış parametrləri ilə iki təsviri saxlaya bilərsiniz.

Qeyd:
Elementlər təyin etdiyiniz digər parametrlərdən asılı olaraq əlçatan olmaya bilər.

6. Faylın saxlanılması parametlərini təyin edin.



❏ Təsvir formatı: Siyahıdan saxlama formatı seçin.

BITMAP və PNG istisna olmaqla, hər saxlama formatı üçün təfsilatlı parametr təyini həyata keçirə bilərsiniz. Saxlama formatını seçdikdən sonra siyahıdan **Seçimlər** seçin.

❏ Faylın adı: Göstərilən saxlanacaq fayl adını təsdiq edin.

Siyahıdan **Parametrlər** seçərək fayl adı parametrlərini dəyişə bilərsiniz.

❏ Qovluq: Skanlanmış təsvir üçün siyahıdan saxlanacaq qovluq seçin.

Siyahıdan **Seç** seçərək başqa qovluq seçə və ya yeni qovluq yarada bilərsiniz.

7. **Skanla** klikləyin.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

Fotolar və ya Şəkillərin Skanlanması (Foto rejimi)

Foto rejimi rejimini Epson Scan 2-da istifadə etməklə fotolar və ya şəkillər üçün təmin edilmiş geniş çeşiddə şəkil tənzimləmə funksiyaları ilə orijinalları skanlaya bilərsiniz.

1. Orijinalları yerləşdirin.

Çox sayda oriinalı skaner şüşəsinə yerləşdirməklə, onların hamısını eyni vaxtda skanlaya bilərsiniz.Oriinallar arasında ən az 20 mm məsafə olmasına əmin olun.

Skanlama

2. Epson Scan 2 işə salın.
3. **Foto rejimi**-ni **Rejim** siyahısından seçin.
4. **Əsas parametrlər** tab-vərəqində aşağıdakı parametrləri seçin.



❏ Təsvirin növü: Skanlanan təsviri saxlamaq üçün rəng seçin.

❏ Əksetmə qabiliyyəti: Əksetmə qabiliyyətini seçin.

Qeyd:
Sənədin mənbəyi *parametri* ***Skaner şüşəsi*** *kimi düzəldilir və* ***Sənədin növü*** *parametri* ***Reflektiv*** *kimi düzəldilir.(****Reflektiv*** *şəffaf olmayan orijinalları bildirir, məsələn adi kağızlar və ya şəkillər.)Bu parametrləri dəyişə bilməzsiniz.*

Skanlama

5. **Önbaxış** klikləyin.

   Önbaxış pəncərəsi açılır və baxılmış şəkillər kiçildilmiş şəkillər kimi görünür.



Qeyd:
Bütün skanlanmış sahəyə öncədən baxmaq üçün önbaxış pəncərəsinin yuxarısındakı ***Rəsmcik*** *seçim qutusunu təmizləyin.*

6. Önbaxışı təsdiqləyin və lazım gələrsə, **Təkmil parametrlər** tabında şəkil parametrlərini tənzimləyin.



Skanlama

Skanlanmış şəkli aşağıdakı kimi foto və ya şəkilləriniz üçün uyğun olan ətraflı parametrlərdən istifadə etməklə tənzimləyə bilərsiniz.

❏ Parlaqlıq: Skanlanmış şəklin parlaqlığını dəyişə bilərsiniz.

❏ Kəskinlik: Skanlanmış şəklin kəskinliyini dəyişə bilərsiniz.

❏ Dolğunluq: Skanlanmış şəklin dolğunluğunu (rəng canlılığını) dəyişə bilərsiniz.

❏ Qeyri-kəskin maska: Skanlanmış şəklin kənar xətlərini genişləndirə və kəskinləşdirə bilərsiniz.

❏ Rəngin bərpası: Solmuş şəkilləri düzəldərək orijinal rəngləri qaytara bilərsiniz.

❏ Arxa işıq korreks.: Arxa işığa görə qaranlıq çıxan skanlanmış şəkilləri işıqlandıra bilərsiniz.

❏ Deskrininq: Jurnal kimi çap edilmiş vərəqləri skanlayarkən çıxan xara nümunələri (vebə bənzər kölgələr) silə bilərsiniz.

❏ Tozun silinməsi: Skanlanmış şəklin tozunu aradan qaldıra bilərsiniz.

Qeyd:

❏ *Elementlər təyin etdiyiniz digər parametrlərdən asılı olaraq əlçatan olmaya bilər.*

❏ *Orijinaldan asılı olaraq skanlanmış şəkil düzgün tənzimlənməmiş ola bilər.*

❏ *Çoxlu kiçildilmiş şəkil yaradılanda hər bir kiçildilmiş şəkil üçün şəkil keyfiyyətini tənzimləyə bilərsiniz.Tənzimləmə elementlərindən asılı olaraq, bütün skanlanmış şəkillərin keyfiyyətini bir neçə kiçildilmiş şəkil seçməklə birlikdə tənzimləyə bilərsiniz.*

7. Faylın saxlanılması parametlərini təyin edin.



❏ Təsvir formatı: Siyahıdan saxlama formatı seçin.

BITMAP və PNG istisna olmaqla, hər saxlama formatı üçün təfsilatlı parametr təyini həyata keçirə bilərsiniz.Saxlama formatını seçdikdən sonra siyahıdan **Seçimlər** seçin.

❏ Faylın adı: Göstərilən fayl adının saxlanmasını təsdiqləyin.

Siyahıdan **Parametrlər** seçərək fayl adı parametrlərini dəyişə bilərsiniz.

❏ Qovluq: Skanlanmış təsvir üçün siyahıdan saxlama qovluğu seçin.
Siyahıdan **Seç** seçərək başqa qovluq seçə və ya yeni qovluq yarada bilərsiniz.

8. **Skanla** klikləyin.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

Smart cihazlardan skanlama

Epson iPrint printerinizlə eyni simsiz şəbəkəyə qoşulan smartfon və ya planşet kimi smart cihazlardan şəkillər və sənədləri skanlamağa imkan verən proqramdır. Skanlanmış məlumatları smart cihaz və ya bulud xidmətlərində saxlaya, e-poçtla göndərə və ya çap edə bilərsiniz.

Əgər printer şəbəkəyə qoşulu olmayanda Epson iPrint-i başlatsanız, sizə printerə qoşulmaq göstərişi verən mesaj göstərilir. Bağlantını tamamlamaq üçün göstərişlərə əməl edin. İstismar şərtləri ilə bağlı aşağıda URL-ə baxın.

http://epson.sn

Epson iPrint-in quraşdırılması

Epson iPrint-i smart cihazınızda aşağıdakı URL və ya QR kodundan quraşdıra bilərsiniz.

http://ipr.to/a

Epson iPrint-dan İstifadə Edərək Skanlama

Epson iPrint proqramını smart cihazdan işə salın və əsas ekrandan istifadə etmək istədiyiniz elementi seçin.

Skanlama

Aşağıdakı ekranlar xəbərdarlıq edilmədən dəyişdirilə bilər.



❶	Proqram işə düşdükdə əsas ekran göstərilir.
❷	Printerin necə quraşdırılmasını və FAQları göstərir.
❸	Printeri seçmək və printer parametrlərini dəyişmək üçün müvafiq ekranı göstərir. Printeri seçdikdən sonra növbəti dəfə onu seçməyə ehtiyac yoxdur.
❹	Skanlama ekranını göstərir.
❺	Skanlama menyusu seçildikdə skanlama ekranı göstərilir.
❻	Rezolyusiya kimi skanlama parametrlərinin seçiləcəyi ekranı göstərir.
❼	Skanlanmış şəkilləri göstərir.
❽	Skanlamanı başladır.
❾	Skanlanmış məlumatları smart cihazda və ya bulud xidmətlərində saxlaya biləcəyiniz ekranı göstərir.
❿	Skanlanmış məlumatları e-poçt ilə göndərə biləcəyiniz ekranı göstərir.
⓫	Skanlanmış məlumatları çap edə biləcəyiniz ekranı göstərir.

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

Qalan Mürəkkəbin və Texniki Dəstək Qutusunun Statusunun Yoxlanması

İdarəetmə paneli və ya kompüterdən təqribi mürəkkəb səviyyələrini və texniki dəstək qutusunun təqribi istismar müddətini yoxlaya bilərsiniz.

Qeyd:
Mürəkkəbin az qalması ilə mesaj göstərildikdə siz çapı davam etdirə bilərsiniz. Lazım gəldikdə, mürəkkəb kartriclərini dəyişin.

Qalan Mürəkkəb və Texniki Dəstək Qutusunun Vəziyyətinin Yoxlanması — İdarəetmə Paneli

Əsas ekranda seçin.

Qalan Mürəkkəbin və Texniki Dəstək Qutusunun Statusunun Yoxlanması - Windows

1. Printer drayveri pəncərəsinə daxil olun.
2. **EPSON Status Monitor 3**-nə **Texniki xidmət** tab-vərəqində daxil olun.

   Qeyd:
   EPSON Status Monitor 3 *sönülüdürsə,* ***Genişləndirilmiş parametrlər****-ni* ***Texniki xidmət*** *tab-vərəqində klikləyin və ardından* ***EPSON Status Monitor 3 aktivləşdir*** *seçin.*

Əlaqədar məlumat

➡ 144 səhifəsində "Windows Printer Drayveri"

Qalan Mürəkkəbin və Texniki Xidmət Qutusunun Vəziyyətinin Yoxlanması — Mac OS X

1. Printer drayveri utilitini başladın:
   - ❏ Mac OS X v10.6.x -dan v10.9.x -a

     menyusu > **Printerlər və Skanerlər** (və ya **Çap və Skan**, **Çap və Faks**) seçimindən **Sistem Seçimləri** seçin və sonra printeri seçin. **Seçimlər və təchizatlar** > **Proqram** > **Printer proqramını aç** klikləyin.
   - ❏ Mac OS X v10.5.8

     menyusu > **Çap və Faks** seçimindən **Sistem Seçimləri** seçin və sonra printeri seçin. **Çap Növbəsini Aç** > **Utilit** klikləyin.
2. **EPSON Status Monitor** üzərinə klikləyin.

Mürəkkəb Kartrici Kodları

Aşağıda orijinal Epson mürəkkəb kartricləri üçün kodlar verilmişdir.

Qeyd:
- ❏ *Mürəkkəb kartrici kodları məkana görə fərqlənə bilər. Əraziniz üzrə düzgün kodları əldə etmək üçün Epson dəstək xidməti ilə əlaqə saxlayın.*
- ❏ *Kartriclər dövr edilmiş materiallar ehtiva edə bilər, lakin bu, printerin funksiyasına və ya məhsuldarlığına təsir göstərmir.*
- ❏ *Kartricin spesifikasiyaları və görünüşü təkmilləşdirmə barədə əvvəlcədən xəbərdarlıq etmədən dəyişdirilə bilər.*

Avropa üçün

İşarə	BK: Black (Qara)	C: Cyan (Mavi)	M: Magenta (Al-qırmızı)	Y: Yellow (Sarı)
Starfish	603 603XL*	603 603XL*	603 603XL*	603 603XL*

* "XL" böyük kartrici göstərir.

Qeyd:
Avropadakı istifadəçilər üçün Epson mürəkkəb kartrici məhsullarına dair məlumatla bağlı aşağıdakı veb-sayta daxil olun.

http://www.epson.eu/pageyield

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

Avstraliya və Yeni Zelandiya üçün

Məhsul	BK: Black (Qara)	C: Cyan (Mavi)	M: Magenta (Al-qırmızı)	Y: Yellow (Sarı)
XP-4100	212 212XL*	212 212XL*	212 212XL*	212 212XL*
XP-4105	39 39XL*	39 39XL*	39 39XL*	39 39XL*

* "XL" böyük kartrici göstərir.

Asiya üçün

BK: Black (Qara)	C: Cyan (Mavi)	M: Magenta (Al-qırmızı)	Y: Yellow (Sarı)
04E	04E	04E	04E

Epson orijinal Epson kartriclərindən istifadə etməyi tövsiyə edir. Epson orijinal olmayan mürəkkəbin keyfiyyətinə və etibarlılığına zəmanət vermir. Orijinal olmayan mürəkkəbin istifadəsi ziyan vura bilər ki, bu ziyan Epson zəmanətinə daxil deyil və müəyyən hallarda printerin səhv işləməsinə səbəb ola bilər. Orijinal olmayan mürəkkəb səviyyələri barədə məlumat göstərilməyə bilər.

Əlaqədar məlumat

➡ 195 səhifəsində "Texniki dəstək vebsaytı"

Mürəkkəb kartricinin istifadəsi üzrə xəbərdarlıqlar

Mürəkkəb kartriclərini dəyişməzdən əvvəl aşağıdakı təlimatları oxuyun.

Mürəkkəb üçün saxlama üzrə ehtiyat tədbirləri

- ❏ Mürəkkəb kartriclərini birbaşa günəş şüasından qoruyun.
- ❏ Mürəkkəb kartriclərini yüksək və ya donma temperaturlarında saxlamayın.
- ❏ Epson mürəkkəb kartricini paketin üzərində yazılan tarixədək istifadə etməyi tövsiyə edir.
- ❏ Ən yaxşı nəticələri əldə etmək üçün mürəkkəb kartricini paketi açdıqdan sonra altı ay ərzində istifadə edib bitirin.
- ❏ Ən yaxşı nəticələri əldə etmək üçün mürəkkəb kartrici paketlərini dik saxlayın.
- ❏ Mürəkkəb kartricini soyuq saxlama yerindən içəri gətirdikdə, onu istifadə etməzdən əvvəl otaq temperaturunda ən az üç saat isinməsinə imkan verin.
- ❏ Printerə quraşdırmağa hazır olanadək mürəkkəb kartrici paketini açmayın. Kartric etibarlılığı təmin etmək üçün vakumla kip bağlanıb. İstifadədən əvvəl kartrici uzun müddət açıq saxlasanız, normal çap mümkün olmaya bilər.

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

Mürəkkəb kartriclərinin dəyişdirilməsi üçün istifadə üzrə ehtiyat tədbirləri

❏ Paketdən çıxararkən diqqətli olun ki, mürəkkəb kartricinin kənarındakı qarmaqları qırmayasınız.

❏ Kartrici quraşdırmazdan əvvəl sarı lenti çıxarmalısınız; yoxsa çap keyfiyyəti düşə bilər və ya çap etmək mümkün olmaya bilər. Kartricin üzərindəki etiketi çıxarmayın və ya cırmayın; yoxsa mürəkkəb sıza bilər.

❏ Kartricin aşağısındakı şəffaf örtüyü çıxarmayın; yoxsa kartric yararsız hala gələ bilər.



❏ Şəkildə göstərilən hissələrə toxunmayın. Yoxsa, normal işləmə və çap mümkün olmaya bilər.



❏ Bütün mürəkkəb kartriclərini quraşdırın; yoxsa çap edə bilməyəcəksiniz.

❏ Cihaz sönmüş vəziyyətdə kartricləri dəyişməyin. Printer başlığına əllə müdaxilə etməyin; yoxsa printerə zərər verə bilərsiniz.

❏ Mürəkkəb dolarkən printeri söndürməyin. Mürəkkəb doldurulması başa çatmadan çap edə bilməyə bilərsiniz.

- ❏ Printeri mürəkkəb kartricləri çıxarılmış vəziyyətdə qoyub getməyin və ya kartrici dəyişən zaman printeri söndürməyin. Əks halda, printer başlığının gözlərində qalan mürəkkəb quruyacaq və çap etmək mümkün olmayacaq.
- ❏ Mürəkkəb kartricini müvəqqəti çıxarmaq istəsəniz, mürəkkəb çıxışı sahəsinə toz yaxud çirk düşməsinə yol verməyin. Kartrici printerlə eyni mühitdə, mürəkkəb çıxışı sahəsi üzü-aşağı və ya yanlara dayanmış vəziyyətdə saxlayın. Kartricləri mürəkkəb çıxışı sahəsi üzü-yuxarı vəziyyətdə saxlamayın. Mürəkkəb çıxışı sahəsi xüsusi klapanla təchiz edilmişdir, bu klapan artıq mürəkkəbin buraxılmasına imkan vermir, məhz buna görə, əlavə örtük və ya tıxac qoymağa ehtiyac yoxdur.
- ❏ Çıxarılan mürəkkəb kartriclərinin mürəkkəb çıxışı sahəsinin kənarlarında mürəkkəb ola bilər, buna görə də, kartricləri çıxararkən bu mürəkkəbin ətrafa bulaşmamasına diqqət yetirin.
- ❏ Bu printer hər kartricdə qalan mürəkkəb miqdarı kimi məlumatlara nəzarət edən yaşıl çiplə təchiz edilmiş kartriclər istifadə edir. Yəni, kartric tam istifadə olunmadan printerdən çıxarılsa belə, onu printerə yenidən daxil edərək istifadə edə bilərsiniz. Lakin, kartrici yenidən daxil edərkən printerin fəaliyyətini sığortalamaq üçün müəyyən qədər mürəkkəb sərf oluna bilər.
- ❏ Mürəkkəbin maksimal effektivliyi üçün yalnız dəyişməyə hazır olduqda kartrici çıxarın. Mürəkkəbin az olduğu kartriclər yenidən daxil edikdikdə istifadə etmək mümkün olmur.
- ❏ Ən yüksək səviyyədə çap keyfiyyəti əldə etməniz və printer başlığını qorumaq üçün printer kartricin dəyişdirilməsini göstərdikdə, kartricdə müxtəlif miqdarda mürəkkəb təhlükəsizlik ehtiyatı saxlanılır. Sizin üçün təyin edilmiş məhsula bu ehtiyat daxil deyil.
- ❏ Kartrici sökməyin və ya modelini dəyişməyin, yoxsa normal çap etmək mümkün olmaya bilər.
- ❏ Printerin üzərində verilən kartricləri dəyişmək üçün istifadə edə bilməzsiniz.

Mürəkkəb sərfiyyatı

- ❏ Çap başlığının optimal fəaliyyəti üçün texniki dəstək əməliyyatlarında bütün kartriclərdən müəyyən qədər mürəkkəb sərf oluna bilər. Mürəkkəb həmçinin mürəkkəb kartricini əvəzlədiyiniz və ya printeri yandırdığınız zaman sərf edilə bilər.
- ❏ Monoxrom və ya boz şkalada çap edərkən, kağız növü və ya printer keyfiyyəti parametrlərindən asılı olaraq qara mürəkkəb əvəzinə rəngli mürəkkəblər istifadə edilə bilər. Bunun səbəbi odur ki, rəngli mürəkkəblər birləşdirilərək qara rəng əldə edilir.
- ❏ Printerin üzərində verilən kartriclərdəki mürəkkəb ilkin quraşdırma zamanı qismən istifadə olunur. Yüksək keyfiyyətli məhsul çap etmək üçün printer başlığı tam şəkildə mürəkkəblə doldurulacaq. Bu bir dəfəlik proses bir qədər mürəkkəb işlətdiyinə görə, növbəti kartriclərdən fərqli olaraq bu kartriclərlə az sayda səhifə çap etmək mümkündür.
- ❏ Təyin edilmiş məhsul çap etdiyiniz şəkillərdən, istifadə etdiyiniz kağız növündən, çap etmə tezliyindən və temperatur kimi ətraf mühit şəraitindən asılı olaraq dəyişə bilər.

Mürəkkəb kartricinin dəyişdirilməsi

> ⚠ ***Diqqət:***
> *Skaner qurğusunu açıb-bağlayarkən əl, yaxud barmaqlarınızı arasında qoymamağa diqqət yetirin. Yoxsa, zədələnə bilərsiniz.*

Qeyd:
Əgər mürəkkəb kartriclərini kopyalama zamanı dəyişsəniz, orijinallar yerindən çıxa bilər. Ləğv etmək və orijinalları dəyişmək üçün ▽ düyməsinə basın.

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

1. Aşağıdakılardan birini edin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.

   ❏ Tələb edildikdə, mürəkkəb kartriclərini dəyişin

   Hansı kartricin dəyişməli olduğunu yoxlayın və sonra OK düyməsini basın. Mesajı təsdiqləyin, əsas ekranda **İndi əvəz et** seçin.

   ❏ Bitmədən mürəkkəb kartriclərini dəyişən zaman

   Əsas ekranda **Texniki xidmət** > **Mürəkkəb kartric(lər)inin dəyişdirilməsi** seçin.

2. Qara mürəkkəb kartricini dəyişən zaman yeni qara mürəkkəb kartricini ehmalca dörd və ya beş dəfə silkələyin və sonra onu paketindən çıxarın. Digər rəngli kartricləri dəyişən zaman yeni rəngli kartricləri paketlərin silkələmədən çıxarın.



> ***Vacibdir:***
> *Paketi açdıqdan sonra kartricləri çalxalamayın, yoxsa, sıza bilər.*

3. Yalnız sarı lenti çıxarın.



Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

Vacibdir:

Şəkildə göstərilən hissələrə toxunmayın. Yoxsa, normal işləmə və çap mümkün olmaya bilər.



4. Sənəd örtüyü bağlı halda skaner qurğusunu açın.



5. Mürəkkəb kartricinin üzərindəki ucluğu sıxın və onu dartıb çıxarın. Əgər mürəkkəb kartricini çıxara bilmirsinizsə, onu möhkəm dartın.



6. Yeni mürəkkəb kartricini daxil edin və sonra onu möhkəm şəkildə aşağıya basın.



7. Skaner qurğusunu bağlayın.

   Təhlükəsizlik üçün skaner qurğusu iki mərhələ ilə bağlanır.



Qeyd:
Skaner qurğusu aşağıda göstərilən mövqedən açıla bilməz. Açmazdan əvvəl onu tamamilə bağlayın.



8. ⏀ düyməsinə basın.

   Mürəkkəbin doldurulması başlanır.

> ***Vacibdir:***
> *Mürəkkəb dolarkən printeri söndürməyin. Mürəkkəb doldurulması başa çatmadan çap edə bilməyə bilərsiniz.*

Əlaqədar məlumat

➡ 115 səhifəsində "Mürəkkəb Kartrici Kodları"
➡ 116 səhifəsində "Mürəkkəb kartricinin istifadəsi üzrə xəbərdarlıqlar"

Texniki dəstək qutusu kodu

Epson orijinal Epson texniki dəstək qutusundan istifadə etməyi tövsiyə edir.

Texniki dəstək qutusu kodu: C9344

> ***Vacibdir:***
> *Printerdə texniki dəstək qutusu quraşdırıldıqdan sonra o, digər printerlər ilə istifadə edilə bilməz.*

Texniki dəstək qutusunun idarə edilməsi ehtiyat tədbirləri

Texniki dəstək qutusunu dəyişməzdən əvvəl aşağıdakı təlimatları oxuyun.

❏ Şəkildə göstərilən hissələrə toxunmayın. Bunu etsəniz, printer normal işləməyəcək və siz mürəkkəbə bulaşacaqsınız.



❏ Texniki dəstək qutusunu yerə salmayın və ya onu güclü zərbələrə məruz qoymayın.

❏ Çap prosesi zamanı texniki dəstək qutusunu dəyişməyin; yoxsa, mürəkkəb sıza bilər.

❏ Texniki dəstək qutusunu dəyişən hallar istisna olmaqla, texniki dəstək qutusunu və onun qapağını çıxarmayın; yoxsa, mürəkkəb sıza bilər.

❏ Qapağı yenidən taxmaq mümkün olmadıqda, texniki qulluq qutusu düzgün quraşdırılmaya bilər. Texniki qulluq qutusunu çıxarın, sonra onu yenidən quraşdırın.

❏ Salafan torbaya qoymadan istifadə edilmiş texniki dəstək qutusunu əyməyin; yoxsa, mürəkkəb sıza bilər.

❏ Texniki qulluq qutusundakı girişlərə toxunmayın, yoxsa mürəkkəbə bulaşa bilərsiniz.

❏ Uzun müddət çıxarılmış və yerinə taxılmamış texniki dəstək qutusunu yenidən istifadə etməyin. Qutunun içindəki mürəkkəb qatılaşmış olacaqdır və mürəkkəb qutudan çıxmayacaqdır.

❏ Texniki dəstək qutusunu birbaşa günəş şüasından qoruyun.

❏ Texniki dəstək qutusunu yüksək və ya donma temperaturlarında saxlamayın.

Texniki xidmət qutusunun dəyişdirilməsi

Bəzi çap dövrələrində çox az miqdarda artıq mürəkkəb texniki dəstək qutusunda toplanıb qalır. Texniki dəstək qutusundan mürəkkəb sızmasının qarşısını almaq üçün texniki dəstək qutusunun qəbul həcmi limitə çatdıqda printer çap prosesini dayandırır. Bunun nə zaman lazım olduğu çap etdiyiniz səhifələrin sayından, materialın növündən və printerin icra etdiyi təmizləmə dövrələrindən asılıdır. Tələb edildikdə, texniki dəstək qutusunu dəyişin. Epson Status Monitoru, LCD və ya idarəetmə panelindəki işıqlar bu hissənin nə zaman dəyişməli olduğunu bildirəcək. Qutunun dəyişməli olması printerin işləmədiyini bildirmir. Epson zəmanəti bu dəyişmənin xərcini əhatə etmir. Bu hissəni istifadəçi dəyişməlidir.



Qeyd:

- ❏ *Texniki xidmət qutusu dolu olanda, mürəkkəbin axmasının qarşısını almaq üçün dəyişdirilənə qədər çap edə və çap başlığını təmizləyə bilməzsiniz. Lakin, siz skan kimi mürəkkəbdən istifadə etməyən əməliyyatlar keçirə bilərsiniz.*
- ❏ *Aşağıdakı ekran göstərildikdə, hissə istifadəçilər tərəfindən əvəzlənə bilməz. Epson dəstək xidmətinə müraciət edin.*

1. Yeni texniki xidmət qutusunu paketindən çıxarın.

> ***Vacibdir:***
> *Texniki dəstək qutusunun yanındakı yaşıl çipə toxunmayın. Yoxsa, normal işləmə və çap mümkün olmaya bilər.*

Qeyd:
İşlənmiş texniki xidmət qutusu üçün şəffaf çanta yeni texniki xidmət qutusu ilə təmin edilir.

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

2. Düz başlıqlı vintaçan ilə vinti boşaldın və qapağı çıxarın.



3. İşlənmiş texniki xidmət qutusunu yığışdırın.



Vacibdir:

Şəkildə göstərilən hissələrə toxunmayın. Bunu etsəniz, printer normal işləməyəcək və siz mürəkkəbə bulaşacaqsınız.



4. İşlənmiş texniki xidmət qutusunu yeni texniki xidmət qutusu ilə təqdim edilmiş şəffaf çantaya yerləşdirin və çantanı möhürləyin.



5. Yeni texniki xidmət qutusunu printerin içinə yerləşdirin. Qutunu düzgün istiqamətdə daxil etdiyinizdən əmin olun.



6. Qapağı yenidən taxın.



7. Mesajı yoxlayın, sonra OK düyməsinə basın.

Əlaqədar məlumat

➡ 122 səhifəsində "Texniki dəstək qutusu kodu"

➡ 122 səhifəsində "Texniki dəstək qutusunun idarə edilməsi ehtiyat tədbirləri"

Qara Mürəkkəb ilə Müvvəqəti Çap

Rəngli mürəkkəb tükənəndə və qara mürəkkəb hələ də qaldıqda, qısa müddət üçün yalnız qara mürəkkəbdən istifadə etməklə çap prosesini davam etdirmək üçün aşağıdakı parametrlərdən istifadə edə bilərsiniz.

- ❏ Kağızın növü: Adi kağız, Zərf
- ❏ Rəng: Ağ-qara və ya Boz rəng çalarları
- ❏ Haşiyəsiz: Seçilməyib
- ❏ EPSON Status Monitor 3: Aktivləşdirilib (Windows-da printer drayverindən çap edəndə.)

Bu funksiya təxminən beş gün əlçatan olduğu üçün tükənmiş mürəkkəb kartricini mümkün qədər tez dəyişin.

Qeyd:

- ❏ ***EPSON Status Monitor 3*** *sönülüdürsə, printer drayverinə daxil olun,* ***Genişləndirilmiş parametrlər****-ni* ***Texniki xidmət*** *tab-vərəqində klikləyin və ardından* ***EPSON Status Monitor 3 aktivləşdir*** *seçin.*
- ❏ *Əlçatan müddət istifadə şərtlərinə görə fərqlənir.*

Qara Mürəkkəb ilə Müvəqqəti Çap — Windows

Aşağıdakılardan birini edin.

- ❏ Aşağıdakı pəncərə göstəriləndə **Qara ilə çap et** seçin.



❏ Aşağıdakı pəncərə göstəriləndə çapı ləğv edin. Sonra isə yenidən çap edin.



Qeyd:
Əgər kompüterdən çapı ləğv edə bilmirsinizsə, onu printerin idarə panelindən istifadə etməklə ləğv edin.

Yenidən çap edəndə aşağıdakı addımlara əməl edin.

1. Printer drayveri pəncərəsinə daxil olun.
2. **Haşiyəsiz**-ni **Əsas** tab-vərəqində təmizləyin.
3. **Adi kağız** və ya **Zərf**-ni **Kağızın növü** parametri kimi **Əsas** tab-vərəqində seçin.
4. **Boz rəng çalarları** seçin.
5. **Əsas** və **Daha çox seçimlər** tab-vərəqələrində digər elementləri seçin və ardından **OK** klikləyin.
6. **Çap et** klikləyin.
7. Açılan pəncərədə **Qara ilə çap et** klikləyin.

Əlaqədar məlumat

➡ 91 səhifəsində "Çap prosesinin ləğvi — Windows"
➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"
➡ 69 səhifəsində "Çapın Əsasları — Windows"

Qara Mürəkkəb ilə Müvvəqəti Çap — Mac OS

Qeyd:
*Şəbəkə üzərindən bu funksiyanı istifadə etmək üçün **Bonjour** ilə qoşulun.*

1. **Paneldəki** printer işarəsini klikləyin.
2. İşi ləğv edin.

   Qeyd:
   Əgər kompüterdən çapı ləğv edə bilmirsinizsə, onu printerin idarə panelindən istifadə etməklə ləğv edin.
3. **Sistem Seçimlərini** menyusu > **Printer və Skannerlər**-dən (və ya **Çap et və Skanla**, **Çap et və Faksla**) seçin və ardından printeri seçin.**Seçimlər və təchizatlar** > **Seçimlər** (və ya **Drayver**) klikləyin.
4. **On** seçimini **Permit temporary black printing** parametri kimi seçin.
5. Çap dialoquna daxil olun.
6. Açılan menyudan **Çap parametrləri** seçin.
7. **Kağızın ölçüsü** parametri kimi haşiyəsiz ölçü istisna olmaqla, istənilən kağız ölçüsünü seçin.
8. **Adi kağız** və ya **Zərf** rejjimini **Media Type** kimi seçin.
9. **Boz rəng çalarları** seçin.
10. Lazım olan digər elementləri təyin edin.
11. **Çap et** klikləyin.

Əlaqədar məlumat

➡ 91 səhifəsində "Çap prosesinin ləğvi — Mac OS"
➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"
➡ 71 səhifəsində "Çap Əsasları — Mac OS"

Qara Mürəkkəb Az Olduqda Qara Mürəkkəbin Saxlanılması (yalnız Windows üçün)

Qara mürəkkəb azaldıqda və kifayət qədər rəngli mürəkkəb qaldıqda qara mürəkkəb yaratmaq üçün rəngli mürəkkəblərin qarışığından istifadə edə bilərsiniz. Qara mürəkkəb kartrici əvəzləyicisini hazırlayarkən çapa davam edə bilərsiniz.

Bu funksiya yalnız printer drayverində aşağıdakı parametrlər seçildikdə mümkündür.

❏ Kağızın növü: **Adi kağız**

❏ Keyfiyyət: **Standart**

❏ EPSON Status Monitor 3: Aktivləşdirilib

Mürəkkəb Kartricləri və Digər Tükənən Ehtiyat Hissələrinin Dəyişdirilməsi

Qeyd:

- ❏ ***EPSON Status Monitor 3*** *sönülüdürsə, printer drayverinə daxil olun,* ***Genişləndirilmiş parametrlər****-ni* ***Texniki xidmət*** *tab-vərəqində klikləyin və ardından* ***EPSON Status Monitor 3 aktivləşdir*** *seçin.*
- ❏ *Qarışıq qara təmiz qaradan bir qədər fərqli görünür. Bundan başqa, çap sürəti azaldılır.*
- ❏ *Printer başlığının keyfiyyətini təmin etmək üçün qara mürəkkəb də həmçinin istifadə edilir.*



Seçimlər	Təsvir
Bəli	Qara mürəkkəb yaratmaq üçün rəngli mürəkkəblərin qarışığını istifadə etməyi seçin. Bu pəncərə növbəti dəfə bənzər iş çap edən zaman göstərilir.
Xeyr	Qalan qara mürəkkəbin istifadəsinə davam etməyi seçin. Bu pəncərə növbəti dəfə bənzər iş çap edən zaman göstərilir.
Bu funksiyanı qeyri-aktiv edin	Qalan qara mürəkkəbin istifadəsinə davam etməyi seçin. Bu pəncərə qara mürəkkəb kartricini əvəzləyənə və o, yenidən azalana qədər göstərilməyəcək.

Printerin saz vəziyyətdə saxlanması

Çap Başlığının Qurumasının Qarşısının Alınması

Printeri yandıranda və söndürəndə həmişə işəsalma düyməsindən istifadə edin.

Elektrik naqilinin əlaqəsini kəsməzdən əvvəl elektrik işığının söndürüldüyünü yoxlayın.

Örtülməzsə, mürəkkəb quruya bilər. Fontan qələm, yaxud yağlı qələmin qurumasının qarşısını almaq üçün qapağını qoyduğunu kimi əmin olun ki, çap başlığı mürəkkəbin qurumasının qarşısını almaq üçün qapaqla müvafiq şəkildə örtülüb.

Elektrik naqilini şəbəkədən ayıranda və ya printer işləyərkən elektrik kəsilməsi baş verərsə, çap başlığı qapaqla müvafiq şəkildə örtülməyə bilər. Əgər çap başlığı olduğu kimi qalıbsa, o, ucluqların (mürəkkəb çıxışları) tıxanmasına səbəb olaraq quruyacaq.

Belə hallarda çap başlığının qapağını örtmək üçün mümkün qədər tez printeri söndürüb, yenidən yandırın.

Printer başlığının yoxlanılması və təmizlənməsi

Gözlər tutulubsa, mürəkkəb çap olunan kağızda solğun olur, rənglər kəsilir və ya qarışıq çıxır. Çap keyfiyyəti azaldıqda, gözləri yoxlama funksiyasından istifadə edərək gözlərin tutulub-tutulmadığını yoxlayın. Gözlər tutulubsa, printer başlığını təmizləyin.

Vacibdir:

- *Başlığı təmizləyərkən skaner bölməsini açmayın və ya printeri söndürməyin. Başlığın təmizlənməsi başa çatmadan çap edə bilməyəcəksiniz.*
- *Başlığın təmizlənməsində müəyyən qədər mürəkkəb istifadə olunduğuna görə, yalnız keyfiyyət aşağı düşdükdə başlığı təmizləyin.*
- *Mürəkkəb az olduqda printer başlığını təmizləmək mümkün olmur.*
- *Təqribən dörd dəfə başlıq gözlərinin yoxlanması və başlığın təmizlənməsindən sonra çap keyfiyyəti yaxşılaşmasa, ən az altı saat çap etmədən gözləyin və ardından başlıq gözlərinin yoxlanması və lazım gələrsə, başlığın təmizlənməsini təkrarlayın. Printeri söndürməyi tövsiyə edirik. Çap keyfiyyəti yenə də yaxşılaşmasa, Epson dəstək xidmətinə müraciət edin.*
- *Printer başlığının qurumaması üçün printer yanılı halda onu elektrik rozetkasından çıxarmayın.*

Çap başlığının yoxlanılması və təmizlənməsi — idarəetmə paneli

1. Printerə A4 ölçülü ağ kağız yükləyin.
2. Əsas ekranda **Texniki xidmət** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.
3. **Şrift başlığı ucluğunun yoxl.** seçin.

4. Başlıq gözlərini yoxlama şablonunu çap etmək üçün ekrandakı təlimatlara əməl edin.

5. Çap olunan şablonu yoxlayın. "NG" şablonunda göstərildiyi kimi qırıq sətir və ya çatışmayan seqmentlər olarsa, printer başlığı gözləri tutula bilər. Növbəti mərhələyə keçin. Aşağıdakı "OK" şablonunda verilən kimi hər hansı qırıq sətir və ya çatışmayan seqment görmürsünüzsə, başlıq gözləri tutulmayıb. Gözlüyün yoxlanması funksiyasını bağlamaq üçün seçin.



6. seçin, sonra çap başlığını təmizləmək üçün ekrandakı göstərişlərə əməl edin.

7. Təmizlik başladıqda başlıq gözlərini yoxlama şablonunu yenidən çap edin. Bütün sətirlər tam şəkildə çap olunanadək təmizləmə və şablonu çap etmə prosesini təkrarlayın.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

Printer başlığının yoxlanılması və təmizlənməsi — Windows

1. Printerə A4 ölçülü ağ kağız yükləyin.

2. Printer drayveri pəncərəsinə daxil olun.

3. **Ucluğun yoxlanması**-nə **Texniki xidmət** tab-vərəqində daxil olun.

4. Ekrandakı təlimatlara əməl edin.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"
➡ 144 səhifəsində "Windows Printer Drayveri"

Çap başlığının yoxlanması və təmizlənməsi — Mac OS

1. Printerə A4 ölçülü ağ kağız yükləyin.

2. menyusundan **Sistem Seçimləri** > **Printerlər və Skannerlər** (yaxud **Çap və Skanlama**, **Çap və Faks**) seçin, sonra printer seçin.

3. **Seçimlər və təchizatlar** > **Proqram** > **Printer proqramını aç** klikləyin.

4. **Ucluğun yoxlanması** klikləyin.
5. Ekrandakı təlimatları izləyin.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

Çap başlığının düzləndirilməsi

Əgər çap nəticələri aşağıdakı problemləri ehtiva edərsə, çap materiallarını yaxşılaşdırmaq üçün çap başlığını düzləndirin.

- ❏ Şaquli xətlər yanlış düzləndirilmiş, çap materialları isə bulanıq görünür
- ❏ Üfüqi zolaqlar müntəzəm intervallarda təkrarlanır

Çap Başlığının Düzləndirilməsi — İdarəetmə Paneli

1. Əsas ekranda **Texniki xidmət** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.
2. **Başlığın düzləndirməsi** seçin.
3. Çap nəticələrinin vəziyyətinə uyğun olaraq çap materiallarını təkmilləşdirmək üçün düzləndirmək istədiyiniz düzləndirmə menyusunu seçin.
   - ❏ Şaquli xətlər yanlış düzləndirilmiş görünür və ya çap materialları bulanıq görünür: **Şaquli səmtləşdirilmə** seçin.
   - ❏ Üfüqi zolaqlar müntəzəm intervallarda təkrarlanır: **Üfüqi Bərabərləşdirmə** seçin.
4. Ekrandakı təlimatları izləyin.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

Kağız yolunun mürəkkəb ləkələrindən təmizlənməsi

Çap olunan vərəqlərə mürəkkəb bulaşarsa və ya yayılarsa, barabanın içərisini təmizləyin.

> ***Vacibdir:***
> *Printerin içərisini salfetlə təmizləməyin.Printer başlığının gözləri liflərlə tutula bilər.*

1. Printerə A4 ölçülü ağ kağız yükləyin.

2. Əsas ekranda **Texniki xidmət** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.

3. **Kağız yönləndiricisinin təmizl.** seçin.

4. Kağız yolunu təmizləmək üçün ekrandakı təlimatlara əməl edin.

   Qeyd:
   Kağıza mürəkkəb bulaşanadək bu proseduru təkrarlayın.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

Skaner Şüşəsi-nin təmizlənməsi

Surətlər və ya şəkillərə mürəkkəb bulaşarsa, skaner şüşəsi-ni təmizləyin.

> ***Vacibdir:***
> *Printeri heç vaxt spirt və ya həlledici məhlullarla təmizləməyin. Bu kimyəvi maddələr printerə ziyan vura bilər.*

1. Sənəd qapağını açın.



2. skaner şüşəsi-nin səthini yumşaq, quru, təmiz parça ilə təmizləyin.

> ***Vacibdir:***
> - *Şüşə səthinə yağ və ya başqa çətin çıxan maddələrin ləkəsi dəyərsə, az miqdarda şüşə təmziləyici və yumşaq parça ilə onu təmizləyin. Qalan mayeni tamamən silib qurulayın.*
> - *Şüşə səthi möhkəm basmayın.*
> - *Şüşənin səthini çızmayın və ya zədələməyin. Şüşə səth zədələnsə, skanlama keyfiyyəti pisləşə bilər.*

Şəffaf təbəqənin təmizlənməsi

Çap başlığını düzləndirdikdən və ya kağızın yolunu təmizlədikdən sonra çap materialının keyfiyyəti yaxşılaşmazsa, printerin içərisindəki şəffaf təbəqə bulaşmış ola bilər.

Lazımi elementlər:

❏ Pambıq tamponlar (bir neçə)

❏ Bir neçə yuyucu vasitə damcıları ilə su (1/4 fincan kran suyunda 2–3 damcı yuyucu vasitə)

❏ Ləkələri yoxlamaq üçün işıq

> ***Vacibdir:***
> *Bir neçə yuyucu vasitə damcıları ilə sudan başqa hər hansı təmizləyici mayedən istifadə etməyin.*

1. ⏻ düyməsini basaraq printeri söndürün.

2. Skanner qurğusunu açın.



Printerin saz vəziyyətdə saxlanması

3. Şəffaf təbəqənin bulaşıb-bulaşmadığını yoxlayın. İşıqdan istifadə edirsinizsə, ləkələri görmək daha asan olur.

   Əgər şəffaf təbəqədə (A) ləkələr (məsələn, barmaq izləri və ya yağ) varsa, növbəti addıma keçin.



A: Şəffaf təbəqə

B: Rəng şini

> ***Vacibdir:***
> *Ehtiyatlı olun ki, rəng şininə (B) toxunmayasınız. Əks halda, siz çap edə bilməyəcəksiniz. Rəng şinindəki yağı silməyin, çünki bu, əməliyyatlar üçün vacibdir.*

4. Pambıq tamponu kran suyu olmayan bir neçə yuyucu vasitə damcısı ilə nəmləndirin, sonra ləkəli hissəni təmizləyin.



> ***Vacibdir:***
> *Ləkəni ehtiyatla təmizləyin. Əgər pambıq tamponu təbəqəyə çox möhkəm bassanız, təbəqənin mənbəyi pozula və printer korlana bilər.*

5. Təbəqəni təmizləmək üçün yeni quru pambıq tampondan istifadə edin.

> ***Vacibdir:***
> *Təbəqədə hər hansı lif qoymayın.*

Qeyd:
Ləkənin yayılmasının qarşısını almaq üçün tez-tez pambıq tamponu yenisi ilə əvəzləyin.

6. Təbəqə bulaşmayana kimi 4 və 5-cü addımları təkrarlayın.

7. Təbəqənin bulaşmadığını əyani şəkildə yoxlayın.

Enerjiyə qənaət

Təyin olunan müddət ərzində heç bir əməliyyat icra edilməsə printer yatma rejiminə daxil olur və ya avtomatik sönür. Enerji idarəetməsi tətbiq edilənədək vaxtı tənzimləyə bilərsiniz. Artım olarsa, məhsulun enerji məhsuldarlığına təsir göstərəcək. Dəyişiklik etməzdən əvvəl ətraf mühiti nəzərə alın.

Alış yerindən asılı olaraq printerinizdə şəbəkəyə 30 dəqiqə qoşulmadıqda onu avtomatik söndürən funksiya ola bilər.

Enerjiyə Qənaət — İdarəetmə paneli

1. Əsas ekranda **Parametrlər** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.

2. **Ümumi Parametrlər** > **Əsas Parametrlər** seçin.

3. Aşağıdakılardan birini edin.

   Qeyd:
   *Alış yerindən asılı olaraq məhsulunuzda **Söndürmə parametr.** və ya **Sönmə taymeri** funksiyası ola bilər.*

   - ❑ **Yuxu taymeri** və ya **Söndürmə parametr.** > **Qeyri-aktiv halda söndür** və ya **Kəsilmiş halda söndür** seçin və sonra parametrləri quraşdırın.
   - ❑ **Yuxu taymeri** və ya **Sönmə taymeri** seçin və parametrləri təyin edin.

Parametrlər üçün Menyu Seçimləri

Müxtəlif parametrlər qurmaq üçün printerin əsas ekranında **Parametrlər** toxunun.

Təchizat Statusu üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyunu aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Təchizat Statusu**

Texniki dəstək qutusunun təxmini mürəkkəb səviyyəsi və xidmət müddətini göstərir.

göstəriləndə mürəkkəb tükənir və ya texniki dəstək qutusu dolmaq üzrə olur. göstəriləndə mürəkkəb tükəndiyinə və ya texniki dəstək qutusu dolmaq üzrə olduğuna görə elementi dəyişdirməlisiniz.

Siz bu ekrandan təchizat statusu məlumatını çap edə və ya mürəkkəb kartriclərini dəyişə bilərsiniz.

Əsas Parametrlər üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Əsas Parametrlər**

Sönmə taymeri:

Alış yerindən asılı olaraq məhsulunuzda bu xüsusiyyət və ya **Söndürmə parametr.** xüsusiyyəti ola bilər.

Printer göstərilən vaxt müddəti üçün istifadə edilmədikdə, onu avtomatik söndürmək üçün bu parametri seçin. Enerji idarəetməsi tətbiq edilənədək vaxtı tənzimləyə bilərsiniz. Artım olarsa, məhsulun enerji məhsuldarlığına təsir olunacaq. Dəyişiklik etməzdən əvvəl ətraf mühiti nəzərə alın.

Söndürmə parametr.:

Alış yerindən asılı olaraq məhsulunuzda bu xüsusiyyət və ya **Sönmə taymeri** xüsusiyyəti ola bilər.

- Qeyri-aktiv halda söndür

  Printer göstərilən vaxt müddəti üçün istifadə edilmədikdə, onu avtomatik söndürmək üçün bu parametri seçin. Artım olarsa, məhsulun enerji məhsuldarlığına təsir olunacaq. Dəyişiklik etməzdən əvvəl ətraf mühiti nəzərə alın.

- Kəsilmiş halda söndür

  USB portu ilə yanaşı, bütün portlar ilə əlaqə kəsiləndə, printeri 30 dəqiqədən sonra söndürmək üçün bu parametri seçin. Bu xüsusiyyət regionunuzdan asılı olaraq mümkün olmaya bilər.

Parametrlər üçün Menyu Seçimləri

Yuxu taymeri:

Printer heç bir əməliyyatı icra etməyəndə yuxu rejimi (enerjiyə qənaət rejimi) daxil etmək üçün vaxt müddətini tənzimləyin. Qurma vaxtı keçdikdə LCD ekran qaralır.

Dil/Language:

LCD ekranda istifadə edilən dili seçin.

Klaviatura

LCD ekranda klaviaturanın düzənini dəyişdirin.

Bütün parametrləri silin:

Əsas Parametrlər susmaya görə vəziyyətinə qaytarır.

Əlaqədar məlumat

➡ 136 səhifəsində "Enerjiyə Qənaət — İdarəetmə paneli"
➡ 22 səhifəsində "Simvolların daxil edilməsi"

Printer parametrləri üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Printer parametrləri**

Kağız mənbəyi param.:

Kağızın parametrləri:

Kağız mənbəyinə əlavə etdiyiniz kağızın ölçüsünü və növünü seçin. Siz kağız ölçüsü və kağız növündə **Sevimli Kağız Parametrl** parametrini seçə bilərsiniz. Təyin etdiyiniz sonuncu parametrlərə qayıtmaq üçün seçin.

Kağız konfiqurasiyası:

Kağız kağız mənbəyinə yüklənəndə **Parametrlər** > **Printer parametrləri** > **Kağız mənbəyi param.** > **Kağızın parametrləri**-a istinad edərək avtomatik şəkildə kağız parametrləri ekranını göstərmək üçün **Aktiv** seçimini edin.Bu xüsusiyyəti qeyri-aktiv etsəniz, AirPrint istifadə etməklə iPhone və ya iPad-dən çap edə bilməyəcəksiniz

Səssiz rejim:

Çap zamanı səsi azaltmaq üçün **Aktiv** seçin, lakin bu, çap sürətini azalda bilər. Seçdiyiniz kağız növündən və çap keyfiyyətindən asılı olaraq printerin səs səviyyəsində heç bir fərq olmaya bilər.

Mürəkkəbin Quruma Müddəti:

2-tərəfli çap icra edərkən istifadə etmək istədiyiniz mürəkkəbin quruma vaxtını seçin.Printer bir tərəfi çap etdikdən sonra digər tərəfi çap edir.Əgər çap materialınız qaralanıbsa, vaxtın qurulmasını artırın.

Bütün parametrləri silin

Printer parametrləri susmaya görə vəziyyətinə qaytarır.

Şəbəkə Parametrləri üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Şəbəkə Parametrləri**

Wi-Fi quraşdırması:

Simsiz şəbəkə parametrlərini quraşdırın və ya dəyişdirin.Aşağıdan bağlantı üsulu seçin və sonra idarəetmə panelində təlimatlara əməl edin.

❏ Wi-Fi (Tövsiyə edilir):

❏ Wi-Fi Direct

Şəbəkə vəziyyəti:

Cari şəbəkə bağlantılarını göstərir.

❏ Wi-Fi vəziyyəti

❏ Wi-Fi Direct Statusu

❏ Status Vərəqini Çap Et

Bağlantının yoxlanması:

Cari şəbəkə bağlantısını yoxlayır və hesabat çap edir.Qoşulmada problem olarsa, problemi həll etmək üçün hesabata baxın.

Qabaqcıl:

Aşağıdakı təfərrüatlı parametrləri qurun.

❏ Cihazın Adı

❏ TCP/IP

❏ Proksi server

Əlaqədar məlumat

➡ 37 səhifəsində “SSID və Şifrə daxil etməklə Wi-Fi Parametrlərinin Qurulması”

➡ 39 səhifəsində “Düymə Basılma Quraşdırması ilə Wi-Fi Parametrlərinin Qurulması (WPS)”

➡ 40 səhifəsində “PİN Kod Quraşdırması (WPS) ilə Wi-Fi Parametrlərinin Təyini”

➡ 50 səhifəsində “Şəbəkə Statusu Səhifəsinin Çap Edilməsi”

➡ 43 səhifəsində “Şəbəkə Bağlantısı Vəziyyətinin Yoxlanılması”

➡ 42 səhifəsində “Əlavə Şəbəkə Parametrlərinin Quraşdırılması”

Veb Xidməti Parametrləri üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Veb Xidməti Parametrləri**

Epson Connect xidmətləri:

Printerin qeydiyyatdan keçirilib-keçirilmədiyini və Epson Connect-ə qoşulub-qoşulmadığını göstərir. **Qeydiyyatdan keçir** seçməklə və göstərişlərə əməl etməklə, xidmətdə qeydiyyatdan keçə bilərsiniz. Qeydiyyatdan keçdikdən sonra aşağıdakı parametrləri dəyişdirə bilərsiniz.

❏ Dayandır/Davam et

❏ Qeydiyyatı ləğv et

Təfərrüatlar üçün aşağıdakı veb-sayta baxın.

https://www.epsonconnect.com/

http://www.epsonconnect.eu (yalnız Avropa)

Google Cloud Çap Xidmətləri:

Printerin qeydiyyatdan keçib-keçmədiyini və Google Bulud Çapı xidmətlərinə qoşulub-qoşulmadığını göstərir. Qeydiyyatdan keçdikdən sonra aşağıdakı parametrləri dəyişdirə bilərsiniz.

❏ Aktiv et/Qeyri-aktiv et

❏ Qeydiyyatı ləğv et

Google Bulud Çapı xidmətlərinə qeydiyyatdan keçmək üzrə təfərrüatlar üçün aşağıdakı veb-sayta baxın.

https://www.epsonconnect.com/

http://www.epsonconnect.eu (yalnız Avropa)

Əlaqədar məlumat

➡ 142 səhifəsində "Epson Connect Xidməti"

Bələdçi funksiyaları üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Bələdçi funksiyaları**

Kağız Uyğunsuzluğu

Çap işi üçün kağız parametrləri (çap parametrləri) kağızı yüklədiyiniz zaman printerin qurulmuş kağız parametrlərinə uyğun gəlmirsə, xəbərdarlıq ekrana çıxarır. Bu parametr səhv çapın qarşısını alır. **Kağız konfiqurasiyası** aşağıdakı menyuda qeyri-aktiv edildikdə, kağız parametri ekranı göstərilmir. Belə vəziyyətdə siz AirPrint-dən istifadə edərək iPhone, iPad və ya iPod touch cihazlarından çap edə bilməzsiniz.

Parametrlər > **Printer parametrləri** > **Kağız mənbəyi param.**

Müştəri Araşdırması üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Müştəri Araşdırması**

Çapların sayı kimi istifadə məlumatını Seiko Epson Corporation şirkətinə təqdim etmək üçün **Təsdiqlə** seçin.

Avad. proq. yenilən. üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Avad. proq. yenilən.**

Yenilə:

Proqramın ən son versiyasının şəbəkə serverinə yüklənməsini yoxlayın.Əgər yeniləmə əlçatandırsa, yenilənmənin başladılıb başladımamasını seçə bilərsiniz.

Bildiriş:

Proqram yenilənməsi mümkün olduğu zaman məlumat almaq üçün **Aktiv** seçimini edin.

Bərpa edilir üçün Menyu Seçimləri

İdarəetmə panelindəki menyuları aşağıda göstərildiyi kimi seçin.

Parametrlər > **Bərpa edilir**

Şəbəkə Parametrləri:

Şəbəkə parametrlərini standarta qaytarır.

Şəbəkə Parametrlərindənbaşqa hamısı:

Şəbəkə parametrləri istisna olmaqla bütün parametrləri standarta qaytarır.

Bütün parametrlər:

Bütün parametrləri standarta qaytarır.

Şəbəkə xidməti və proqram haqqında məlumat

Bu bölmədə Epson veb-saytı və ya təmin edilmiş proqram təminatı diskində printeriniz üçün uyğun olan proqram məhsulları və şəbəkə xidmətləri haqqında məlumat verilir.

Epson Connect Xidməti

İnternetdə mövcud olan Epson Connect xidmətindən istifadə edərək, istənilən vaxt və demək olar ki, hər yerdə smartfondan, planşet kompüter və noutbukdan çap edə bilərsiniz.

İnternetdə mövcud olan xüsusiyyətlər bunlardır.

Email Print	Epson iPrint uzaqdan çap funksiyası	Scan to Cloud	Remote Print Driver
✓	✓	✓	✓

Ətraflı məlumat üçün Epson Connect portal vebsaytına baxın.

https://www.epsonconnect.com/

http://www.epsonconnect.eu (yalnız Avropa)

Printer Əməliyyatlarını Konfiqurasiya etmək üçün Proqram (Web Config)

Web Config Internet Explorer və Safari kimi veb brauzerdə, kompüter və ya smart cihazda işləyən proqramdır. Printer statusunu təsdiq edə, şəbəkə xidməti və printer parametrlərini dəyişə bilərsiniz. Web Config istifadə etmək üçün printer və kompüteri və ya cihazı eyni şəbəkəyə qoşun.

Bu brauzerlər dəstəklənir.

ƏS	Brauzer
Windows XP SP3 və ya daha yeni versiya	Microsoft Edge, Internet Explorer 8 və ya daha sonrakı versiya, Firefox*, Chrome*
Mac OS X v10.6.8 və ya daha yeni versiya	Safari*, Firefox*, Chrome*
iOS*	Safari*
Android 2.3 və ya daha yeni versiya	Standart brauzer
Chrome OS*	Standart brauzer

* Ən son versiyanı istifadə edin.

Veb brauzerdə veb konfiqurasiyasının icrası

1. Printerin IP ünvanını yoxlayın.

   Printerin əsas ekranında şəbəkə nişanını seçin və sonra printerin IP ünvanını təsdiqləmək üçün aktiv bağlantı üsulunu seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.

   Qeyd:
   Şəbəkə bağlantısı hesabatını çap etməklə siz həmçinin IP ünvanını yoxlaya bilərsiniz.

2. Kompüter və ya smart cihazdan Veb brauzeri işə salın və ardından printerin İP ünvanını daxil edin.

   Format:

   IPv4: http://printerin IP ünvanı/

   IPv6: http://[printerin IP ünvanı]/

   Nümunələr:

   IPv4: http://192.168.100.201/

   IPv6: http://[2001:db8::1000:1]/

   Qeyd:
   Smart cihazdan istifadə edərək Web Config proqramını Epson iPrint texniki dəstək ekranından da işə sala bilərsiniz.

Əlaqədar məlumat

➡ 44 səhifəsində "Şəbəkə bağlantısı hesabatının çapı"

➡ 88 səhifəsində "Epson iPrint istifadəsi"

Web Config proqramının Windows sistemində işə salınması

WSD-dən istifadə etməklə kompüteri printerə qoşan zaman Web Config proqramını icra etmək üçün aşağıdakı addımları yerinə yetirin.

1. Kompüterdə printer siyahısını açın.

   ❏ Windows 10

   Başlatma düyməsini klikləyin və sonra **Windows Sistem** > **İdarəetmə Paneli** > **Avadanlıq və Səsdə Cihazlar və printerlərə bax** seçin.

   ❏ Windows 8.1/Windows 8

   Masaüstü > **Parametrlər** > **İdarəetmə Paneli** > **Cihazlar və printerlərə bax** menyusunu **Avadanlıqlar və səs** (və ya **Avadanlıqlar**) menyusunda seçin.

   ❏ Windows 7

   Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** > **Cihazlar və printerlərə bax** menyusunu **Avadanlıq və Səs** menyusunda seçin.

   ❏ Windows Vista

   Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** > **Printerlər** menyusunu **Avadanlıqlar və səs** menyusunda seçin.

2. Printerinizi sağla klikləyin və **Xüsusiyyətlər** seçin.

3. **Veb Xidmət** tab-vərəqəsini seçin və URL klikləyin.

Web Config proqramının Mac OS sistemində işə salınması

1. **Sistem Seçimlərini** menyusu > **Printerlər və ya Skannerlər**-dən (yaxud **Çap və Skanlama**, **Çap və Faks**) seçin, sonra printer seçin.

2. **Seçimlər və təchizatlar** > **Printer veb səhifəsini göstər** klikləyin.

Windows Printer Drayveri

Printer drayveri hər hansı proqramdan gələn əmrlərə əsasən printeri idarə edir. Printer drayveri parametrlərinin təyini çap nəticələrini daha da yaxşılaşdırır. Siz həmçinin printer drayveri proqramında printerin statusunu yoxlaya və onun yaxşı işləməsini təmin edə bilərsiniz.

Qeyd:
*Printer drayverinin dilini dəyişə bilərsiniz. İstifadə etmək istədiyiniz dili **Dil** parametrindən **Texniki xidmət** tab-vərəqində seçin.*

Printer drayverinə proqramlardan giriş

Yalnız istifadə etdiyiniz proqrama tətbiq edilən parametrləri təyin etmək üçün həmin proqramdan daxil olun.

Fayl menyusundan **Çap et** və ya **Çap quraşdırması** seçin. Printerinizi seçin və ardından **Seçimlər** və ya **Xüsusiyyətlər** klikləyin.

Qeyd:
Əməliyyatlar proqramdan asılı olaraq dəyişir. Ətraflı məlumat üçün proqramın kömək bölməsinə baxın.

Printer drayverinə idarəetmə panelindən giriş

Bütün proqramlara tətbiq edilən parametrləri təyin etmək üçün idarəetmə panelindən daxil olun.

❏ Windows 10

Başlatma düyməsini klikləyin və sonra **Windows Sistem** > **İdarəetmə Paneli** > **Avadanlıq və Səsdə Cihazlar və printerlərə bax** seçin. Printerinizə sağla klikləyin və ya onu basıb saxlayın və sonra **Çap seçimləri** seçin.

❏ Windows 8.1/Windows 8

Masaüstü > **Parametrlər** > **İdarəetmə Paneli** > **Cihazlar və printerlərə bax** menyusunu **Avadanlıqlar və səs** menyusunda seçin. Printerinizi sağla klikləyin və ya onu basıb saxlayın və ardından **Çap seçimləri** seçin.

❏ Windows 7

Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** > **Cihazlar və printerlərə bax** menyusunu **Avadanlıq və Səs** menyusunda seçin. Printerinizi sağla klikləyin və **Çap seçimləri** seçin.

❏ Windows Vista

Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** > **Printerlər** menyusunu **Avadanlıqlar və səs** menyusunda seçin. Printerinizi sağla klikləyin və **Çap seçimləri seç** seçin.

❏ Windows XP

Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** > **Printerlər və digər avadanlıqlar** > **Printerlər və fakslar** seçin. Printerinizi sağla klikləyin və **Çap seçimləri** seçin.

Tapşırıq panelindəki printer işarəsindən printer drayverinə giriş

Masaüstündəki tapşırıq panelində olan printer işarəsi printer drayverinə tez giriş imkanı verən qısa yoldur.

Printer işarəsini klikləsəniz və **Printer parametrləri** seçsəniz, idarəetmə panelində göstərilən eyni printer parametrləri pəncərəsinə daxil ola bilərsiniz. Bu işarəni iki dəfə klikləsəniz, printerin statusunu yoxlaya bilərsiniz.

Qeyd:
Tapşırıq panelində printer işarəsi görünmürsə, printer drayveri pəncərəsinə daxil olun, ***Nəzarət tərcihləri*** *>* ***Texniki xidmət*** *tab-vərəqində klikləyin və ardından* ***Qısayol piktoqramını tapşırıq panelində qeyd edin*** *seçin.*

Funksiyanın başladılması

Printer drayveri pəncərəsinə daxil olun. **Texniki xidmət** tab-vərəqini klikləyin.

Windows Printer Drayverinin bələdçisi

Windows üçün printer drayverində kömək mövcuddur. Elementlərin tənzimlənməsi barədə izahatlara baxmaq üçün hər bir elementi sağ düymə ilə klikləyin və ardından **Yardım** klikləyin.

Əsas Tab-vərəqi

Kağız növü və kağız ölçüsü kimi çap üçün əsas parametrləri təyin edə bilərsiniz.

Həmçinin, kağızın hər iki üzünə çap etmək və ya bir vərəqdə bir neçə səhifəni çap etmək üçün parametrləri təyin edə bilərsiniz.



Şəbəkə xidməti və proqram haqqında məlumat

Daha çox seçimlər Tab-vərəqi

Həmçinin çap olunmuş materialın ölçüsünü dəyişmək və ya rəng düzəlişləri etmək kimi əlavə tərtibat və çap seçimlərini seçə bilərsiniz.



Texniki xidmət Tab-vərəqi

Başlıq gözlərinin yoxlanması və başlığın təmizlənməsi kimi texniki dəstək xüsusiyyətlərini icra edə və **EPSON Status Monitor 3** işə salaraq, printer statusu və xəta məlumatlarını yoxlaya bilərsiniz.



Windows Printer Drayveri üçün əməliyyat parametrlərinin təyini

EPSON Status Monitor 3 aktivləşdirilməsi kimi parametrləri təyin edə bilərsiniz.

1. Printer drayveri pəncərəsinə daxil olun.
2. **Genişləndirilmiş parametrlər**-nə **Texniki xidmət** tab-vərəqində daxil olun.
3. Müvafiq parametrləri seçin və ardından **OK** klikləyin.
   Parametrlərin izahları üçün onlayn kömək bölməsinə baxın.

Mac OS Printer Drayveri

Printer drayveri hər hansı proqramdan gələn əmrlərə əsasən printeri idarə edir.Printer drayveri parametrlərinin təyini çap nəticələrini daha da yaxşılaşdırır.Siz həmçinin printer drayveri proqramında printerin statusunu yoxlaya və onun yaxşı işləməsini təmin edə bilərsiniz.

Printer drayverinə proqramlardan giriş

Proqramın **Fayl** menyusundan **Səhifə parametrləri** və ya **Çap et** klikləyin.Lazım gələrsə, **Təfsilatları göstər** (və ya ▼) klikləyərək çap pəncərəsini genişləndirin.

Qeyd:
*İstifadə edilən proqramdan asılı olaraq, **Fayl** menyusunda **Səhifə parametrləri** göstərilməyə bilər və çap ekranının göstərilməsi üçün əməliyyatlar fərqli ola bilər.Ətraflı məlumat üçün proqramın kömək bölməsinə baxın.*

Funksiyanın başladılması

Sistem Seçimlərini menyusu > **Printer və Skannerlər**-dən (və ya **Çap et və Skanla**, **Çap et və Faksla**) seçin və ardından printeri seçin.**Seçimlər və təchizatlar** > **Proqram** > **Printer proqramını aç** klikləyin.

Mac OS Printer Drayverinin bələdçisi

Çap dialoqu

Daha çox element göstərmək üçün ekranın mərkəzindəki açılan menyunu keçirin.



Açılan Menyu	Təsvir
Tərtibat	Bir vərəqdə bir neçə səhifə çap etmək üçün tərtibat seçə və ya kənarı çap etməyi seçə bilərsiniz.
Rəng uyğunluğu	Rəngləri tənzimləyə bilərsiniz.
Kağızın idarə edilməsi	Yüklədiyiniz kağıza avtomatik uyğunlaşması üçün çap materialının ölçüsünü azalda və ya artıra bilərsiniz.
Titul vərəqi	Sənədləriniz üçün titul vərəqi seçə bilərsiniz.Məzmunların titul vərəqində çap olunmasını təyin etmək üçün **Titul Vərəqinin Növü** seçimini edin.
Çap parametrləri	Kağız növü və çap keyfiyyəti kimi əsas çap parametrlərini təyin edə bilərsiniz.
Color Options	**EPSON Color Controls**-ni **Rəng Uyğunluğu** menyusundan seçdiyiniz zaman rəng düzəltmə metodu seçə bilərsiniz.
Two-sided Printing Settings	2-üzlü çap üçün cild istiqaməti seçə və ya sənəd növü seçə bilərsiniz.

Qeyd:
*OS X Mountain Lion və ya daha yeni versiyalarda **Çap parametrləri** menyusu göstərilmirsə, Epson printer drayveri düzgün quraşdırılmayıb.*

Sistem seçimlərini *menyu > **Printerlər və Skanerlər**-dən (və ya **Çap et və skanla**, **Çap et və Faksla**) seçin, printeri silin və ardından printeri yenidən əlavə edin.Aşağıdakı vebsayta daxil olun və məhsulun adını daxil edin.**Dəstək**-a keçin və sonra Məsləhətlərə baxın.*

http://epson.sn

Şəbəkə xidməti və proqram haqqında məlumat

Epson Printer Utility

Başlıq gözlərinin yoxlanması və başlığın təmizlənməsi kimi texniki dəstək xüsusiyyətlərini icra edə və **EPSON Status Monitor** işə salaraq, printer statusu və xəta məlumatlarını yoxlaya bilərsiniz.



Mac OS Printer Drayveri üçün əməliyyat parametrlərinin təyini

Mac OS Printer Drayverinin Əməliyyat Parametrləri Pəncərəsinə Giriş

Sistem Seçimlərini menyusu > **Printerlər və ya Skannerlər**-dən (yaxud **Çap və Skanlama**, **Çap və Faks**) seçin, sonra printer seçin. **Seçimlər və təchizatlar** > **Seçimlər** (və ya **Drayver** klikləyin).

Mac OS Printer Drayverinin əməliyyat parametrləri

- ❏ Boş səhifəni keç: Boş səhifələrin çapına yol vermir.
- ❏ Səssiz rejim: Səssiz çap edir. Lakin, çap sürəti asta ola bilər.
- ❏ Permit temporary black printing: Müvəqqəti olaraq təkcə qara mürəkkəb ilə çap edir.
- ❏ High Speed Printing: Printer başlığı hər iki istiqamətə hərəkət etdikdə çap edir. Çap sürəti yüksəkdir, lakin keyfiyyət azala bilər.
- ❏ Qovluğa tikilmək üçün çapdan çıxarılmış sənədlər: Kağızı yerləşdirin, beləliklə, landşaft məlumatı və ya 2-tərəfli çap zamanı fayla çevirmək asandır. Zərf çapı dəstəklənmir.
- ❏ Ağ sərhədləri yığışdırın: Sərhədsiz çap zamanı lazımsız haşiyələri silir.
- ❏ Warning Notifications: Printer drayverinin xəbərdarlıq bildirişlərini göstərməsinə imkan verir.

❏ Establish bidirectional communication: Adətən bu, **On** kimi təyin edilməlidir. Printer şəbəkədəki Windows kompüterləri ilə paylaşıldığına görə və ya başqa səbəbdən printer məlumatını əldə etmək mümkün olmadıqda **Off** seçin.

Sənədləri və Təsvirləri Skanlamaq üçün Proqram (Epson Scan 2)

Epson Scan 2 skanlamaya nəzarət etməyə imkan verən proqramdır.Skanlanan şəklin ölçüsünü, rezolyusiyasını, parlaqlığını, kontrastını və keyfiyyətini tənzimləyə bilərsiniz.Siz həm də TWAIN-ə uyğun gələn skanlama proqramından Epson Skanlama 2-ni başlada bilərsiniz.Ətraflı məlumat üçün proqramın kömək bölməsinə baxın.

Windows-da işə salmaq

❏ Windows 10

Başlat düyməsinə klikləyin və sonra **EPSON** > **Epson Scan 2** seçin.

❏ Windows 8.1/Windows 8

Axtarış panelində proqram adını daxil edin və ardından göstərilən işarəni seçin.

❏ Windows 7/Windows Vista/Windows XP

Başlat düyməsini klikləyin və **Bütün Proqramlar** və ya **Proqramlar** > **EPSON** > **Epson Scan 2**> **Epson Scan 2** seçin.

Mac OS-da işə salmaq

Qeyd:
Epson Scan 2 proqramı Mac OS sürətli istifadəçi dəyişmə funksiyasını dəstəkləmir.Sürətli istifadəçi dəyişməsini söndürün.

Get > **Proqramlar** > **Epson Software** > **Epson Scan 2** seçin.

Əlaqədar məlumat

➡ 105 səhifəsində "Epson Scan 2 ilə skanlama"
➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Şəbəkə skannerinin əlavə olunması

Epson Scan 2 istifadə etməmişdən öncə siz şəbəkə skanneri əlavə etməlisiniz.

1. Proqram təminatını başladın, sonra **Skaner parametrləri** ekranında **Əlavə et** klikləyin.

   Qeyd:
   ❏ ***Əlavə et*** *bozararsa,* ***Redaktəni aktivləşdir*** *klikləyin.*

   ❏ *Əgər Epson Scan 2-nin əsas ekranı göstərilərsə, o, artıq kompüterə qoşulub. Əgər başqa şəbəkəyə qoşulmaq istəyirsinizsə,* ***Skaner parametrləri*** *ekranını açmaq üçün* ***Skaner*** > ***Parametrlər*** *seçin.*

2. Şəbəkə skannerini əlavə edin. Aşağıdakı elementləri daxil edin, sonra **Əlavə et** klikləyin.

   ❏ **Model**: Qoşulmaq istədiyiniz skanneri seçin.

- ❏ **Ad**: 32 simvol daxilində skannerin adını daxil edin.
- ❏ **Şəbəkə axtar**: Kompüterlə skanner eyni şəbəkədə olanda, İP ünvanı göstəriləcəkdir. Əgər göstərilmirsə, düyməsinə klikləyin. Əgər IP ünvanı hələ də göstərilmirsə, **Ünvanı daxil edin** klikləyin, sonra İP ünvanını birbaşa daxil edin.

3. **Skaner parametrləri**ekranında skanneri seçin, sonra **OK** klikləyin.

İdarəetmə Panelindən Skanlama Əməliyyatlarının Konfiqurasiyası üçün Proqram (Epson Event Manager)

Epson Event Manager idarəetmə panelindən skanlamanı idarə etməyə və şəkilləri kompüterdə saxlamağa imkan verən proqramdır.Sənəd növü, saxlama qovluğunun yeri və şəkil formatı kimi parametrlərinizi əvvəlcədən təyin edilən parametrlər (presetlər) kimi əlavə edə bilərsiniz.Ətraflı məlumat üçün proqramın kömək bölməsinə baxın.

Windows-da işə salmaq

- ❏ Windows 10

  Başlat düyməsinə klikləyin və sonra **Epson Software** > **Event Manager** seçin.
- ❏ Windows 8.1/Windows 8

  Axtarış panelində proqram adını daxil edin və ardından göstərilən işarəni seçin.
- ❏ Windows 7/Windows Vista/Windows XP

  Başlat düyməsinə klikləyin və sonra **Bütün Proqramlar** və ya **Proqramlar** > **Epson Software** > **Event Manager** seçin.

Mac OS-da işə salmaq

Get > **Proqramlar** > **Epson Software** > **Event Manager** seçin.

Əlaqədar məlumat

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Təsvirlərin Çapı üçün Proqram (Epson Photo+)

Epson Photo+ müxtəlif düzənlərdə şəkilləri asanlıqla çap etməyə imkan verən proqramdır. Siz həm də təsvir düzəlişini həyata keçirə və sənədinizin önbaxışına baxarkən mövqeyi tənzimləyə bilərsiniz. Siz həmçinin istədiyiniz yerdə mətn və möhürlər əlavə etməklə, təsvirlərinizi işıqlandıra bilərsiniz. Əsil Epson foto kağızında çap edən zaman mükəmməl rəngləmə ilə gözəl bitiş yaradaraq mürəkkəbin performansı maksimuma çatır.

Ətraflı məlumat üçün proqramın kömək bölməsinə baxın.

Qeyd:
Bu proqramı istifadə etmək üçün bu printerdə printer drayveri quraşdırılmalıdır.

Şəbəkə xidməti və proqram haqqında məlumat

Başlamaq

❏ Windows 10

Başlat düyməsinə klikləyin və sonra **Epson Software** > **Epson Photo+** seçin.

❏ Windows 8.1/Windows 8

Axtarış panelində proqram adını daxil edin və ardından göstərilən işarəni seçin.

❏ Windows 7/Windows Vista/Windows XP

Başlat düyməsini klikləyin və **Bütün Proqramlar** və ya **Proqramlar** > **Epson Software** > **Epson Photo+** seçin.

Mac OS-da işə salmaq

Get > **Proqramlar** > **Epson Software** > **Epson Photo+** seçin.

Əlaqədar məlumat

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Proqram Təminatının Yenilənməsi Alətləri (EPSON Software Updater)

EPSON Software Updater internetdən yeni və ya yenilənmiş proqram təminatlarını tapan və quraşdıran tətbiqi proqramdır. Siz həmçinin printerin proqramını və təlimat kitabçasını yeniləyə bilərsiniz.

Quraşdırma Metodu

Epson veb-saytından EPSON Software Updater endirin.

Əgər siz Windows kompüterindən istifadə edirsinizsə və onu veb-saytdan endirə bilmirsinizsə, siz onu təchiz olunmuş proqram təminatı diskindən quraşdıra bilərsiniz.

http://www.epson.com

Windows-da işə salmaq

❏ Windows 10

Başlat düyməsinə klikləyin və sonra **Epson Software** > **EPSON Software Updater** seçin.

❏ Windows 8.1/Windows 8

Axtarış panelində proqram adını daxil edin və ardından göstərilən işarəni seçin.

❏ Windows 7/Windows Vista/Windows XP

Başlat düyməsini klikləyin və ardından **Bütün Proqramlar** və ya **Proqramlar** > **Epson Software** > **EPSON Software Updater** seçin.

Qeyd:
*EPSON Software Updater proqramını işə salmaq üçün həmçinin masaüstündə tapşırıq panelindəki printer işarəsini kliklәyə və **Proqram təminatının yenilənməsi** seçə bilərsiniz.*

Mac OS-da işə salmaq

Get > **Proqramlar** > **Epson Software** > **EPSON Software Updater** seçin.

Proqramların quraşdırılması

Kompüterinizi şəbəkəyə qoşun və vebsaytdan proqramların ən son versiyalarını quraşdırın.

Qeyd:

❏ *Kompüterə administrator kimi daxil olun. Kompüter tələb etdikdə, administrator parolunu daxil edin.*

❏ *Proqramı yenidən quraşdırarkən, əvvəlcə onu silməlisiniz.*

1. Bütün açıq proqramları bağlayın.
2. Printer drayveri və ya Epson Scan 2 quraşdırarkən printeri və kompüteri müvəqqəti çıxarın.

   Qeyd:
   Təlimat verilənədək printeri və komüpteri birləşdirməyin.
3. Aşağıdakı vebsayta daxil olun, sonra isə məhsulun adını daxil edin.

   http://epson.sn
4. **Quraşdırma** seçin, sonra isə **Yüklə** düyməsini basın.
5. Endirilmiş faylı bir və ya iki dəfə klikləyin və ekranda göstərilən təlimatlara əməl edin.

Qeyd:
Windows ilə işləyən kompüterdən istifadə edirsinizsə və proqramları vebsaytdan yükləyə bilmirsinizsə, onları printerlə birlikdə verilən proqram diskindən quraşdırın.

Əlaqədar məlumat

➡ 152 səhifəsində "Proqram Təminatının Yenilənməsi Alətləri (EPSON Software Updater)"

➡ 154 səhifəsində "Proqramların silinməsi"

Tətbiqi proqramlar və proqram təminatının yenilənməsi

Tətbiqi proqramları və proqram təminatlarını yeniləyərək müəyyən problemləri həll edə, funksiyaları yaxşılaşdıra və ya əlavə edə bilərsiniz. Tətbiqi proqramların və proqram təminatlarının ən son versiyalarını istifadə etdiyinizə əmin olun.

1. Printer və kompüterin qoşulduğuna və kompüterin internetə qoşulduğuna əmin olun.
2. EPSON Software Updater işə salın və tətbiqi proqramı və proqram təminatını yeniləyin.

   > ***Vacibdir:***
   > *Yenilənmə tamamlanana qədər printeri və ya kompüteri söndürməyin; əks təqdirdə, printerdə nasazlıq yarana bilər.*

   Qeyd:
   Siyahıda yeniləmək istədiyiniz proqramı tapa bilmirsinizsə, EPSON Software Updater ilə yeniləyə bilməzsiniz. Proqramların ən son versiyaları üçün yerli Epson vebsaytına baxın.

   http://www.epson.com

İdarə panelindən istifadə etməklə Printerin Proqramının yenilənməsi

Əgər printer İnternetə qoşulubsa, idarə panelindən istifadə etməklə printer proqramını yeniləyə bilərsiniz. Həmçinin printerin müntəzəm olaraq proqram yeniləmələrini yoxlamasını və əlçatan yeniləmələr olduqda sizi xəbərdar etməsini təyin edə bilrəsiniz.

1. Əsas ekranda **Parametrlər** seçin.

   Element seçmək üçün ▲ ▼ ◀ ▶ düymələrini istifadə edin, sonra OK düyməsinə basın.

2. **Avad. proq. yenilən.** > **Yenilə** seçin.

   Qeyd:
   *Mütəmadi olaraq proqram yeniləmələrini yoxlamaq məqsədilə printeri qurmaq üçün **Bildiriş** seçimini aktivləşdirin.*

3. Ekranda göstərilən mesajı yoxlayın və mövcud yeniləmələri axtarmağa başlamaq üçün **Yoxlamanı Başladın** basın.

4. Əgər LCD ekranda proqram yenilənməsinin əlçatan olması barədə mesaj görünürsə, yeniləməyə başlamaq üçün ekrandakı təlimatları izləyin.

> ***Vacibdir:***
> - *Yenilənmə tamamlanana qədər printeri söndürməyin və ya cərəyandan ayırmayın; əks təqdirdə, printerdə nasazlıq yarana bilər.*
> - *Proqram yeniləməsi tamamlanmayıbsa və ya uğursuz olarsa, printer normal işə düşmür və növbəti dəfə printer işə salınanda LCD ekranında "Recovery Mode" göstərilir. Bu halda, kompüterdən istifadə etməklə, proqramı yenidən yeniləməlisiniz. Printeri kompüterə USB kabel vasitəsilə qoşun. Printerdə "Recovery Mode" görünürsə, proqramı şəbəkə bağlantısı ilə yeniləyə bilməzsiniz. Kompüterdə lokal Epson vebsaytına daxil olun və ən son printer proqramını yükləyin. Növbəti addımlar üçün vebsaytdakı təlimatlara əməl edin.*

Proqramların silinməsi

Kompüterinizə inzibatçı kimi daxil olun. Kompüter tələb etdikdə, administrator parolunu daxil edin.

Proqramların quraşdırılmışının ləğvi — Windows

1. Printeri söndürmək üçün ⏻ düyməsini basın.

2. Bütün açıq proqramları bağlayın.

3. **İdarəetmə Panelini** açın:
   - Windows 10

     Başlat düyməsini klikləyin, sonra **Windows Sistem** > **İdarəetmə Paneli** seçin.
   - Windows 8.1/Windows 8

     Masaüstü > **Parametrlər** > **İdarəetmə Paneli** seçin.

❏ Windows 7/Windows Vista/Windows XP

Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** seçin.

4. **Proqramı sil** (və ya **Proqram əlavə et və ya sil**) açın:

❏ Windows 10/Windows 8.1/Windows 8/Windows 7/Windows Vista

Proqramlar-dan **Proqramı sil** seçin.

❏ Windows XP

Proqramlar Əlavə Et və ya Sil klikləyin.

5. Silmək istədiyiniz proqramı seçin.

Hər hansı çap işi olarsa, printer drayverinin quraşdırılmışını ləğv edə bilməzsiniz. Quraşdırılmışı ləğv etməzdən öncə silin və ya onların çap olunmasını gözləyin.

6. Proqramları silin:

❏ Windows 10/Windows 8.1/Windows 8/Windows 7/Windows Vista

Sil/Dəyiş və ya **Sil** klikləyin.

❏ Windows XP

Dəyiş/Sil və ya **Sil** klikləyin.

Qeyd:
İstifadəçi hesabına nəzarət *pəncərəsi açılsa,* ***Davam et*** *klikləyin.*

7. Ekrandakı təlimatları izləyin.

Proqramların Quraşdırılmasının Ləğvi — Mac OS

1. Uninstaller proqramını EPSON Software Updater ilə yükləyin.

Uninstaller-i bir dəfə yüklədikdən sonra növbəti dəfə proqram silərkən onu yükləmək lazım gəlməyəcək.

2. Printeri söndürmək üçün ⏻ düyməsini basın.

3. Printer drayverinin quraşdırmasını ləğv etmək üçün menyu > **Printerlər & Scanerlər**-dən (və ya **Çap və Skan**, **Çap və Faks**) **Sistem Seçimləri** seçin və sonra printeri aktivləşdirilmiş printerlər siyahısından çıxarın.

4. Bütün açıq proqramları bağlayın.

5. **Get** > **Proqramlar** > **Epson Software** > **Uninstaller** seçin.

6. Silmək istədiyiniz proqramı seçin və ardından **Uninstall** klikləyin.

> ***Vacibdir:***
> *Uninstaller kompüterdəki bütün Epson mürəkkəb printerlərinin drayverlərini silir.Çox sayda Epson mürəkkəb printeri istifadə edirsinizsə və ancaq bəzilərini silmək istəyirsinizsə, əvvəlcə hamısını silin, sonra lazım olanları yenidən quraşdırın.*

Şəbəkə xidməti və proqram haqqında məlumat

Qeyd:
*Proqram siyahısında silmək istədiyiniz proqramı tapa bilmirsinizsə, Uninstaller ilə silə bilməzsiniz.Belə halda **Get** > **Proqramlar** > **Epson Software** seçin, silmək istədiyiniz proqramı seçin və ardından onu səbət işarəsinə aparıb buraxın.*

Əlaqədar məlumat

➡ 152 səhifəsində "Proqram Təminatının Yenilənməsi Alətləri (EPSON Software Updater)"

Problemlərin həlli

Printer statusunun yoxlanılması

LCD Ekranda Mesajların Yoxlanılması

LCD ekranda xəta mesajı çıxarsa, ekrandakı təlimatları və ya aşağıdakı həlləri izləyərək problemi həll edin.

Xəta mesajları	Həll yolları
Printer xətası Printeri yenidən yandırın. Ətraflı məlumat almaq üçün sənədlərə baxın.	Printerdəki kağız və ya qoruyucu materialı çıxarın. Əgər xəta ilə bağlı mesaj hələ də görünərsə, Epson dəstək ilə əlaqə saxlayın.
Mürəkkəb Kartricinu əvəz etməlisiniz.	Ən yüksək səviyyədə çap keyfiyyəti əldə etməniz və çap başlığını qorumaq üçün printer kartricin dəyişdirilməsi vaxtının gəlib çatdığını göstərdikdə, kartricdə müxtəlif miqdarda mürəkkəb təhlükəsizlik ehtiyatı saxlanılır. Tələb edildikdə, kartrici dəyişin.
Printerin haşiyəsiz çap mürəkkəbi yastığının istismar müddəti başa çatmaq üzrədir. Bu, istifadəçinin dəyişdirəcəyi hissə deyil. Lütfən Epson dəstəyi ilə əlaqə saxlayın.	Sərhədsiz çap mürəkkəbi yastıqçasını əvəzləmək üçün Epson və ya rəsmi Epson xidmət təminatçısı ilə əlaqə saxlayın*. Bu hissəni istifadəçi dəyişməməlidir. Yastıqça dəyişənədək bu mesaj göstəriləcək. Çapı davam etdirmək üçün **Rədd et** seçin.
Printerin haşiyəsiz çap mürəkkəbi yastığının istismar müddəti başa çatıb. Bu, istifadəçinin dəyişdirəcəyi hissə deyil. Lütfən Epson dəstəyi ilə əlaqə saxlayın.	Sərhədsiz çap mürəkkəbi yastıqçasını əvəzləmək üçün Epson və ya rəsmi Epson xidmət təminatçısı ilə əlaqə saxlayın*. Bu hissəni istifadəçi dəyişməməlidir. Sərhədsiz çap mümkün deyil, lakin sərhədlə çap mümkündür.
Kağız konfiqurasiyası Qeyri-aktiv kimi quruldu. Bəzi funksiyalar mövcud olmaya bilər. Təfərrüatlar üçün sənədlərə baxın.	Əgər **Kağız konfiqurasiyası** qeyri-aktiv edilibsə, AirPrint-i istifadə edə bilməzsiniz.
IP ünvanı və alt şəbəkə maskası etibarsızdır. Əlavə məlumat üçün sənədlərinizə baxın.	Düzgün IP ünvanı və ya standart giriş daxil edin. Kömək üçün şəbəkəni quraşdıran şəxslə əlaqə saxlayın.
Bulud xidmətlərindən istifadə etmək üçün əsas sertifikatı yeniləyin.	Web Config-i işə salın və sonra kök sertifikatını yeniləyin.
Printer drayverinin kompüterdə quraşdırıldığını və printer üçün port parametrlərinin düzgün olduğunu yoxlayın.	Printer drayverinin **Texniki xidmət** tab-vərəqəsində **Çap növbəsi** klikləyin. Printer portunun **Printer** menyusunda **Xüsusiyyət** > **Port** menyusunda düzgün aşağıdakı kimi seçildiyinə əmin olun. USB bağlantısı üçün "**USBXXX**" və ya şəbəkə bağlantısı üçün "**EpsonNet Print Port**" seçin.
Printer drayverinin kompüterdə quraşdırıldığını və printer üçün USB portu parametrlərinin düzgün olduğunu yoxlayın.	

Xəta mesajları	Həll yolları
Recovery Mode	Aparat yeniləməsi alınmadığına görə printer bərpa rejimində işə düşüb. Proqramın yenilənməsini bir daha sınamaq üçün aşağıdakı addımları icra edin. 1. Kompüter və printeri USB kabeli ilə qoşun. (Bərpa rejimi zamanı aparatı şəbəkə bağlantısı ilə yeniləyə bilməzsiniz.) 2. Ətraflı məlumat üçün yerli Epson vebsaytına baş çəkin.

* Bəzi çap dövrlərində çox az miqdarda artıq mürəkkəb yastıqçada toplanıb qalır. Yastıqçadan mürəkkəb sızmasının qarşısını almaq üçün yastıqça limitə çatdıqda məhsul çap prosesini dayandırır. Bunun nə zaman lazım olduğu haşiyəsiz çap seçimi ilə neçə səhifə çap etməyinizdən asılıdır. Yastıqçanın dəyişməli olması printerin işləmədiyini bildirmir. Yastıqçanın nə zaman dəyişməli olduğunu printer bildirəcək və bunu yalnız rəsmi Epson xidmət təminatçısı icra etməlidir. Epson zəmanəti bu dəyişmənin xərcini əhatə etmir.

Əlaqədar məlumat

➡ 159 səhifəsində "İlişən kağızın çıxarılması"
➡ 195 səhifəsində "Epson dəstək xidmətinə müraciət"
➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Printer statusunun yoxlanılması — Windows

1. Printer drayveri pəncərəsinə daxil olun.
2. **EPSON Status Monitor 3**-nə **Texniki xidmət** tab-vərəqində daxil olun.

   Qeyd:
   - ❑ *Həmçinin, tapşırıq panelində printer işarəsini iki dəfə klikləyərək printer statusunu yoxlaya bilərsiniz. Printer işarəsi tapşırıq panelinə əlavə edilməyibsə,* ***Nəzarət tərcihləri****-ni* ***Texniki xidmət*** *tab-vərəqində klikləyin və ardından* ***Qısayol piktoqramını tapşırıq panelində qeyd edin*** *seçin.*
   - ❑ ***EPSON Status Monitor 3*** *sönülüdürsə,* ***Genişləndirilmiş parametrlər****-ni* ***Texniki xidmət*** *tab-vərəqində klikləyin və ardından* ***EPSON Status Monitor 3 aktivləşdir*** *seçin.*

Əlaqədar məlumat

➡ 144 səhifəsində "Windows Printer Drayveri"

Printer statusunun yoxlanılması — Mac OS

1. **Sistem Seçimlərini** menyusu > **Printer və Skannerlər**-dən (və ya **Çap et və Skanla**, **Çap et və Faksla**) seçin və ardından printeri seçin.
2. **Seçimlər və təchizatlar** > **Proqram** > **Printer proqramını aç** klikləyin.
3. **EPSON Status Monitor** klikləyin.

   Siz printerin vəziyyəti, mürəkkəb səviyyələri və səhv vəziyyətini yoxlaya bilərsiniz.

Proqram Təminatının Vəziyyətinin Yoxlanması

Proqram təminatını ən son versiyaya yeniləməklə problemi aydınlaşdıra bilərsiniz. Proqram təminatının vəziyyətini yoxlamaq üçün proqram təminatını yeniləmə alətindən istifadə edin.

Əlaqədar məlumat

➡ 152 səhifəsində "Proqram Təminatının Yenilənməsi Alətləri (EPSON Software Updater)"

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

İlişən kağızın çıxarılması

İdarəetmə panelində göstərilən xətanı yoxlayın və ilişən kağızı və cırılmış hissələri çıxarmaq üçün təlimatlara əməl edin. Sonra xətanı silin.

> ***Vacibdir:***
> *İlişən kağızı ehtiyatla çıxarın. Kağızı kobud şəkildə çıxarsanız, printerə ziyan dəyə bilər.*

İlişən kağızın Kağızın Arxa Ötürücüsü-dan çıxarılması

İlişən kağızı çıxarın.



İlişən kağızın printerin içərisindən çıxarılması

> ***Diqqət:***
> - *Skaner qurğusunu açıb-bağlayarkən əl, yaxud barmaqlarınızı arasında qoymamağa diqqət yetirin. Yoxsa, zədələnə bilərsiniz.*
> - *Əliniz printerin içərisində olduqda idarəetmə panelindəki düymələrə toxunmayın. Printer işə düşsə, xəsarət ala bilərsiniz. Kənara çıxan hissələrə toxunmayın, yoxsa xəsarət ala bilərsiniz.*

Problemlərin həlli

1. Sənəd örtüyü bağlı halda skaner qurğusunu açın.



2. İlişən kağızı çıxarın.



Vacibdir:

Printerin içərisindəki ağ kabelə və ya yarım-şəffaf təbəqəyə toxunmayın. Yoxsa pis işləyə bilər.



3. Skaner qurğusunu bağlayın.

   Təhlükəsizlik üçün skaner qurğusu iki mərhələ ilə bağlanır.



Qeyd:
Skaner qurğusu aşağıda göstərilən mövqedən açıla bilməz. Açmazdan əvvəl onu tamamilə bağlayın.



İlişən Kağızın Arxa Qapaq-dan çıxarılması

1. arxa qapaq-nı çıxarın.



2. İlişən kağızı çıxarın.



3. İlişən kağızı arxa qapaq-dan çıxarın.



4. arxa qapaq-nı printerə daxil edin.

Kağız düzgün ötürülmür

Aşağıdakı bəndləri yoxlayın və ardından problemi həll etmək üçün lazımi tədbirləri görün.

- ❏ Printeri düz səthə yerləşdirin və tövsiyə olunan şəraitdə istifadə edin.
- ❏ Bu printerin dəstəklədiyi kağızları istifadə edin.
- ❏ Kağız istifadə xəbərdarlıqlarına əməl edin.
- ❏ Təyin olunan maksimum saydan artıq vərəq əlavə etməyin.Ağ kağızları kənar düzləndiricisindəki üçbucaq işarəsi ilə göstərilən xəttin yuxarısından artıq əlavə etməyin.
- ❏ Kağız ölçüsünün və kağız növü parametrlərinin printerə yüklənmiş faktiki kağız ölçüsü və kağız növünə uyğun olduğuna əmin olun.
- ❏ Ötürücü qoruyucusuna əşyalar yerləşdirməyin.

Əlaqədar məlumat

➡ 190 səhifəsində "Ətraf mühit spesifikasiyaları"
➡ 56 səhifəsində "Kağızın idarə edilməsi üzrə xəbərdarlıqlar"
➡ 57 səhifəsində "Müvafiq kağız növü və onun xüsusiyyətləri"
➡ 59 səhifəsində "Kağız Növünün Siyahısı"

Kağız ilişir

- ❏ Kağızı düzgün istiqamətdə daxil edin və kənar düzləndiricilərini kağızın kənarlarına doğru sürüşdürün.
- ❏ Bir neçə vərəq yükləmisinizsə, kağızları bir-bir yükləyin.

Əlaqədar məlumat

➡ 159 səhifəsində "İlişən kağızın çıxarılması"
➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

Kağız əyri ötürülür

Kağızı düzgün istiqamətdə daxil edin və kənar düzləndiricilərini kağızın kənarlarına doğru sürüşdürün.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

Eyni anda bir neçə vərəq ötürülür

❏ Hər dəfə bir vərəq yükləyin.

❏ Mexaniki 2-üzlü çap zamanı bir dəfəyə bir neçə vərəq ötürülürsə, əvvəlcə printerdəki kağızları götürün, ardından kağızı yenidən əlavə edin.

Kağızın yerləşdirilməməsi xətası baş verir

Kağızın kağızın arxa ötürücüsü-də yüklənməsinə baxmayaraq, kağız çıxışı səhvi baş verəndə, kağızın arxa ötürücüsü-in mərkəzində kağızı yenidən yükləyin.

Kağız Çap Zamanı Çıxır

Məktub başlığı kağızı yüklədiyiniz zaman (göndərənin və ya şirkətin adı kimi məlumatın əvvəlcədən başlıqda çap olunduğu kağız) **Letterhead** kağız növü parametri kimi seçin.

Enerji və idarəetmə paneli problemləri

Printer yanmır

❏ Elektrik kabelinin düzgün qoşulduğuna əmin olun.

❏ ⏻ düyməsini biraz daha basıb saxlayın.

Printer sönmür

⏻ düyməsini biraz daha basıb saxlayın. Yenə printeri söndürmək mümkün olmasa, elektrik kabelini çıxarın. Printer başlığının qurumaması üçün printeri yandırın və ⏻ düyməsini basaraq söndürün.

Enerji Avtomatik Sönür

❏ **Parametrlər** > **Əsas Parametrlər** > **Söndürmə parametr.** seçin, sonra isə **Qeyri-aktiv halda söndür** və **Kəsilmiş halda söndür** parametrlərini qeyri-aktivləşdirin.

❏ **Parametrlər** > **Əsas Parametrlər** seçin, sonra isə **Sönmə taymeri** Parametrini qeyri-aktivləşdirin.

Qeyd:
*Alış yerindən asılı olaraq məhsulunuzda **Söndürmə parametr.** və ya **Sönmə taymeri** funksiyası ola bilər.*

LCD ekranı sönür

Printer yatma rejimindədir. LCD ekranını əvvəlki vəziyyətinə qaytarmaq üçün idarəetmə panelindəki hər hansı düyməni basın.

Kompüterdən çap etmək olmur

Bağlantının (USB) Yoxlanılması

❏ USB kabelini printerə və kompüterə qoşun.

❏ USB hab istifadə edirsinizsə, printeri birbaşa kompüterə qoşmağa çalışın.

❏ Əgər USB kabeli tanınmırsa, portu və ya USB kabelini dəyişin.

❏ Əgər printer USB bağlantısından istifadə edərək çap edə bilmirsə, aşağıdakılara əməl edin.

USB kabelini kompüterdən ayırın. Kompüterdə göstərilən printer işarəsinə sağla klikləyin və sonra **Cihazı Çıxar** seçin. Sonra, USB kabelini kompüterə qoşun və test çapını sınayın.

Kompüterə qoşulma üsulunu dəyişmək üçün bu təlimat kitabçasındakı addımlara əməl edərək USB bağlantısını sıfırlayın. Təfərrüatlar üçün aşağıda əlaqəli məlumat keçidinə baxın.



Əlaqədar məlumat

➡ 51 səhifəsində "Bağlantı Metodunun Kompüterə dəyişdirilməsi"

Bağlantının Yoxlanması (Şəbəkə)

❏ Simsiz yönləndirici və ya provayderinizi dəyişmisinizsə, printer üçün yenidən şəbəkə parametrlərini qurmağa cəhd edin. Kompüteri və ya ağıllı cihazı printer ilə eyni SSID-ə qoşun.

- ❏ Şəbəkə qoşmaq istədiyiniz cihazları söndürün. Təxminən 10 saniyə gözləyin və sonra cihazları aşağıdakı ardıcıllıqla yandırın; simsiz yönləndirici, kompüter və ya ağıllı cihaz və sonra printer. Radio dalğa rabitəsinə kömək etmək üçün printeri, kompüteri və ya ağıllı cihazı simsiz yönləndiriciyə yaxınlaşdırın və sonra şəbəkə parametrlərini yenidən qurmağa cəhd edin.
- ❏ Şəbəkə bağlantısı hesabatını çap edin. Təfərrüatlar üçün aşağıda əlaqəli məlumat keçidinə baxın. Əgər hesabat şəbəkə bağlantısının baş tutumadığını göstərirsə, şəbəkə bağlantısı hesabatını yoxlayın və çap edilmiş həll yollarına əməl edin.
- ❏ Əgər printerə təyin olunmuş IP ünvanı 169.254.XXX.XXX olarsa və alt-şəbəkə maskası 255.255.0.0 olarsa, IP ünvanı düzgün təyin olunmaya bilər. Simsiz yönləndiricini yenidən başladın və ya printer üçün şəbəkə parametrlərini sıfırlayın. Əgər bu, problemi həll etməzsə, simsiz yönləndirici üçün sənədlərə baxın.
- ❏ Kompüterinizin şəbəkə parametrlərinin düzgün olduğuna əmin olmaq üçün kompüterinizdən istənilən vebsayta daxil olmağa çalışın. Əgər hər hansı vebsayta daxil ola bilmirsinizsə, kompüterdə problem var. Kompüterin şəbəkə bağlantısını yoxlayın.

Əlaqədar məlumat

➡ 26 səhifəsində "Kompüterə qoşulma"

➡ 44 səhifəsində "Şəbəkə bağlantısı hesabatının çapı"

Proqram Təminatı və Məlumatların Yoxlanması

- ❏ Orijinal Epson printer drayverinin quraşdırıldığından əmin olun.Orijinal Epson printer drayveri quraşdırılmazsa, mövcud funksiyalar məhdudlaşdırılır.Biz orijinal Epson printer drayverindan istifadə etməyi tövsiyə edirik.Ətraflı məlumat üçün aşağıda müvafiq məlumat keçidinə baxın.
- ❏ Böyük ölçülü şəkil çap edirsinizsə, kompüterin yaddaşı bitmiş ola bilər.Şəkli kiçik rezolyusiya və ya kiçik ölçü ilə çap edin.

Əlaqədar məlumat

➡ 165 səhifəsində "Orijinal Epson Printeri Drayverlərinin Yoxlanılması"

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Orijinal Epson Printeri Drayverlərinin Yoxlanılması

Aşağıdakı metodlardan birini istifadə etməklə orijinal Epson printer drayverinin kompüterinizdə quraşdırılıb-quraşdırılmadığını yoxlaya bilərsiniz.

Windows

İdarəetmə Paneli > **Cihaz və printerlərə bax** (**Printerlər**, **Printerlər və Fakslar**) seçin və ardından çap server xüsusiyyətləri pəncərəsini açmaq üçün aşağıdakılara əməl edin.

- ❏ Windows 10/Windows 8.1/Windows 8/Windows 7

  Printer piktoqramına klikləyin və pəncərənin yuxarısında **Çap serveri xüsusiyyətləri** klikləyin.
- ❏ Windows Vista

  Printerlər qovluğunun üzərində mausun sağ düyməsi ilə klik edin və daha sonra **Administrator kimi icra et** > **Server Xüsusiyyətləri** klikləyin.

❏ Windows XP

Fayl menyusundan **Server Xüsusiyyətləri** seçimini edin.

Drayver tab-vərəqini klikləyin.Printerinizin adı siyahıda çıxarsa, orijinal Epson printer drayveri kompüterinizdə quraşdırılıb.



Mac OS

menyusundan **Sistem Seçimləri** > **Printerlər və Skannerlər** (yaxud **Çap və Skanlama**, **Çap və Faks**) seçin, sonra printer seçin.**Seçimlər və Təchizatlar** klikləyin və əgər **Seçimlər** tab-vərəqəsi və **Proqram** tab-vərəqəsi pəncərədə çıxarsa, orijinal Epson printer drayveri kompüterinizdə quraşdırılıb.



Əlaqədar məlumat

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Kompüterdən printerin vəziyyətinin yoxlanması (Windows)

Printer diskinin **Texniki xidmət** tab-vərəqəsində **Çap növbəsi** klikləyin və sonra aşağıdakını yoxlayın.



❏ Fasilə verilmiş çap proseslərinin olub-olmamasını yoxlayın.

Əgər lazımsız məlumatlar qalarsa, **Printer** menyusundan **Bütün sənədləri ləğv et** seçin.

❏ Printerin oflayn olması və ya gözləməsini yoxlayın.

Printer oflayn olarsa və ya gözləyirsə, **Printer** menyusundan oflayn və ya gözləmə parametrini silin.



❏ **Printer** menyusunda printerin standart printer kimi seçilməsinə əmin olun (menyu elementi seçilmiş olmalıdır).

Əgər printer standart printer kimi seçilməyibsə, onu standart printer kimi seçin. Əgər **İdarəetmə Paneli** > **Cihazlara və printerlərə bax** (**Printerlər**, **Printerlər və Fakslar**-da) çoxsaylı nişanlar varsa, nişanı seçmək üçün aşağıdakına baxın.

Nümunə)

USB bağlantısı: EPSON XXXX Seriyaları

Şəbəkə bağlantısı: EPSON XXXX Seriyaları (şəbəkə)

Əgər printer drayverini bir neçə dəfə quraşdırsanız, printer drayverinin surətləri yaradıla bilər. "EPSON XXXX Seriyaları (surət 1)" kimi surətlər yaradılarsa, surəti çıxarılan drayver nişanına sağla klikləyin, sonra **Cihazı Çıxart** seçiminə klikləyin.

❏ Printer portunun **Printer** menyusunda **Xüsusiyyət** > **Port** menyusunda düzgün aşağıdakı kimi seçildiyinə əmin olun.

USB bağlantısı üçün "**USBXXX**" və ya şəbəkə bağlantısı üçün "**EpsonNet Print Port**" seçin.

Kompüterdən Printerin Statusunun Yoxlanılması (Mac OS)

Printerin vəziyyətinin **Pauza**-da olmadığından əmin olun.

Sistem seçimlərini menyu > **Printerlər və Skanerlər**-dən (və ya **Çap et və skanla**, **Çap et və Faksla**) seçin və ardından printeri iki dəfə klikləyin.Printerə pauza verilibsə, **Bərpa edin** (və ya **Printeri bərpa edin**).

Şəbəkə Parametrlərini Qura Bilmədikdə

❏ Şəbəkə qoşmaq istədiyiniz cihazları söndürün. Təxminən 10 saniyə gözləyin və sonra cihazları aşağıdakı ardıcıllıqla yandırın; simsiz yönləndirici, kompüter və ya ağıllı cihaz və sonra printer. Radio dalğa rabitəsinə kömək etmək üçün printeri, kompüteri və ya ağıllı cihazı simsiz yönləndiriciyə yaxınlaşdırın və sonra şəbəkə parametrlərini yenidən qurmağa cəhd edin.

❏ **Parametrlər** > **Şəbəkə Parametrləri** > **Bağlantının yoxlanması** seçin və şəbəkə bağlantısı hesabatını çap edin. Xəta baş veribsə, şəbəkə bağlantısı hesabatını yoxlayın və sonra çap edilmiş həll yollarına əməl edin.

Əlaqədar məlumat

➡ 44 səhifəsində "Şəbəkə bağlantısı hesabatının çapı"

➡ 45 səhifəsində "Şəbəkə Bağlantısı Hesabatında Mesajlar və Həllər"

Hətta Şəbəkə Parametrlərində Problemlər Olmasa Belə, Cihazlardan Qoşmaq Mümkün Deyil

Hətta şəbəkə bağlantısı hesabatı heç bir problem göstərmirsə, kompüterdən və ya ağıllı cihazdan printerə qoşula bilmirsinizsə, aşağıdakılara baxın.

❏ Eyni zamanda çoxsaylı simsiz yönləndiricidən istifadə edirsinizsə, simsiz yönləndiricinin parametrlərindən asılı olaraq, kompüterdən və ya ağıllı cihazdan printeri istifadə edə bilməyə bilərsiniz. Kompüteri və ya ağıllı cihazı printer kimi eyni simsiz yönləndiriciyə qoşun.

Əgər aktivləşdirilibsə, ağıllı cihazda titrləmə funksiyasını qeyri-aktiv edin.



Problemlərin həlli

❏ Simsiz yönləndirici çoxsaylı SSID-lərə sahib olduqda və cihazlar eyni simsiz yönləndiricidə müxtəlif SSID-lərə qoşulu olduqda simsiz yönləndiriciyə qoşula bilməyə bilərsiniz. Kompüteri və ya ağıllı cihazı printer ilə eyni SSID-ə qoşun.



❏ Həm IEEE 802.11a, həm də IEEE 802.11g ilə uyğun olan simsiz yönləndirici 2,4 GHz və 5 GHz-lik SSID-lərə malikdir. Əgər kompüteri və ya ağıllı cihazı 5 GHz SSID-ə qoşsanız, printerə qoşula bilməzsiniz, çünki printer yalnız 2,4 GHz üzərindən kommunikasiyanı dəstəkləyir. Kompüteri və ya ağıllı cihazı printer ilə eyni SSID-ə qoşun.



❏ Əksər simsiz yönləndiricilər qoşulu cihazlar arasında rabitəni bloklayan məxfilik ayırıcısı funksiyasına malikdir. Hətta eyni şəbəkəyə qoşulu olduqda belə printer və kompüter və ya ağıllı cihaz arasında rabitə yarada bilmirsinizsə, simsiz yönləndiricidə məxfilik ayırıcısını qeyri-aktiv edin. Ətraflı məlumat üçün simsiz yönləndirici ilə verilən təlimata baxın.



Əlaqədar məlumat

➡ 170 səhifəsində "Printerə qoşulmuş SSID-in yoxlanılması"

➡ 170 səhifəsində "Kompüter üçün SSID-in yoxlanılması"

Printerə qoşulmuş SSID-in yoxlanılması

Parametrlər > **Şəbəkə Parametrləri** > **Şəbəkə vəziyyəti** seçin.Hər menyudan Wi-Fi və Wi-Fi Direct (Sadə AP) üçün SSID-ni yoxlaya bilərsiniz.

Kompüter üçün SSID-in yoxlanılması

Windows

İş masasında tapşırıq rəfində kliklәyin. Göstərilən siyahıdan qoşulmuş SSID-nin adını yoxlayın.

Mac OS

Kompüter ekranının yuxarısında Wi-Fi işarəsinə klikləyin. SSID-lərin siyahısı göstərilir və qoşulmuş SSID seçim işarəsi ilə göstərilir.

Mac-da USB 3.0 Cihazlarından İstifadə Zamanı Simsiz LAN (Wi-Fi) Bağlantıları Qeyri-stabil Olur

Mac-da cihazı USB 3.0 portuna qoşduğunuz zaman radio tezliyi interferensiyası baş verə bilər. Əgər simsiz LAN-a (Wi-Fi) qoşula bilmirsinizsə və ya əməliyyatlar qeyri-stabil olursa, aşağıdakıları sınaqdan keçirin.

❏ USB 3.0 portuna qoşulmuş cihazı kompüterdən uzaqda yerləşdirin.

❏ Əgər printer 5 GHz tezlik diapazonunu dəstəkləyirsə, 5 GHz diapazonu üçün SSID-yə qoşulun.

Əlaqədar məlumat

➡ 188 səhifəsində "Wi-Fi Xüsusiyyətləri"

iPhone, iPad, yaxud iPod touch-dan Çap etmək mümkün deyil

❏ iPhone, iPad və ya iPod touch-ı printer kimi eyni şəbəkəyə (SSID) qoşun.

❏ Aşağıdakı menyularda **Kağız konfiqurasiyası** bölməsini aktiv edin.

Parametrlər > **Printer parametrləri** > **Kağız mənbəyi param.** > **Kağız konfiqurasiyası**

❏ AirPrint parametrini Web Config proqramında aktiv edin.

Əlaqədar məlumat

➡ 27 səhifəsində "Ağıllı Cihaza qoşulma"

➡ 142 səhifəsində "Printer Əməliyyatlarını Konfiqurasiya etmək üçün Proqram (Web Config)"

Çap olunmuş materialda problemlər

Çap Materialı Bulanıb və ya Rəng İtib

Printeri uzun müddət istifadə etməmisinizsə, printer başlığının gözləri tutulmuş ola bilər və mürəkkəb püskürdülməyə bilər. Başlıq gözlərini yoxlayın, gözlər tutulubsa, başlığı təmizləyin.

Əlaqədar məlumat

➡ 130 səhifəsində "Printer başlığının yoxlanılması və təmizlənməsi"

Zolaqlar və ya Gözlənilməyən Rənglər Meydana Gəlir



Printer başlığının gözləri tutulmuş ola bilər. Printer başlığı ucluqlarının tutulub-tutulmamasını yoxlamaq üçün ucluqları yoxlayın. Printer başlığı ucluqları tutulubsa, başlığı təmizləyin.

Əlaqədar məlumat

➡ 130 səhifəsində "Printer başlığının yoxlanılması və təmizlənməsi"

Təxminən 2.5 sm intervalda Rəngli Zolaqlar meydana gəlir



❏ Printerə əlavə edilmiş kağız növünə uyğun olaraq müvafiq kağız növü parametrini seçin.

❏ Şrift başlığını **Üfüqi Bərabərləşdirmə** funksiyası ilə düzləşdirin.

❏ Ağ kağızda çap edən zaman, daha yüksək keyfiyyət parametrindən istifadə etməklə çap edin.

Əlaqədar məlumat

➡ 59 səhifəsində "Kağız Növünün Siyahısı"

➡ 132 səhifəsində "Çap başlığının düzləndirilməsi"

Bulanıq Çaplar, Vertikal Zolaqlar və ya Yanlış düzləndirmə

Şrift başlığını **Şaquli səmtləşdirilmə** funksiyası ilə düzləşdirin.

Əlaqədar məlumat

➡ 132 səhifəsində "Çap başlığının düzləndirilməsi"

Printer başlığını düzəltdikdən sonra da çap keyfiyyəti yaxşılaşmır

İki-istiqamətli (və ya yüksək sürətli) çap edərkən, printer başlığı hər iki istiqamətə hərəkət edərək çap edir və vertikal xətlər sürüşə bilər.Çap keyfiyyəti yaxşılaşmasa, iki-istiqamətli (və ya yüksək sürətli) çap funksiyasını qeyri-aktiv edin.Bu funksiyanı qeyri-aktiv etdikdə çap sürəti azala bilər.

❑ Windows

Yüksək sürətli parametrini printer drayverinin **Daha çox seçimlər** tab-vərəqində silin.

❑ Mac OS

menyusundan **Sistem Seçimləri** > **Printerlər və Skannerlər** (yaxud **Çap və Skanlama**, **Çap və Faks**) seçin, sonra printer seçin.**Seçimlər və təchizatlar** > **Seçimlər** (və ya **Drayver** klikləyin).**Off** seçin (**High Speed Printing** parametri).

Çap keyfiyyəti aşağıdır

Bulanıqlıq, rəng itməsi, solğunluq və sürüşmə kimi keyfiyyətsiz çap olarsa, bunları yoxlayın.

Printer yoxlanır

❑ Başlıq gözlərini yoxlayın, gözlər tutulubsa, başlığı təmizləyin.

❑ Printer başlığını düzləndirin.

Kağız yoxlanır

❑ Bu printerin dəstəklədiyi kağızları istifadə edin.

❑ Nəm, zədələnmiş və ya köhnəlmiş kağıza çap etməyin.

❑ Kağız bükülübsə və ya zərf şişibsə, onu düzləşdirin.

❏ Çapdan dərhal sonra kağızları dərhal üst-üstə yığmayın.

❏ Çap olunan materialları qovluğa qoymazdan yaxud göstərməzdən əvvəl tamamən qurudun. Çap olunan materialları qurudarkən birbaşa günəş şüasına tutmayın, fen istifadə etməyin və çap olunan üzünə toxunmayın.

❏ Şəkilləri və fotoları çap edərkən Epson ağ kağız əvəzinə orijinal Epson kağızı istifadə etməyi tövsiyə edir. Orijinal Epson kağızının çap oluna bilən üzünə çap edin.

Çap parametrləri yoxlanır

❏ Printerə əlavə edilmiş kağız növünə uyğun olaraq müvafiq kağız növü parametrini seçin.

❏ Daha yüksək keyfiyyət parametri seçərək çap edin.

Mürəkkəb kartricinin yoxlanması

❏ Epson mürəkkəb kartricini paketin üzərində yazılan tarixədək istifadə etməyi tövsiyə edir.

❏ Ən yaxşı nəticələri əldə etmək üçün mürəkkəb kartricini paketi açdıqdan sonra altı ay ərzində istifadə edib bitirin.

❏ Orijinal Epson kartriclərindən istifadə etməyə çalışın. Bu məhsul orijinal Epson kartriclərinin istifadəsinə əsasən rəngləri tənzimləyir. Orijinal olmayan kartriclərin istifadəsi çap keyfiyyətini azalda bilər.

Əlaqədar məlumat

➡ 130 səhifəsində "Printer başlığının yoxlanılması və təmizlənməsi"

➡ 132 səhifəsində "Çap başlığının düzləndirilməsi"

➡ 57 səhifəsində "Müvafiq kağız növü və onun xüsusiyyətləri"

➡ 59 səhifəsində "Kağız Növünün Siyahısı"

➡ 56 səhifəsində "Kağızın idarə edilməsi üzrə xəbərdarlıqlar"

Kağız bulaşır və ya sürtülür

❏ Bərabər intervallarla zolaqlar göründükdə və ya kağızın aşağısı bulaşdıqda, kağızı düzgün istiqamətdə yükləyin və kənar düzləndiriciləri kağızın kənarlarına sürüşdürün.



❏ Əgər şaquli zolaqlar görünərsə, yaxud kağız bulaşarsa, kağız yolunu təmizləyin.

- ❏ Kağızın büzüşüb büzüşmədiyini yoxlamaq üçün onu hamar səthə yerləşdirin. Əgər büzüşübsə, onu hamarlayın.
- ❏ Mexaniki 2-üzlü çap zamanı kağızı əlavə etməzdən əvvəl mürəkkəbin tamamən quru olduğuna əmin olun.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

➡ 132 səhifəsində "Kağız yolunun mürəkkəb ləkələrindən təmizlənməsi"

Avtomatik 2-tərəfli çap zamanı kağız bulaşır

2-tərəfli çap funksiyasından istifadə edərkən və təsvir və qrafiklər kimi yüksək sıxlıqlı məlumatları çap edərkən çap sıxlığını daha aşağı, quruma müddətini isə daha uzun təyin edin.

Əlaqədar məlumat

➡ 138 səhifəsində "Printer parametrləri üçün Menyu Seçimləri"

Çap olunan fotolar yapışqandır

Siz foto kağızının səhv tərəfində çap etmiş ola bilərsiniz. Onun çap oluna bilən üzündə çap etdiyinizə əmin olun.

Şəkil kağızının yanlış tərəfində çap edən zaman kağız yolunu təmizləməlisiniz.

Əlaqədar məlumat

➡ 132 səhifəsində "Kağız yolunun mürəkkəb ləkələrindən təmizlənməsi"

Şəkillər və ya fotolar çap edərkən qəribə ranglər çıxır

Windows printer drayverindən çap edərkən Epson avtomatik foto tənzimləmə parametri kağız növündən asılı olaraq standart qaydada tətbiq edilir. Parametri dəyişməyə cəhd edin.

Daha çox seçimlər tabında **Fərdi** seçimini **Rəng Korreksiyası** bölməsində seçin və sonra **Təkmil** klikləyin. **Səhnənin korreksiyası** parametrini **AvtoDüzəliş** bölməsindən başqa seçim ilə əvəz edin. Parametri dəyişmək alınmasa, **Şəklin təkm.**-dən başqa rəng düzəliş metodunu **Rəng idarəetməsi** bölməsindən tətbiq edin.

Əlaqədar məlumat

➡ 86 səhifəsində "Ranglərin tənzimlənməsi"

Ranglər Displeydə Gördüyünüzdən Fərqlənir

- ❏ Kompüter ekranı kimi displey cihazlarının öz displey xüsusiyyətləri var. Displey balanslaşdırılmayıbsa, şəkil düzgün parlaqlıq və ranglər ilə göstərilmir. Cihazın xüsusiyyətlərini tənzimləyin.

- ❏ Displeyin işıqlandırılması şəklin displeydə necə görünməsinə təsir edir. Birbaşa günəş şüalarından yayının və şəkli müvafiq işıqlandırılmanın təmin edildiyi yerdə təsdiqləyin.
- ❏ Rənglər ağıllı telefonlar və ya yüksək əksetdirməli displeyləri olan planşetlər kimi ağıllı cihazlarda gördüyünüzdən fərqlənə bilər.
- ❏ Displeydəki rənglər kağızdakılar ilə tamamilə eyni deyil, çünki displey cihazı və printer müxtəlif rəng yaratma prosesinə malikdir.

Haşiyələrsiz Çap etmək olmur

Çap parametrlərində parametri sərhədsiz edin. Əgər sərhədsiz çapı dəstəkləməyən kağız növü seçsəniz, **Haşiyəsiz** seçə bilməzsiniz. Sərhədsiz çapı dəstəkləyən kağız növünü seçin.

Əlaqədar məlumat

➡ 94 səhifəsində "Surəti Çıxarılan Şəkillərin Kağız və Çap Parametrləri üçün Menyu Seçimləri"
➡ 69 səhifəsində "Çapın Əsasları — Windows"
➡ 71 səhifəsində "Çap Əsasları — Mac OS"

Sərhədsiz çap zamanı təsvirin kənarları kəsilir

Sərhədsiz çap zamanı şəkil azca böyüdülür və kənara çıxan sahə kəsilir.Daha kiçik böyütmə parametri seçin.

- ❏ İdarəetmə paneli

  Genişləndirmə parametrini dəyişdirin.
- ❏ Windows

  Printer drayverinin **Parametrlər** tab-vərəqəsində **Haşiyəsiz** seçim xanasının yanında **Əsas** klikləyin.
- ❏ Mac OS

  Genişlənmə parametrini çap dialoqunun **Çap parametrləri** menyusundan dəyişdirin.

Əlaqədar məlumat

➡ 94 səhifəsində "Surəti Çıxarılan Şəkillərin Kağız və Çap Parametrləri üçün Menyu Seçimləri"

Çap olunmuş materialın vəziyyəti, ölçüsü və ya haşiyələri səhvdir

- ❏ Kağızı düzgün istiqamətdə daxil edin və kənar düzləndiricilərini kağızın kənarlarına doğru sürüşdürün.
- ❏ Orijinalları skaner şüşəsi-nə yerləşdirərkən orijinalın küncünü skaner şüşəsi çərçivəsindəki simvol ilə göstərilən künclə düzləndirin. Surətin kənarları çıxmırsa, orijinalı azca küncdən uzaqlaşdırın.

❏ Orijinalları skaner şüşəsi-a yerləşdirdikdə, quru, yumşaq, təmiz parçadan istifadə etməklə, skaner şüşəsi və sənəd qapağını təmizləyin. Şüşənin üstündə toz, yaxud ləkə varsa, köçürmə sahəsi toz, yaxud ləkəyə görə arta bilər və nəticədə çap vəziyyəti dəyişə və ya kiçik şəkillər əmələ gələ bilər.



❏ Düzgün kağız ölçüsü parametrini seçin.

❏ Proqramda kənar parametrini elə tənzimləyin ki, çap olunan sahəyə düşsün.

Əlaqədar məlumat

➡ 60 səhifəsində "Kağızın Arxa Ötürücüsü bölməsinə kağızın yüklənməsi"

➡ 63 səhifəsində "Orijinalların Skaner Şüşəsi-a yerləşdirilməsi"

➡ 133 səhifəsində "Skaner Şüşəsi-nin təmizlənməsi"

➡ 186 səhifəsində "Çap oluna bilən sahə"

Çap olunmuş simvollar səhv yaxud pozulmuş formada çıxır

❏ USB kabelini printerə və kompüterə qoşun.

❏ Pauza verilmiş çap işlərini ləğv edin.

❏ Çap zamanı kompüteri mexaniki qaydada **Dərin yuxu** rejiminə yaxud **Yatma** rejiminə keçirməyin.Növbəti dəfə kompüteri işə saldıqda korlanmış mətn olan səhifələr yenidən çap oluna bilər.

❏ Əvvəllər istifadə etdiyiniz printer drayverindən istifadə edirsinizsə, çap edilmiş simvollar pozula bilər.İstifadə etdiyiniz printer drayverinin bu printer üçün olduğundan əmin olun.Printer drayveri pəncərəsinin yuxarısında printerin adını yoxlayın.

Çap olunan şəkil tərsinədir

Printer drayveri və ya proqramda şəklin əks olunması parametrlərini silin.

❏ Windows

Güzgü təsviri parametrini printer drayverinin **Daha çox seçimlər** tab-vərəqində silin.

❏ Mac OS

Mirror Image parametrini çap dialoqunun **Çap parametrləri** menyusundan silin.

Çaplarda Mozaik Naxışlar

Şəkillər və ya fotoları çap edərkən yüksək rezolyusiyalı məlumatlardan istifadə edərək çap edin. Vebsaytlardakı şəkillər adətən yaxşı görünsə də, rezolyusiyası aşağı olur və çap keyfiyyəti azala bilər.

Surəti çıxarılan şəkildə qeyri-bərabər rənglər, mürəkkəb ləkələri, nöqtələr və düz xətlər çıxır

❏ Kağız yolunu təmizləyin.

❏ skaner şüşəsi-ni təmizləyin.

❏ Orijinalları skaner şüşəsi-nin üzərinə yerləşdirdikdə, orijinalı və ya sənəd qapağını çox möhkəm basmayın.

❏ Kağız bulaşarsa, surət çıxarma sıxlığını azaldın.

Əlaqədar məlumat

➡ 132 səhifəsində "Kağız yolunun mürəkkəb ləkələrindən təmizlənməsi"

➡ 133 səhifəsində "Skaner Şüşəsi-nin təmizlənməsi"

➡ 95 səhifəsində "Surətçıxarma üçün Menyu Seçimləri"

Kopyalanmış şəkildə dalğalı cizgilər görünür

Kiçiltmə və böyütmə parametrini dəyişin və ya orijinalın yerləşmə bucağını azca dəyişin.

Əlaqədar məlumat

➡ 95 səhifəsində "Surətçıxarma üçün Menyu Seçimləri"

Surəti çıxarılmış şəkildə orijinalın arxa tərəfinin şəkli görünür

❏ Orijinal nazikdirsə, orijinalı skaner şüşəsi üzərinə yerləşdirin və ardından onun üzərinə qara kağız yerləşdirin.

❏ İdarəetmə panelində surət sıxlıq parametrini aşağı salın.

Əlaqədar məlumat

➡ 95 səhifəsində "Surətçıxarma üçün Menyu Seçimləri"

Çap edilmiş şəkil problemi həll oluna bilmir

Bütün həlləri sınamısınızsa və problem həll olmayıbsa, printer drayverini silin və yenidən quraşdırın.

Əlaqədar məlumat

➡ 154 səhifəsində "Proqramların silinməsi"

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Digər çap problemləri

Çap prosesi çox asta gedir

❏ Lazımsız proqramları bağlayın.

❏ Keyfiyyət parametrini aşağı salın. Yüksək keyfiyyətli çap sürətini azaldır.

❏ İki-istiqamətli (və ya yüksək sürətli) parametri aktivləşdirin. Bu parametr aktivləşdikdə, hər iki istiqamətə hərəkət edərkən printer başlığı çap edir və çap sürəti artır.

❏ Windows

Yüksək sürətli parametrini printer drayverinin **Daha çox seçimlər** tab-vərəqəsində seçin.

❏ Mac OS

Sistem seçimlərini menyusu > **Printerlər və Skanerlər**-dən (və ya **Çap et və skanla**, **Çap et və Faksla**) seçin, sonra printeri seçin. **Seçimlər və təchizatlar** > **Seçimlər** (və ya **Drayver** klikləyin). **On** seçin (**High Speed Printing** parametri).

❏ Səssiz rejimini söndürün. Bu xüsusiyyət çap sürətini azaldır.

❏ İdarəetmə paneli

Əsas ekrandan seçin və sonra **Səssiz rejim** rejimini qeyri-aktiv edin.

❏ Windows

Səssiz rejim parametri kimi printer drayverinin **Əsas** tab-vərəqində **Qeyri-aktiv** seçin.

❏ Mac OS

Sistem seçimlərini menyusu > **Printerlər və Skanerlər**-dən (və ya **Çap et və skanla**, **Çap et və Faksla**) seçin, sonra printeri seçin. **Seçimlər və təchizatlar** > **Seçimlər** (və ya **Drayver** klikləyin). **Off** seçin (**Səssiz rejim** parametri).

Davamlı şəkildə işlədən zaman çap və ya surətiçıxarmanın sürəti zəifləyir

Printer mexanizminin qızmaması və zərər dəyməməsi üçün çap və ya surətçıxarmanın sürəti zəifləyir. Lakin siz işinizə davam edə bilərsiniz. Normal sürətə qayıtmaq üçün printerin işinə ən az 30 dəqiqə fasilə verin. Söndürüldükdə, sürət normala qayıtmayacaq.

Mac OS X v10.6.8 proqramının icra olunduğu kompüterdə çapı ləğv etmək olmur

Əgər kompüterinizin çapı dayandırmasını istəyirsinizsə, aşağıdakı parametrləri qurun.

Web Config proqramını icra edin və **AirPrint Quraşdırması** menyusunda **Ən Prioritetli Protokol** kimi **Port9100** seçin. **Sistem seçimlərini** menyu > **Printerlər və Skanerlər**-dən (və ya **Çap et və skanla**, **Çap et və Faksla**) seçin, printeri silin və ardından printeri yenidən əlavə edin.

Skanlamanı başlatmaq olmur

- ❏ USB kabelini printerə və kompüterə qoşun. USB hab istifadə edirsinizsə, printeri birbaşa kompüterə qoşmağa çalışın.
- ❏ Şəbəkə vasitəsilə yüksək əksetmə qabiliyyəti ilə skanlasanız, ünsiyyət səhvi yarana bilər. Əksetmə qabiliyyətini azaldın.
- ❏ Epson Scan 2-da düzgün printerin (skanerin) seçildiyinə əmin olun.

Windows istifadə edən zaman printerin tanınıb-tanınmadığını yoxlayın

Windows sistemində printerin (skaner) **Skaner və Kamera** bölməsində göstərildiyinə əmin olun. Printer (skaner) "EPSON XXXXX (printer adı)" kimi göstərilməlidir. Printer (skaner) göstərilməyibsə, Epson Scan 2 silin və yenidən quraşdırın. **Skaner və Kamera** bölməsinə daxil olmaq üçün aşağıdakılara baxın.

- ❏ Windows 10

  Başlat düyməsinə klikləyin və sonra **Windows Sistemi** > **İdarəetmə Paneli** seçin, axtarış şarmına "Skaner və Kamera" daxil edin, **Skanerlər və kameralara bax** klikləyin və sonra printerin göstərilib-göstərilmədiyini yoxlayın.
- ❏ Windows 8.1/Windows 8

  Masaüstü > **Parametrlər** > **İdarəetmə Paneli** seçin, axtarış bölməsinə "Skaner və Kamera" daxil edin, **Skaner və Kameranı Göstər** klikləyin və ardından printerin göstərildiyini yoxlayın.
- ❏ Windows 7

  Başlat düyməsini klikləyin və **İdarəetmə Paneli** seçin, axtarış bölməsinə "Skaner və Kamera" daxil edin, **Skanerlər və kameralara bax** klikləyin və ardından printerin göstərildiyini yoxlayın.
- ❏ Windows Vista

  Başlat düyməsini klikləyin, **İdarəetmə Paneli** > **Avadanlıq və Səs** > **Skanerlər və Kameralar** seçin və ardından printerin göstərildiyini yoxlayın.
- ❏ Windows XP

  Başlat düyməsini klikləyin, **İdarəetmə Paneli** > **Printerlər və Digər Avadanlıqlar** > **Skanerlər və Kameralar** seçin və ardından printerin göstərildiyini yoxlayın.

Əlaqədar məlumat

➡ 154 səhifəsində "Proqramların silinməsi"

➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

İdarəetmə panelindən istifadə edərkən skanlamanı işə salmaq olmur

- ❏ Epson Scan 2 və Epson Event Manager-inin düzgün quraşdırıldığına əmin olun.
- ❏ Epson Event Manager-də təyin olunan skanlama parametrini yoxlayın.

Skanlanmış şəkil problemləri

Skaner şüşəsindən skanlayarkən qeyri-bərabər rənglər, çirk, ləkələr və s. yaranır

❏ Skaner şüşəsini təmizləyin.

❏ Əslə yapışan hər hansı çirki və ya tullantını təmizləyin.

❏ Əslin və ya sənədin qapağının üzərinə həddən çox güc tətbiq etməyin. Həddən çox güc tətbiq etsəniz, bulanıqlıq, çirk və ləkələr yarana bilər.

Əlaqədar məlumat

➡ 133 səhifəsində "Skaner Şüşəsi-nin təmizlənməsi"

Şəkil Keyfiyyəti Aşağıdır

❏ Skanlamaq istədiyiniz orijinala uyğun olaraq **Rejim** rejimini Epson Scan 2-da təyin edin. Sənədlər üçün **Sənəd rejimi** bölməsindəki və şəkillər üçün **Foto rejimi** bölməsindəki parametrlərdən istifadə edərək skanlayın.

❏ Epson Scan 2-da şəkli **Təkmil parametrlər** tabındakı elementlərdən istifadə edərək tənzimləyin və sonra skanlayın.

❏ Əksetdirmə aşağıdırsa, əksetdirməni artırın və sonra skanlayın.

Əlaqədar məlumat

➡ 105 səhifəsində "Epson Scan 2 ilə skanlama"

Şəkillərin fonunda ofset görünür

Orijinalın arxasındakı şəkillər skanlanmış şəkildə görünə bilər.

❏ Epson Scan 2-da **Təkmil parametrlər** tab-vərəqini seçin və sonra **Parlaqlıq** təyin edin.

Bu funksiya **Əsas parametrlər** tabındakı parametrlər > **Təsvirin növü** və ya **Təkmil parametrlər** tabındakı digər parametrlərdən asılı olaraq əlçatan olmaya bilər.

❏ **Sənəd rejimi** bölməsində Epson Scan 2-da **Təkmil parametrlər** tab-vərəqini seçin və sonra **Təsvir seçimi** > **Mətnin təkmilləşdirilməsi** seçin.

❏ Skaner şüşəsindən skanlayan zaman qara kağızı və ya altlığı orijinalın üzərinə yerləşdirin.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

Mətn bulanıq çıxır

❏ **Sənəd rejimi** bölməsində Epson Scan 2-da **Təkmil parametrlər** tab-vərəqini seçin və sonra **Təsvir seçimi** > **Mətnin təkmilləşdirilməsi** seçin.

❏ **Sənəd rejimi** seçin (**Rejim** parametri kimi Epson Scan 2-da). **Sənəd rejimi**-da sənədlər üçün parametrlərdən istifadə edərək skanlayın.

❏ **Sənəd rejimi** bölməsində (Epson Scan 2-da) **Təsvirin növü Əsas parametrlər** tab-vərəqində **Ağ & qara** təyin edildikdə, **Hədd qiyməti** həddini **Təkmil parametrlər** tab-vərəqində tənzimləyin. **Hədd qiyməti** artırdıqda, qara rəng sahəsi böyüyür.

❏ Əksetdirmə aşağıdırsa, əksetdirməni artırın və sonra skanlayın.

Əlaqədar məlumat

➡ 106 səhifəsində "Sənədlərin Skanlanması (Sənəd rejimi)"

Xara naxışları (tora bənzər kölgələr) yaranır

Əsil çap edilmiş sənəddirsə, skanlanmış təsvirdə xara naxışları (tora bənzər kölgələr) yarana bilər.

❏ Epson Scan 2-də **Təkmil parametrlər** tab-vərəqəsində **Deskrininq** təyin edin.

❏ Rezolyusiyanı dəyişin, sonra təkrar skanlayın.

Əlaqədar məlumat

➡ 105 səhifəsində "Epson Scan 2 ilə skanlama"

Skaner Şüşəsində Düzgün Sahəni Skanlamaq Mümkün Deyil

❏ Orijinalın düzləndirmə işarələrinə qarşı düzgün yerləşdirildiyinə əmin olun.

❏ Skanlanan şəklin kənarları çıxmırsa, orijinalı skaner şüşəsinin kənarından azca uzaqlaşdırın.

❏ Çoxsaylı orijinalları skaner şüşəsinə yerləşdirən zaman, orijinallar arasında ən azı 20 mm (0,79 düym) boşluq olduğuna əmin olun.

❏ İdarə panelindən skanlayan və avtomatik skan sahəsinin kəsmə funksiyasını seçən zaman skaner şüşəsindən və sənəd örtüyündən istənilən çirki təmizləyin. Əgər orijinalın ətrafında çirk varsa, skanlama diapazonu onu daxil etmək üçün genişlənir.

Əlaqədar məlumat

➡ 63 səhifəsində "Orijinalların yerləşdirilməsi"

➡ 133 səhifəsində "Skaner Şüşəsi-nin təmizlənməsi"

Rəsmcik Rəsmciyində Önbaxış Mümkün Deyil

❏ Çoxsaylı orijinalları skaner şüşəsinə yerləşdirən zaman, orijinallar arasında ən azı 20 mm (0,79 düym) boşluq olduğuna əmin olun.

❏ Orijinalın düz yerləşdirilməsini yoxlayın.

❏ Orijinaldan asılı olaraq, önbaxış **Rəsmcik** rəsmciyində icra edilməyə bilər. Bu vəziyyətdə bütöv skanlanmış sahəyə öncədən baxmaq üçün önbaxış pəncərəsinin yuxarısındakı **Rəsmcik** seçim xanasını təmizləyin və sonra əl ilə çərçivələr yaradın.

Əlaqədar məlumat

➡ 105 səhifəsində "Epson Scan 2 ilə skanlama"

Axtarılabilən PDF kimi saxlayarkən mətn düzgün tanınmır

❏ **Təsvir formatı seçimləri** pəncərəsində Epson Scan 2-da **Mətn dili** parametrinin **Mətn** tabında düzgün təyin edildiyini yoxlayın.

❏ Orijinalın düz yerləşdirilməsini yoxlayın.

❏ Aydın mətn olan orijinaldan istifadə edin. Mətn tanınması aşağıdakı orijinal növləri üçün rədd edilə bilər.

  ❏ Bir neçə dəfə kopyalanmış orijinallar

  ❏ Faksla qəbul edilmiş orijianllar (aşağı əksetdirmədə)

  ❏ Hərflər və ya sıralar arasında boşluqlar çox kiçik olduqda

  ❏ Bölgülü xətlər və ya mətndə altdan xətlər olan orijinallar

  ❏ Əl ilə yazılmış mətnlər olan orijinallar

  ❏ Qatlı və ya əzik orijinallar

❏ **Sənəd rejimi** bölməsində (Epson Scan 2-da) **Təsvirin növü Əsas parametrlər** tab-vərəqində **Ağ & qara** təyin edildikdə, **Hədd qiyməti** həddini **Təkmil parametrlər** tab-vərəqində tənzimləyin. **Hədd qiyməti** artırdıqda, qara kəskinləşir.

❏ **Sənəd rejimi** bölməsində Epson Scan 2-da **Təkmil parametrlər** tab-vərəqini seçin və sonra **Təsvir seçimi** > **Mətnin təkmilləşdirilməsi** seçin.

Əlaqədar məlumat

➡ 106 səhifəsində "Sənədlərin Skanlanması (Sənəd rejimi)"

Skanlamış Şəkildə Problemləri Həll Etmək Mümkün Deyil

Bütün həlləri sınamısınızsa və problem həll olmayıbsa, Epson Scan 2 Utility ilə Epson Scan 2 işə salın.

Qeyd:
Epson Scan 2 Utility Epson Scan 2 ilə təmin edilən tətbiqdir.

1. Epson Scan 2 Utility işə salın.

   ❏ Windows 10

   Başlat düyməsinə klikləyin və sonra **EPSON** > **Epson Scan 2 Utility** seçin.

- ❏ Windows 8.1/Windows 8

  Axtarış panelində proqram adını daxil edin və ardından göstərilən işarəni seçin.
- ❏ Windows 7/Windows Vista/Windows XP

  Başlat düyməsini klikləyin və ardından **Bütün Proqramlar** və ya **Proqramlar** > **EPSON** > **Epson Scan 2** > **Epson Scan 2 Utility** seçin.
- ❏ Mac OS

  Get > **Proqramlar** > **Epson Software** > **Epson Scan 2 Utility** seçin.

2. **Digər** tab-vərəqini seçin.
3. **İlk.vəz.bər.et** klikləyin.

   Qeyd:
   İşə salma problemi həll etmirsə, Epson Scan 2-ı silin və yenidən quraşdırın.

Əlaqədar məlumat

➡ 154 səhifəsində "Proqramların silinməsi"
➡ 153 səhifəsində "Proqramların quraşdırılması"

Digər skanlama problemləri

Skanlama çox asta gedir

Rezolyusiyanı azaldın.

Əlaqədar məlumat

➡ 105 səhifəsində "Epson Scan 2 ilə skanlama"

Davamlı skanlama zamanı skanlamanın sürəti xeyli azalır

Skanner printerin mexanizminin qızmaması və zərər dəyməməsi üçün sürətini azaldır. Lakin, çap prosesinə davam edə bilərsiniz. Normal skanlama sürətinə qayıtmaq üçün printerin işinə ən az 30 dəqiqə fasilə verin. Söndürüldükdə, skanlama sürəti normala qayıtmayacaq.

PDF/Multi-TIFF formatına skanlayarkən skanlama dayanır

- ❏ Epson Scan 2 ilə skanlayarkən PDF formatında 999 səhifə, Multi-TIFF formatında 200 səhifə fasiləsiz skanlaya bilərsiniz.
- ❏ Çox sayda sənəd skanlayarkən boz şkala ilə skanlamağı tövsiyə edirik.
- ❏ Kompüterin sərt diskində boş yeri artırın. Boş yer olmadıqda skanlama dayana bilər.
- ❏ Aşağı rezolyusiya ilə skanlamağa çalışın. Ümumi məlumat ölçüsü limitə çatdıqda skanlama dayanır.

Əlaqədar məlumat

➡ 105 səhifəsində "Epson Scan 2 ilə skanlama"

Digər problemlər

Printerə toxunduqda yüngülcə elektrik vurur

Kompüterə bir çox köməkçi cihaz qoşulubsa, printerə toxunduqda yüngülcə elektrik vurması hiss edə bilərsiniz. Printerə qoşulan kompüterə torpaqlama quraşdırın.

Əməliyyat səsləri çox ucadır

Əməliyyat səsləri çox ucadan çıxırsa, **Səssiz rejim**-ni aktivləşdirin. Bu funksiyanın aktivləşdirilməsi çap sürətini azalda bilər.

❏ İdarəetmə paneli

Əsas ekrandan seçin və sonra **Səssiz rejim** rejimini aktivləşdirin.

❏ Windows printer drayveri

Səssiz rejim tab-vərəqəsindəki **Əsas**i aktivləşdirin.

❏ Mac OS printer drayveri

Sistem seçimlərini menyusu > **Printerlər və Skanerlər**-dən (və ya **Çap et və skanla**, **Çap et və Faksla**) seçin, sonra printeri seçin. **Seçimlər və təchizatlar** > **Seçimlər** (və ya **Drayver** klikləyin). **On** seçin (**Səssiz rejim** parametri).

Proqram fayrvol ilə bloklanıb (yalnız Windows üçün)

Proqramı Windows Fayrvol ilə icazə verilən proqramlara **İdarəetmə Panelindəki** təhlükəsizlik parametrlərindən əlavə edin.

Əlavə

Texniki spesifikasiyalar

Printer Spesifikasiyaları

Printer başlığı gözlərinin yerləşdirilməsi		Qara mürəkkəb başlıqları: 180 Rəngli mürəkkəb başlıqları: 59 hər rəng üçün
Kağızın Çəkisi*	Ağ vərəq	64 – 90 q/m² (17 – 24 funt)
	Zərflər	Zərf #10, DL, C6: 75 – 90 q/m² (20 – 24 funt)

* Hətta kağızın qalınlığı bu aralıqda olsa belə, kağızın xüsusiyyətləri və ya keyfiyyətindən asılı olaraq, kağız printerə yerləşdirilməyə və ya çap keyfiyyəti azala bilər.

Çap oluna bilən sahə

Tək Vərəqələr üçün çap oluna bilən sahə

Printerin mexanizminə görə kölgəli sahələrdə çap keyfiyyəti azala bilər.

Haşiyəli çap



A	3.0 mm (0.12 düym)
B	3.0 mm (0.12 düym)
C	41.0 mm (1.61 düym)
D	37.0 mm (1.46 düym)

Haşiyəsiz çap



A	44.0 mm (1.73 düym)
B	40.0 mm (1.57 düym)

Zərflər üçün çap oluna bilən sahə

Printerin mexanizminə görə kölgəli sahələrdə çap keyfiyyəti azala bilər.

	A	3.0 mm (0.12 düym)
	B	5.0 mm (0.20 düym)
	C	18.0 mm (0.71 düym)
	D	41.0 mm (1.61 düym)

Skaner spesifikasiyaları

Skaner növü	Düz korpuslu
Fotoelektrik cihaz	CIS
Maksimum sənəd ölçüsü	216×297 mm (8.5×11.7 düym) A4, Letter
Rezolyusiya	1200 dpi (əsas skan) 2400 dpi (sub skan)
Rəng dərinliyi	Rəng ❏ 48 bit/piksel daxili (16 bit/piksel/rəng daxili) ❏ 24 bit/piksel xarici (8 bit/piksel/rəng xarici) Boz rəng ❏ 16 bit/piksel daxili ❏ 8 bit/piksel xarici Ağ-qara ❏ 16 bit/piksel daxili ❏ 1 bit/piksel xarici
İşıq mənbəyi	LED

İnterfeys spesifikasiyaları

Kompüter üçün	Sürətli USB

Şəbəkə Funksiyası Siyahısı

Şəbəkə Funksiyaları və IPv4/IPv6

Funksiyalar			Dəstəklənir	Qeydlər
Şəbəkə Çapı	EpsonNet Print (Windows)	IPv4	✓	-
	Standard TCP/IP (Windows)	IPv4, IPv6	✓	-
	WSD Çapı (Windows)	IPv4, IPv6	✓	Windows Vista və ya daha yeni versiya
	Bonjour Çapı (Mac OS)	IPv4, IPv6	✓	-
	IPP Çapı (Windows, Mac OS)	IPv4, IPv6	✓	-
	UPnP Çapı	IPv4	-	İnformasiya cihazı
	PictBridge Çap (Wi-Fi)	IPv4	-	Rəqəmsal kamera
	Epson Connect (E-poçt Çapı, Uzaq Məsafədən Çap)	IPv4	✓	-
	AirPrint (iOS, Mac OS)	IPv4, IPv6	✓	iOS 5 və ya daha yeni versiya, Mac OS X v10.7 və ya daha yeni versiya
	Google Cloud Print	IPv4, IPv6	✓	-
Şəbəkə Skanlanması	Epson Scan 2	IPv4, IPv6	✓	-
	Event Manager	IPv4	✓	-
	Epson Connect (Buluda skanla)	IPv4	✓	-
	AirPrint (Skan)	IPv4, IPv6	✓	OS X Mavericks və ya daha yeni versiya
Fakslamaq	Faks göndər	IPv4	-	-
	Faksı qəbul et	IPv4	-	-
	AirPrint (Onlayn faks)	IPv4, IPv6	-	-

Wi-Fi Xüsusiyyətləri

Standartlar	IEEE 802.11b/g/n*1
Tezlik diapazonu	2,4 GHz

Maksimum Radio Tezliyi Enerjisi Ötürülür	20 dBm (EIRP)
Koordinasiya rejimləri	İnfrastruktur, Wi-Fi Direct (Sadə AP)*2*3
Simsiz Təhlükəsizliklər*4	WEP (64/128bit), WPA2-PSK (AES)*5

*1 IEEE 802.11n yalnız HT20 üçün mümkündür.

*2 IEEE 802.11b üçün dəstəklənmir.

*3 Adi AP rejimi Wi-Fi qoşulması (infrastruktur) ilə uyğundur.

*4 Wi-Fi Direct yalnız WPA2-PSK (AES) dəstəkləyir.

*5 WPA/WPA2 Personal üçün dəstək ilə WPA2 standartlarına uyğundur.

Təhlükəsizlik protokolu

SSL/TLS	HTTPS Serveri/Müştəri Proqramı, IPPS

Dəstəklənən üçüncü tərəf xidmətlər

AirPrint	Çap etmək	iOS 5 və ya daha yeni versiya/Mac OS X v10.7.x və ya daha yeni versiya
	Skanlamaq	OS X Mavericks və ya daha yeni versiya
Google Cloud Print		

Ölçülər

Ölçülər	Saxlanma ❏ Eni: 375 mm (14.8 düym) ❏ Dərinliyi: 300 mm (11.8 düym) ❏ Hündürlüyü: 170 mm (6.7 düym) Çap etmək ❏ Eni: 375 mm (14.8 düym) ❏ Dərinliyi: 578 mm (22.8 düym) ❏ Hündürlüyü: 242 mm (9.5 düym)
Çəki*	Təq. 4.3 kq (9.5 funt)

* Mürəkkəb kartricləri və elektrik kabeli olmadan.

Elektrik Spesifikasiyaları

Model	100 – 240 V Model	220 – 240 V Model
Seçilmiş tezlik diapazonu	50 – 60 Hz	50 – 60 Hz
Seçilmiş voltaj	0.2 – 0.4 A	0.2 A
Enerji sərfiyyatı (USB qoşulma ilə)	Ayrıca surətçıxarma: Təq. 12.0 Vt (ISO/IEC24712) Hazır rejimi: Təq. 5.0 Vt Yuxulama rejimi: Təq. 0.8 Vt İşəsalma qeyri-aktivdir: Təq. 0.3 Vt	Ayrıca surətçıxarma: Təq. 12.0 Vt (ISO/IEC24712) Hazır rejimi: Təq. 5.0 Vt Yuxulama rejimi: Təq. 0.8 Vt İşəsalma qeyri-aktivdir: Təq. 0.3 Vt

Qeyd:

❏ *Printerin üzərindəki etiketdə voltajı yoxlayın.*

❏ *Avropalı istifadəçilər üçün enerji sərfiyyatına dair təfsilatlar üçün aşağıdakı vebsayta baxın.*
http://www.epson.eu/energy-consumption

Ətraf mühit spesifikasiyaları

Əməliyyat	Printeri aşağıdakı qrafikdə göstərilən diapazonda istifadə edin.  Temperatur: 10 – 35°C (50 – 95°F) Rütubət: 20 – 80% RH (kondensasiyasız)
Saxlanma	Temperatur: -20 – 40°C (-4 – 104°F)* Rütubət: 5 – 85% RH (kondensasiyasız)

* Bir ay 40 °C (104 °F) temperaturda saxlaya bilərsiniz.

Mürəkkəb Kartricləri üçün ətraf mühit spesifikasiyaları

Saxlama temperaturu	-30 – 40 °C (-22 – 104 °F)*
Donma temperaturu	-16 °C (3.2 °F) 25 °C (77 °F) temperaturda mürəkkəb əriyir və təqribən 3 saat sonra istifadə edilə bilər.

* Bir ay 40 °C (104 °F) temperaturda saxlaya bilərsiniz.

Sistem tələbləri

- ❏ Windows 10 (32 bit, 64 bit)/Windows 8.1 (32 bit, 64 bit)/Windows 8 (32 bit, 64 bit)/Windows 7 (32 bit, 64 bit)/Windows Vista (32 bit, 64 bit)/Windows XP SP3 və ya sonrakı versiya (32 bit)/Windows XP Professional x64 Edition SP2 və ya sonrakı versiya
- ❏ macOS Mojave/macOS High Sierra/macOS Sierra/OS X El Capitan/OS X Yosemite/OS X Mavericks/OS X Mountain Lion/Mac OS X v10.7.x/Mac OS X v10.6.8

Qeyd:
- ❏ *Mac OS bəzi proqramları və funksiyaları dəstəkləməyə bilər.*
- ❏ *(UFS) üçün UNIX Fayl Sistemi Mac OS dəstəklənmir.*

Normativlərə dair məlumat

Standartlar və təsdiqlər

ABŞ modeli üçün standartlar və təsdiqlər

Təhlükəsizlik	UL60950-1 CAN/CSA-C22.2 No.60950-1
EMC	FCC Part 15 Subpart B Class B CAN/CSA-CEI/IEC CISPR 22 Class B

Bu avadanlıq aşağıdakı simsiz modula malikdir.

İstehsalçı: Seiko Epson Corporation

Növ: J26H006

Bu məhsul FCC Qaydalarının 15-ci hissəsinə və IC Qaydalarının RSS-210 saylı hissəsinə uyğundur. Epson məhsulun tövsiyə olunmayan modifikasiyasından yaranan nasazlıqlara görə məsuliyyəti qəbul etmir. Əməliyyat aşağıdakı iki şərtə tabedir: (1) bu cihaz zərərli müdaxiləyə səbəb ola bilməz və (2) bu cihaz daxil olan hər hansı müdaxiləni, o cümlədən, cihazın arzuolunmaz çalışmasına səbəb olan müdaxiləni qəbul etməlidir.

Lisenziyalı xidmətə radio müdaxiləsinin qarşısını almaq üçün bu cihaz içəridə və maksimum müdafiə təmin etmək üçün pəncərələrdən uzaqda istifadə edilməlidir. Çöldə quraşdırılmış avadanlıq (və ya onun ötürücü antenası) üçün lisenziya alınmalıdır.

Bu avadanlıq nəzarətsiz mühit üçün təyin edilmiş FCC/IC radiasiya təsir limitlərinə uyğun gəlir və IC radio tezliyi (RT) Təsiri qaydalarının OET65 və RSS-102 bəndlərinə C Əlavəsindəki FCC radio tezliyi (RT) Təsir Direktivlərinə müvafiqdir. Bu avadanlıq quraşdırılmalı və idarə edilməlidir ki, radiator insan bədənindən (kənarları çıxmaq şərtilə: əllər, biləklər, ayaqlar və topuqlar) ən azı 7,9 düym (20 sm) və ya daha uzaqda qalsın.

Avropa modeli üçün standartlar və təsdiqlər

Avropa istifadəçiləri üçün

Bununla Seiko Epson Corporation aşağıdakı radio təchizatı modelinin 2014/53/EU Direktivi ilə uyğun olduğunu bəyan edir. Aİ-nin uyğunluq bəyannaməsinin tam mətni aşağıdakı vebsaytda əlçatandır.

http://www.epson.eu/conformity

C636B

Yalnız İrlandiya, BK, Avstriya, Almaniya, Lixtenşteyn, İsveçrə, Fransa, Belçika, Lüksemburq, Niderland, İtaliya, Portuqaliya, İspaniya, Danimarka, Finlandiya, Norveç, İsveç, İslandiya, Xorvatiya, Kipr, Yunanıstan, Sloveniya, Malta, Bolqarıstan, Çex Respublikası, Estoniya, Macarıstan, Latviya, Litva, Polşa, Rumıniya və Slovakiyada istifadə üçündür.

Epson məhsulların tövsiyə olunmayan modifikasiyasından yaranan nasazlıqlara görə məsuliyyəti qəbul etmir.

CE

Avstraliya modeli üçün standartlar və təsdiqlər

EMC	AS/NZS CISPR32 Class B

Epson bildirir ki, aşağıdakı cihaz modelləri AS/NZS4268 tələbləri və müddəaları ilə uyğundur:

C636B

Epson məhsulların tövsiyə olunmayan modifikasiyasından yaranan nasazlıqlara görə məsuliyyəti qəbul etmir.

Surət çıxarma üzrə məhdudlaşdırmalar

Printerin qaydalara əməl olunaraq və məsuliyyətlə istifadə edilməsi üçün bu məhdudiyyətlərə əməl edin.

Bu elementlərin surətini çıxarmaq qanunla qadağandır:

- ❏ Banknotlar, qəpiklər, hökumətin buraxdığı istiqrazlar, hökumətin qiymətli kağızları və bələdiyyə istiqrazları
- ❏ İstifadə olunmayan poçt markaları, markalanmış açıqçalar və digər rəsmi poçt materialları
- ❏ Hökumətin buraxdığı gəlir ştampları, qanun çərçivəsində buraxılan istiqrazlar

Bu elementlərin surətini çıxararkən diqqətli olun:

- ❏ Özəl satışda olan istiqrazlar (birja sertifikatları, sövdələşmə mümkün olan qiymətli kağızlar, çeklər və s.), aylıq keçid kartları, konsessiya biletləri və s.
- ❏ Pasportlar, sürücülük vəsiqələri, yararlılıq zəmanətləri, yol keçid kartları, ərzaq sertifikatları, biletlər və s.

Qeyd:
Bu elementlərin surətini çıxarmaq da qanunla qadağan edilə bilər.

Müəllif hüququ verilən materialların məsuliyyətli istifadəsi:

Müəllif hüququ verilən materialların surətini çıxarmaqla printerlə sui-istifadə edilə bilər. Peşəkar vəkillə məsləhətləşmədən nəşr olunan materialı çap edirsinizsə, məsuliyyətli və hörmətlə yanaşın və çapdan əvvəl müəllifin icazəsini alın.

Printerin Daşınması və Saxlanması

Printerin yerini dəyişərkən və ya təmirə apararkən printeri aşağıdakı qaydada paketləyin.

> ⚠ ***Diqqət:***
>
> *Skaner qurğusunu açıb-bağlayarkən əl, yaxud barmaqlarınızı arasında qoymamağa diqqət yetirin. Yoxsa, zədələnə bilərsiniz.*

> ***Vacibdir:***
>
> ❏ *Printeri saxlayarkən və ya daşıyarkən onu əyməyin, vertikal yerləşdirməyin və ya baş-aşağı çevirməyin; yoxsa mürəkkəb sıza bilər.*



> ❏ *Kartricləri quraşdırılmış halda saxlayın. Kartriclər çıxarıldığı halda printer başlığı quruya və printer işləməyə bilər.*

1. ⏻ düyməsini basaraq printeri söndürün.
2. Enerji işığının sönük olmasına əmin olun və ardından elektrik kabelini çıxarın.

   > ***Vacibdir:***
   >
   > *Enerji işığı sönülü olduqda elektrik naqilini rozetkadan çıxarın. Yoxsa, çap başlığı əsas vəziyyətinə qayıtmır və mürəkkəb quruyur, nəticədə isə çap etmək mümkün olmur.*

3. Elektrik naqili və USB kabeli kimi bütün kabelləri çıxarın.
4. Bütün kağızları printerdən çıxarın.
5. Printerdə orijinalların qalmadığına əmin olun.

6. Sənəd örtüyü bağlı halda skaner qurğusunu açın. Lent ilə mürəkkəb kartrici tutacağını korpusa bərkidin.



7. Skaner qurğusunu bağlayın.

   Təhlükəsizlik üçün skaner qurğusu iki mərhələ ilə bağlanır.



Qeyd:
Skaner qurğusu aşağıda göstərilən mövqedən açıla bilməz. Açmazdan əvvəl onu tamamilə bağlayın.



8. Printeri aşağıdakı kimi qablaşdırmağa hazırlayın.



9. Qoruyucu materiallardan istifadə edərək printeri qutusuna qoyun.

Printeri yenidən istifadə etdikdə, kartric tutacağını saxlayan lenti çıxarın. Növbəti dəfə çap edərkən çap keyfiyyəti azalarsa, çap başlığını təmizləyin və düzləndirin.

Əlaqədar məlumat

➡ 16 səhifəsində "Hissə adları və funksiyaları"

➡ 130 səhifəsində "Printer başlığının yoxlanılması və təmizlənməsi"

➡ 132 səhifəsində "Çap başlığının düzləndirilməsi"

Köməyi haradan əldə etməli

Texniki dəstək vebsaytı

Əlavə kömək lazımdırsa, aşağıda göstərilən Epson dəstək vebsaytına baxın. Ölkənizi yaxud regionunuzu seçin və yerli Epson vebsaytının dəstək bölməsinə gedin. Ən son drayverlər, FAQlar, kitabçalar və ya yüklənməli materiallar da həmçinin saytdan əldə edilə bilər.

http://support.epson.net/

http://www.epson.eu/Support (Avropa)

Epson məhsulu düzgün işləmirsə və problemi həll edə bilmirsinizsə, kömək üçün Epson dəstək xidmətinə müraciət edin.

Epson dəstək xidmətinə müraciət

Epson ilə əlaqə saxlamazdan əvvəl

Epson məhsulu düzgün işləmirsə və məhsul kitabçalarındakı problemin həlli məlumatları ilə problemi həll edə bilmirsinizsə, kömək üçün Epson dəstək xidmətinə müraciət edin. Aşağıdakı siyahıda sizin region üzrə Epson dəstək xidməti yoxdursa, məhsulu aldığınız dilerə müraciət edin.

Aşağıdakı məlumatları bildirsəniz, Epson dəstək xidməti sizə daha tez kömək edəcəkdir:

❏ Məhsulun seriya nömrəsi
(Seriya nömrəsi adətən məhsulun arxasında yazılır.)

❏ Məhsulun modeli

❏ Məhsul proqramının versiyası
(Məhsulun proqramında **About**, **Version Info** və ya oxşar düyməni klikləyin.)

❏ Kompüterinizin brendi və ya modeli

❏ Kompüterinizin əməliyyat sisteminin adı və versiyası

❏ Adətən məhsulunuzla istifadə etdiyiniz proqramların adları və versiyaları

Qeyd:
Məhsuldan asılı olaraq, şəbəkə parametrləri məhsulun yaddaşında saxlana bilər. Məhsulun sınması və ya təmiri səbəbindən parametrlər itə bilər. Hətta zəmanət müddətində də Epson itən hər hansı məlumatlara, yaxud parametrlərin ehtiyat nüsxəsinin çıxarılmasına və ya bərpasına görə məsuliyyət daşımır. Tövsiyə edirik, özünüz belə məlumatların ehtiyat nüsxəsini çıxarasınız və ya başqa yerə qeyd edəsiniz.

Avropadakı istifadəçilər üçün kömək

Epson dəstək xidmətinə müraciətə dair məlumat üçün Pan-Avropa Zəmanət Sənədinə baxın.

Tayvandakı istifadəçilər üçün kömək

Məlumat, dəstək və xidmətlər üçün əlaqə məlumatları:

World Wide Web

http://www.epson.com.tw

Məhsul spesifikasiyaları, yükləmək üçün drayverlər və məhsul sorğuları mövcuddur.

Epson Dəstək Şöbəsi

Telefon: +886-2-80242008

Dəstək Şöbəsi komandamız aşağıdakılarla bağlı telefonda sizə kömək edə bilər:

❏ Satış sorğuları və məhsul barədə məlumatlar

❏ Məhsul istifadəsinə dair suallar və problemlər

❏ Təmir xidməti və zəmanət üzrə sorğular

Təmir xidməti mərkəzi:

http://www.tekcare.com.tw/branchMap.page

TekCare korporasiyası Epson Taiwan Technology & Trading Ltd şirkətinin səlahiyyətli xidmət mərkəzidir.

Avstraliyadakı istifadəçilər üçün kömək

Epson Avstraliya sizə yüksək səviyyədə müştəri xidməti göstərməyi arzu edir. Məhsul kitabçaları ilə yanaşı, məlumat əldə etmək üçün aşağıdakı mənbələri təmin edirik:

İnternet URL

http://www.epson.com.au

Epson Avstraliya World Wide Web səhifələrinə daxil olun. İnternetdə gəzmək üçün bura daxil olmağa dəyər! Bu sayt drayverlər üçün yükləmə yeri, Epson əlaqə nöqtələri, yeni məhsul məlumatı və texniki dəstək (e-poçt ilə) təmin edir.

Epson dəstək şöbəsi

Telefon: 1300-361-054

Epson Dəstək Şöbəsi müştərilərimizə məsləhətlər vermək üçün yaradılmış ehtiyat dəstək mərkəzidir. Dəstək şöbəsindəki əməliyyatçılar Epson məhsulunun quraşdırılması, konfiqurasiyası və istifadəsində sizə kömək edəcəkdir. Satışdan əvvəlki kömək şöbəsinin əməkdaşları yeni Epson məhsuluna, o cümlədən, ən yaxın diler və ya servisin harada yerləşməsinə dair məlumat təmin edir. Burada bir çox sorğular cavablandırılır.

Zəng etdiyiniz zaman bütün əlaqədar məlumatların əlinizin altında olmasını tövsiyə edirik. Nə qədər çox məlumat hazırlasanız, bir o qədər tez problemin həllinə kömək edərik. Bu məlumatlara daxildir: Epson məhsulunun kitabçası, kompüter növü, əməliyyat sistemi, tətbiqi proqramlar və zəruri olduğunu düşündüyünüz hər hansı məlumat.

Məhsulun Daşınması

Gələcək daşıma işləri üçün Epson məhsulun qutusunu saxlamağı tövsiyə edir.

Yeni Zelandiyadakı istifadəçilər üçün kömək

Epson Yeni Zelandiya sizə yüksək səviyyədə müştəri xidməti göstərməyi arzu edir. Məhsul sənədləri ilə yanaşı, məlumat əldə etmək üçün aşağıdakı mənbələri təmin edirik:

İnternet URL

http://www.epson.co.nz

Epson Yeni Zelandiya World Wide Web səhifələrinə daxil olun. İnternetdə gəzmək üçün bura daxil olmağa dəyər! Bu sayt drayverlər üçün yükləmə yeri, Epson əlaqə nöqtələri, yeni məhsul məlumatı və texniki dəstək (e-poçt ilə) təmin edir.

Epson dəstək şöbəsi

Telefon: 0800 237 766

Epson Dəstək Şöbəsi müştərilərimizə məsləhətlər vermək üçün yaradılmış ehtiyat dəstək mərkəzidir. Dəstək şöbəsindəki əməliyyatçılar Epson məhsulunun quraşdırılması, konfiqurasiyası və istifadəsində sizə kömək edəcəkdir. Satışdan əvvəlki kömək şöbəsinin əməkdaşları yeni Epson məhsuluna, o cümlədən, ən yaxın diler və ya servisin harada yerləşməsinə dair məlumat təmin edir. Burada bir çox sorğular cavablandırılır.

Zəng etdiyiniz zaman bütün əlaqədar məlumatların əlinizin altında olmasını tövsiyə edirik. Nə qədər çox məlumat hazırlasanız, bir o qədər tez problemin həllinə kömək edərik. Bu məlumatlara daxildir: Epson məhsulunun sənədləri, kompüter növü, əməliyyat sistemi, tətbiqi proqramlar və zəruri olduğunu düşündüyünüz hər hansı məlumat.

Məhsulun Daşınması

Gələcək daşıma işləri üçün Epson məhsulun qutusunu saxlamağı tövsiyə edir.

Sinqapurdakı istifadəçilər üçün kömək

Epson Singapore-dan məlumat mənbəyi, dəstək və xidmətlər:

World Wide Web

http://www.epson.com.sg

Məhsul spesifikasiyaları barədə məlumatlar, yüklənəcək drayverlər, Tez-tez verilən suallar (FAQ), Satış sorğuları və e-poçt ilə Texniki Dəstək mövcuddur.

Epson Dəstək Şöbəsi

Pulsuz zəng: 800-120-5564

Dəstək Şöbəsi komandamız aşağıdakılarla bağlı telefonda sizə kömək edə bilər:

❏ Satış sorğuları və məhsul barədə məlumatlar

❏ Məhsul istifadəsinə dair suallar və ya nasazlıqların aradan qaldırılması

❏ Təmir xidməti və zəmanət üzrə sorğular

Honq-Konqdakı istifadəçilər üçün kömək

Texniki dəstək və satış sonrası xidmətləri əldə etmək üçün istifadəçilər Epson Hong Kong Limited ilə əlaqə saxlaya bilər.

İnternet əsas səhifəsi

http://www.epson.com.hk

Epson Hong Kong Çin və İngilis dillərində hazırladığı əsas səhifəsi ilə internetdə istifadəçilərə bu məlumatları təmin edir:

❏ Məhsul haqqında məlumat

❏ Tez-tez verilən suallara (FAQlar) cavablar

❏ Epson məhsul drayverlərinin ən son versiyaları

Texniki dəstək xidmətinin qaynar xətti

Həmçinin, aşağıdakı telefon və faks nömrələri ilə texniki heyətimizlə əlaqə saxlaya bilərsiniz:

Telefon: 852-2827-8911

Faks: 852-2827-4383